# QƏDİM DİYAR

Beynəlxalq onlayn elmi jurnal

## ANCIENT LAND

International online scientific journal

aem.az

AEM

ISSN: 2706-6185
e-ISSN: 2709-4197

**AZƏRBAYCAN RESPUBLİKASI**

**THE REPUBLIC OF AZERBAIJAN**

# QƏDİM DİYAR

**Beynəlxalq onlayn elmi jurnal**

**Cild: 6 Sayı: 4**

# ANCIENT LAND

**International online scientific journal**

**Volume: 6 Issue: 4**

**Bakı – Baku**
**2024**

Jurnal 31.01.2012-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir
Reyestr №3534

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
31.01.2012.
Registration No. 3534

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 806 67 68
+994 12 510 63 99

**e-mail**
qedim.2012@aem.az

## Beynəlxalq indekslər / International indices

**ISSN: 2706-6185**
**e-ISSN: 2709-4197**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

## Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

## Redaktor

**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
nigar_veliyeva@yahoo.com

## Editor

**Prof. Dr. Nigar VALIYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
nigar_veliyeva@yahoo.com

## Redaktor köməkçisi

**Tədqiqatçı Nəhayət HÜSEYİNLİ**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
nehayet.huseynli@gmail.com

## Assistant editor

**Researcher Nahayat HUSEYINLI**, Azerbaijan Science Center / Azerbaijan
nehayet.huseynli@gmail.com

## Dillər üzrə redaktorlar

**Assoc. Prof. Dr. Gülçöhrə ALIYEVA**, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan

## Language editors

**Assoc. Prof. Dr. Gulchora ALIYEVA**, Azerbaijan State Marine Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, ANAS Institute of Linguistics / Azerbaijan

## Elmi sahələr üzrə redaktorlar

**Prof. Dr. Rafail ƏHMƏDLİ,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zərövşən BABAYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Fazil BAXŞƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Təhminə ƏLİYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Salatın HACIYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

## Editors in scientific fields

**Prof. Dr. Rafail AHMADLI**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Zarovshan BABAYEVA**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Fazil BAKHSHALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Tahmina ALIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Salatin HAJIYEVA**, Nakhchivan State University / Azerbaijan

## REDAKSİYA HEYƏTİ

**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Abdulkadir GÜL**, Ərzincan Binalı Yıldırım Universiteti / Türkiyə
**Prof. Dr. Əsməd MUXTAROVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vaqif SOLTANLI**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Rafail HƏSƏNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ələmdar ŞAHVERDİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV**, Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Dr. Nasiba SABİROVA**, Urgenc Dövlət Universiteti / Özbəkistan
**Prof. Dr. Adil BAXŞƏLİYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Seyfəddin RZASOY**, AMEA Folklor İnstitutu / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Mübariz SÜLEYMANOV**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Sərvər ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mönsüm ALIŞOV**, “İdrak” liseyi / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Aynel MƏŞƏDİYEVA**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mehriban İMANOVA,** Naxçıvan Dövlət Univetsiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Taleh XƏLİLOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fərqanə ƏLİYEVA**, DİN-nin Polis Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Lyudmila CAVADOVA**, İqtisadiyyat və Hüquq üzrə Pedaqoji Kollec / Rusiya, Dağıstan Respublikası
**Assoc. Prof. Dr. Şəhla ƏHMƏDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Rəşad SADIQOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramis HƏŞİMOV**, Dağıstan Dövlət Universitetinin Dərbənd filialı / Rusiya, Dağıstan Respublikası

## EDITORIAL BOARD

**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Abdulkadir GUL**, The University of Arzinjan Binali Yildirim / Turkey
**Prof. Dr. Asmad MUKHTAROVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vagif SOLTANLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Rafail HASANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Alamdar SHAHVERDIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Yagub BABAYEV,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Nasiba SABIROVA**, Urgench State University / Uzbekistan
**Prof. Dr. Adil BAKHSHALIYEV**, Sumgait State University / Azerbaijan
**Prof. Dr. Seyfaddin RZASOY**, ANAS Institute of Folklore / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Mubariz SULEYMANOV**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Sarvar ABBASOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Monsum ALISHOV**, Idrak Lyceum / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, The Institute of History of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Aynel MASHADIYEVA**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Mehriban IMANOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Taleh KHALILOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinc RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**Assoc. Prof. Dr. Fargana ALIYEVA**, Police Academy of the Ministry of Internal Affairs / Azerbaijan
**Assoc. Prof. Dr. Lyudmila JAVADOVA**, Pedagogical College on Economy and Law / Russia, The Dagestan Republic
**Assoc. Prof. Dr. Shahla AHMADOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Astrakhan State University / Russia
**Assoc. Prof. Dr. Rashad SADIGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramis HASHIMOV**, Derbend branch of Dagestan State University / Russia, the Dagestan Republic

DOI: https://doi.org/10.36719/2706-6185/34/6-11

**Günay Məmmədova**
Naxçıvan Dövlət Universiteti
sənətşünaslıq üzrə fəlsəfə doktoru
gunaymammadova6565@gmail.com
ORCID: 0000-0002-6072-7135

# TÜRKİYƏNİN İĞDIR VƏ QARS BÖLGƏLƏRİNİN FOLKLORUNDA UNUDULMUŞ MÖVSÜM MƏRASİMLƏRİ

**Xülasə**

Məqalədə Türkiyənin İğdır və Qars bölgələrində qədim zamanlarda keçirilən mövsüm mərasimlərindən bəhs edilir. Tədqiqatın əsas məqsədi araşdırmaya cəlb edilən mərasimlərin səciyyəvi xüsusiyyətlərini və müasir dövrümüzdə icra edilməsi və ya unudulmasını ortaya çıxarmaqdır. Tədqiqata məhz bu bölgələrin cəlb edilməsinin əsas səbəbi bölgənin folklorik xüsusiyyətləri baxımından zəngin olması və müasir dövrdə də müəyyən mənada bu xüsusiyyətlərin qorunub saxlanılmasıdır. Araşdırma zamanı məlumat toplama vasitəsi kimi müvafiq mənbələrdən, internet reasusrlarından məlumatlar əldə olunmuş, eyni zamanda müsahibə metodundan istifadə edilmişdir. İnformatorlardan əldə edilən məlumatlar elmi ədəbiyyatlarda yazılanlara daha yaxşı işıq tutmaq üçün önəmli vasitə olmuşdur. Tədqiqatda əsas problem olaraq İğdır və Qarsda icra edilən mövsüm mərasimləri və bu mərasimlərdə ifa olunan nəğmələrin əsas xüsusiyyətləri nəzərdən keçirilir.

Qədimdə icra edilən mərasimlərdən “Kepşegelin”, “Üzərliksalma”, “Dodu”, “Musalla”, “Hıdır Ellez” kimi mövsüm mərasimləri Azərbaycan türklərinin yaşam tərzində önəmli yeri olan ayinlər olmuşdur.

İğdır-Qars bölgəsinin folklorunun, xüsusən məişət və mərasim ayinlərində istifadə edilən ayrı-ayrı janrların dil, forma, ifa üslubları onların musiqi ilə sıx bağlı olmasını üzə çıxarır. Ona görə də bu bölgələrin, ümumiyyətlə götürüldükdə Türkiyənin Şərq bölgəsinin zəngin və rəngarəng ənənəvi mədəniyyətinin araşdırılıb üzə çıxarılmasında folklorun öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

***Açar sözlər:*** *folklor, İğdır, Qars, Dodu, Kepçegelin*

**Gunay Mammadova**
Nakhchivan State University
Doctor of Philosophy in Art Studies
gunaymammadova6565@gmail.com
ORCID: 0000-0002-6072-7135

## Forgotten seasonal ceremonies in the folklore of Igdir and Kars regions of Turkey

**Abstract**

In the article, seasonal ceremonies performed in ancient times in the Igdir and Kars regions of Turkey are described. The main purpose of the research is to reveal the characteristic features of the ceremonies subject to the research, whether they are performed or forgotten in our modern age. The main reason for including these regions in the research is that the region is rich in folklore characteristics and these characteristics are preserved in a certain sense in the modern period. During the research, information was obtained from relevant sources and internet sources as a data collection tool, and an interview method was also used. The information obtained from the informants has been an important tool in shedding better light on what is written in the scientific literature. Seasonal ceremonies performed in Iğdır and Kars and the basic characteristics of the songs performed in these ceremonies are considered the main problems of the research.

Seasonal ceremonies such as "Kepchegelin", "Uzerliksalma", "Dodu", "Musalla", and "Hidir Ellez" were held in ancient times and have an important place in the lifestyle of Azerbaijani Turks.

The language, form, and performance styles of the folklore of the Igdir-Kars region, especially the individual genres used in home and ceremonial rituals, reveal their close connection with music. Therefore, folklore studies have special importance in researching and revealing the rich and colorful traditional culture of these regions, especially the Eastern Region of Turkey.

***Keywords:*** *folklore, Igdir, Kars, Dodu, Kepchegelin*

## Giriş

Xalqın qədim mədəniyyətinin əsas güzgüsü hesab edilən xalq yaradıcılığı müəyyən tarixi-ictimai şəraitdən asılı olmuş, real məzmun daşıyaraq həmişə xalqın həyat şəraiti və məişəti ilə sıx bağlı olmuşdur. Folklor xalqın bütöv keçmişini, yaşadığı zamanın səciyyəvi xüsusiyyətlərini, insanların arzu və istəklərini özündə ehtiva edir. Bu nümunələrdən bir çoxu əsrlərdən bəri ağızdan-ağıza, nəsildən-nəsilə keçmiş, cilalanaraq zəmanəmizə qədər gəlib çatmış, bəziləri isə unudularaq icra edilməmişdir.

"Qeyri-Maddi Mədəni İrs şifahi ənənəyə əsaslanan, buna görə də variant və versiyalardan təşkil olunan və yaşadılan canlı irs sahəsidir. Maddi mədəniyyət abidələrində olduğu kimi, qorunmalı olan sərhədləri var, eyni zamanda yenilənə bilən unikal və orijinal irs olmaqla yanaşı, yenidən yaradıla bilən bir mirasdır" (Gürçayır, 2011: 7).

Sayaçı sözləri, əmək və mərasim nəğmələri, holavarlar əcdadlarımızın əmək fəaliyyətini, ayinlərini, təbiətə, ətraf aləmə qarşı təsəvvürləri əks etdirir.

"Şifahi xalq yaradıcılığının inkişaf tarixində türk xalqları arasında olan mədəni əlaqələr, həmçinin qarşılıqlı münasibətlər və soykökündən gələn ənənələr böyük rol oynamışdır. Mərhələli şəkildə yüksələn bu inkişafı professor A.Nəbiyev 3 qrupa – ibtidai folklor, əsatir dövrü və orta əsr folkloru və yeni dövr folklor yaradıcılığı kimi qruplara bölmüşdür.

Əski türk qəbilələrinin formalaşdığı ən qədim və mürəkkəb dövr ibtidai folklor yaradıcılığının yarandığı dövrdür. "İbtidai folklor yaradıcılığı əsatir dövrü folklor yaradıcılığının başlanması üçün zəmin hazırlayır. Onun məqsədi aydındır. Bu dövrdə yaranan Azərbaycan əsatirlərinin tədqiqi xalqın tarixi inkişafında folklor ənənəsinin ümumiliyindən doğur. Əsatir yaradıcılığından sonra yaranan janr müxtəlifliyi də bu cərgəyə aiddir. Xalqların bədii yaradıcılığından yaranan bu janrlar spesifiklik təşkil edir, mövzu və ideyası ilə qarşılıqlı əlaqədə olur" (Əliyev, 2014: 13).

**Qədimdə icra edilən mövsüm mərasimləri:** İğdır və Qars folklor mühitində musiqi folkloru janrları xalq məişətində geniş, rəngarəng formalarda təmsil olunmuşdur. Xalqın məişət və mərasim folklorunda elə bir sahə yoxdur ki, xüsusən də yerli kənd, şəhər folklorunda musiqi janrları özünü qabarıq şəkildə göstərməmiş olsun.

Hələ qədimdən insanların həyatında ən önəmli hadisələr müxtəlif mövsüm və məişət mərasimlərin icrası ilə intişar tapmışdır: insanın anadan olması, toy-büsatı, ölümü, fəsillərin dəyişməsi, quraqlıqla mübarizə, günəşi çağırma mərasimləri və s. bütün bunlar müxtəlif xalqların folklorunda fərqli ayinlərdə əks olunaraq onların yaşayışından, keçib gəldiyi inkişaf yolundan xəbər verir (Acar, 2010).

Köçəri həyat yaşayan, daha çox əkinçilik və heyvandarlıqla məşğul olan türklər üçün yağış bolluq, bərəkər, həyat və yaşam simvolu olaraq dəyərləndirilirdi. Quraqlıq isə fəlakət demək idi. Bu fəlakətin qarşısını almaq üçün insanlar bir sıra ayinlər və dualar icra edərdilər. Bunlardan biri və demək olar ki, ən qədimi **"Çömçəli gəlin" (Kepçegelin)** adlı mərasim idi. Bu mərasim Naxçıvan bölgəsində "Çömçəxatun" adı ilə mövcud olmuşdur. Uşaqların birlikdə həyata keçirdikləri oyun-mərasim Türkiyənin Anadolu bölgəsində də ta qədimdən var olan bir mərasim olmuşdur. "Bu oyuna Bişkek'te, Ahıska Türkleri arasında "kepçe hatun"; Türkistan'da "sust hatın", "süt hatın", "çele hatın"; Türkmenler arasında "syuyt gazan", "syuyt hatın"; Tacikler arasında "sust mama", "sust hatın", "aşağlan"; Sürhanderya'da "boz hatın", "sust hatın"; Kaşkaderya'da "söz hatın", "ceyle kazak"; Türkistan şehrinde "çele hatın", "kösem kösem", "sûr hatın"; Dağıstan'da "gudu gudi", "paşapay"; Musul-Kürkük'te "çemçele kız"; Yugoslavya'da "demir dodele"; Anadolu sahasında

ise; “bodi bodi”, “bodi bostan”, “cici ana”, “çalı gezme”, “çaput adam”, “çomça gelin”, “çömçeli gelin”, “çullu kadın”, “dodu”, “dodi dodi”, “eşek gelin etme”, “gelin gok”, “gode gode”, “godi godi”, “godu godu”, “göde göde”, “hucrik”, “kelis”, “kepçe kadın”, “kepçe gelin”, “kepçecik”, “mılla (molla) potik”, “ümmül gays” (Suriye Araplarında), “yağmur duâsı”, “yağmur gelin” vs. gibi isimler verilir (Şimşek, 2003: 80). Belə ki, ağacın bir budağı uşaqlar tərəfindən gəlin kimi bəzədilirdi. Bu ağacı uşaqlardan biri əlinə alar, digərləri isə əllərində torba uşaqlar qapı-qapı gəzərək nəğmə oxuyurmuşlar. Evlərdən yığdıqları ərzaqları torbanın içinə doldururmuşlar. İğdır bölgəsində yaşayan yaşlı nəslin nümayəndəsi Yakub Akpolad bu ayinin onlar uşaq ikən keçirildiyini xatırlayır.

Kepçe gelin ne ister?
Kaşık, kaşık yağ ister.
Yağ olmazsa un ister,
Bir sulu yağmur ister (Aydın, 1970: 97).

Uşaqların oxuduğu nəğmədən sonra ev sahibi, onların torbasına yağ, un, yumurta, qovurma, duz və s. kimi ərzaqlar qoyur, gətirdiyi suyu gizlicə “Çömcə gəlin”i gəzdirən uşağın üzərinə atır. Və beləliklə, insanlar bu oyun-mərasimdən sonra yağış yağacağına inanırlar.

Yağışı yağdırma mərasimlərindən biri olan Musallaya çıxmaq vaxtilə çox geniş yayılmış ənənələrdən idi. Kəndin mollası başda olmaqla yaşlı-gənc hər kəs dua etmək üçün yüksək bir təpəyə çıxar, molla və kənd camaatı orada dua edər, Allahdan yağış yağdırmasını istəyərdilər. Həmçinin bu zaman qurban kəsilər, imkansız ailələrə paylanırmış. İnsanlar Allaha dua etməklə Allahın onların səsini eşidəcəklərinə və bu duadan sonra quraqlığın bitəcəyinə inanırdılar (Aydin, Alin, Ozkaya, 2010).

Yağışın çox yağdığı günlərdə əkinlərin ziyan olmaması üçün insanlar qədimdə günəşi çağırma mərasimi də icra edirdilər. Bu, İğdır və Qars bölgələrində **“Dodu”** və ya **“Godi”** mərasimi (Naxçıvanda “Qodu-qodu”) adlanırdı. Bu mərasimdə bir ağac budağını, yaxud süpürgəni qız uşağı kimi geyindirər, ona rəngli şərflər bağlayar və beləcə Dodunu hazırlayardılar. Bu oyuncaq sanki günəşi xatırladardı. Dodunu əlinə alan uşaqlar dəstə ilə kənddəki evləri dolaşar, öz nəğmələrini oxuyardılar. Dodunu yetim uşaq əlində gəzdirməlidir, çünki inanca görə Allah yetimlərin duasını tez eşidirmiş. Uşaqların pay istəməsindən sonra ev sahibləri onların torbasını müxtəlif ərzaqlarla doldururmuşlar (Zeynel Abidin Makas, 1952).

Qars bölgəsində nəğməni belə oxuyurmuşlar:
“Godi godiyi gördün mü
Godi’ye selam verdin mi
Godi burdan geçerken
Bir tas suyun verdin mi
Ver Allah’ım ver, bir sürü yağmur” (Kalafat, 2010: 348)

Maraqlıdır ki, göstərilən nümunədə “Ver Allah’ım ver, bir sürü yağmur” ifadəsi işlənir. Ancaq məlumdur ki, “Dodu” (Godi) günəşi simvolizə edir. Elə təsadüfi deyil ki, həm Iğdır, həm də Naxçıvan bölgələrində də Dodu günəşi çağırma mərasimidir.

İğdır bölgəsinə məxsus olan folklor nümunəsi isə belədir:
Dodu, dodunu gördün mü?
Doduya selam verdin mi?
Dodu buradan gedende
Heç gün üzü gördün mü?
Çatma çatma çatmasın
Çatma yere batmasın
Herkes dodunun payını vermezse
Evinin goynunda yatmasın
Gara toyuh genedi
Kim vurdu kim sanadı (saydı)
Gedirdim gonşuluğa

İt baldırımı daladı
Dodu, dodunu gormezder,
Doduya salan vermezder.
Dodu burdan geşmese,
Heş gün üzü görmezder.
Dodu geldi doduya Salam Verdi.
Doduya Yağ veren hatın olsun,
Un veren gotur olsun (Öcal, 1970: 261-262).

**Hıdırellez.** Bu bayram hələ qədimdən Naxçıvanda "Xıdır Nəbi", "Xıdır" adı ilə fevral ayının ilk ongünlüyündə - yəni böyük çillənin bitib kiçik çillənin başlanğıcında qeyd olunduğu halda, İğdır və Qarsda may ayının 5-də keçirilirdi. Bu bayram "Hıdırellez" adlanırdı. Rəvayətə görə Hıdır Ellezin düşmənləri onun tutmaq istəyir, Hıdır Ellez onların əlindən qaçıb bir evə girir. Ev sahibləri onu gizlədir. Lakin deyilənə görə peyğəmbərlərin özünəməxsus bir qoxusu olduğu üçün Xıdır (Hızır) peyğəmbərin düşmənləri onu tapmasın deyə ev sahibi arvadından buğda qovurmasını istəyir. Arvad buğda qovurur, kişi düşünür ki, bu qoxu bir evdən gəlsə düşmənlər şübhələnər, ona görə arvadına deyir ki, götür buğdadan qonşulara da payla. Beləliklə onlar Xıdır peyğəmbəri düşmənlərdən gizlədə bilirlər. İnformatorların verdiyi məlumata əsasən deyə bilərik ki, Xıdır bayramında buğda qovurmaq adəti də buradan gəlirmiş. Buna "Qavurqa" deyirlər. Elə paylaşmaq ənənəsi də buradan gəlir. Çünki, bu bayramda oğlan uşaqları, gənclər qapı-qapı gəzərək qaöıları döyər, gizlənər, papaq atar və belə bir nəğmə oxuyaraq pay istəyərlər (Qars vilayəti. Mədəniyyət inventar, 2009):
Xıdıra Xıdır deyərlər,
Xıdırın payın verəllər.
Xıdırın payın verməyənin
Qapısından küsüb gedərlər. – bu misraları günümüzdə Naxçıvan şəhərində hələ də sevərək qeyd edilən Xıdır bayramında oxuyurlar. Lakin tədqiqatlar zamanı Naxçıvan bölgəsindən toplanılan məlumatlara əsasən deyə bilərik ki, daha öncələri bu nəğmə nisbətən başqa cür oxunarmış:
Xıdıra Xıdır deyərlər,
Xıdıra çörək verərlər.
Mən Xıdırın nəyiyəm?
Ayağının nalıyam,
Xanım, ayağa dursana,
Yükün dalın açsana.
Torbanı doldursana,
Qonağı yola salsana.
Qara toyuğun qanadı,
Kim vurdu, kim sanadı?
Məhlənizə gələndə
İtlər bizi daladı (Cəfərli, Babayev, 2010: 105).

Qarsda Hıdır Ellez günü qapı pusub niyyət tutarlar. Həm də insanları inanardılar ki, həmin gecə Xıdır peyğəmbər gəlib evdəki bütün ərzaqlara əl basacaq və həmin il bərəkətli keçəcək. Bu bayramın ən məşhur yeməyi isə qovrulmuş buğdadan hazırlanan "Qavut" idi.

Xıdır bayramı qışın qurtarıb yazın başlanmasının xəbərçisi olaraq qeyd olunan mövsüm bayramıdır. Lakin digər tərəfdən bu bayramın adının Xıdır peyğəmbərlə bağlı olması onu bir növ dini mərasim kimi də dəyərləndirməyə imkan verir.

""Xıdır" sözü ərəbcə Əl-Xadır sözündəndir, daha çox isim olaraq işlədilən bu söz bir çox mənbələrdə ləqəb olaraq bilinir. Həmin söz də ərəbcə "Xadra//Hazra" sözündən olub kökü, "yaşıl, yamyaşıl, yaşıllıq" mənasında olan "Axdar//Axzar"la bağlıdır. Bəzi mənbələrdə "Əl-Xıdır", "Əl-Xadr" şəklində verilən "Əl-Xadır" sözünün Anadolu türkləri arasında "Hızır", "Hıdır", yaxud da Azərbaycanda "Xıdır", "Xızır" kimi işlədilməsi də çox güman ki, ərəbcə "yaşıl" mənasında olan "Xadra//Xazra" və "Hazra//Hadra" sözlərinin yazılışı və deyilişindən irəli gəlir. Xıdırnəbi, yaxud Xızırnəbi ifadəsi isə "Xıdır//Xızır" və ərəbcə "xəbərçi, peyğəmbər" mənasında olan "nəbi"

sözlərinin birləşməsindən yaranmışdır. Xızırəlləz sözü də Xızır ilə İlyas adlarının birləşməsinin xalq arasında qısaldılmış formasıdır" (Məmmədova, 2014: 77).

Naxçıvanda bu bayram müasir dövrümüzdə də insanların böyük sevinclə keçirdiyi bayram olsa da, İğdır və Qarsda bu bayram artıq qeyd edilməməkdədir.

İstər "Dodu", "Çömçə gəlin", "Musalla", istərsə də "Hıdır Ellez" kimi ayinlər İğdır və Qars bölgələrində günümüzdə keçirilmir və hətta demək olar ki, unudulmuşdur.

Qədimdə insanlar çətin vəziyyətə düşdükləri zaman müxtəlif çıxış yolları axtarırdılar. Məsələn, kiminsə başına pis bir hadisənin gəlməsini istəmədikdə onu bədnəzərdən qorumaq üçün **"Üzərliksalma"** deyilən ayini icra edirmişlər. Bu, ən qədim ənənələrdən biridir. Əslində bu ayin müasir dövrümüzdə də yaşlı nəslin nümayəndələri tərəfindən həyata keçirilir. İnsanlar inanır ki, üzərlik yandıran zaman bəd nəzərlər məhv olur, hər şey daha xeyirli olur (Adgül Tacəddin qızı Türkmən, 1953).

Üzərliksalma mərasiminin mövsümlərlə əlaqəsi olmasa da İğdır və Qarsın folklorunda məişət nəğmələri arasında gözdən qorunmaq, yəni nəzəri dəf etmək ənənəsi ilə bağlı olaraq keçirilən ayin olmuşdur. Mətnin poetik-semantik strukturu üzərliyin təsir dairəsinin genişliyi və əhatəliliyini göstərir. "Min bir dərdə davasan" sözləri mətnin bədii və poetik strukturunun mahiyyətini, əsas semantikasını təşkil edir. Qeyd etmək istərdik ki, "Üzərliksalma" mərasimi təkcə Iğdır və Qarsda deyil, bütün Azərbaycan türklərinin məişətində var olmuş, və bu, bir ənənə olaraq öz arxaikliyini saxlamışdır (Çətin Adıgözəl Rəhim oğlu, 1963).

Qarsın Səlim rayonunun Bölükbaş kəndindən olan informator Adgül Türkmən bu ayini icra edən zaman belə oxuyur:

Üzərriyhsən havasan,
Yaman dərdə davasan.
Üzərriyh dənə-dənə,
Hərəsi bircə yana.
Qohum ola yad ola
Gözü bu odda yana.
Üzərriyh çırtda,
Yaman gözdər pırtda.
Üzərriyh hava-hava
Hərəsi bircə yana.
Nazarların həpsi getsin bizi istəmiyənlərə (İnformator: Türkmən, A.).

"Üzərliksalma" mərasimində oxunan nəğmənin adətən 7 hecalı olması və şeirin məzmunundan irəli gələn ahəngin sakit, lirik formada oxunması onu göstərir ki, reçitativ formalı bu havalar qapalı məkanda oxunardı. Bu sahədə aparılan araşdırmalar göstərir ki, üzərliksalma mərasimində oxunan nəğmələr qadınlar tərəfindən müşayiətsiz şəkildə ifa edilirdi. Adətən bu tip nəğmələr bir neçə qadının yığışıb üzərliksalma prosesində birsəsli formada olan nəğmənin kütləvi oxunması ilə icra olunurdu. Bu nəğmələr psixo-emosional baxımdan insanlara ümid vermə, onları bədnəzərdən qorumaq əhval-ruhiyyəsi aşıladığı üçün müsbət təsir edirdi. Mərasimin sonunda insanlar özündə müəyyən yüngüllük hiss etməklə, yüksək əhval-ruhiyyəyə sahib olurdular. Belə ayinlərdə həm musiqinin emosional təsir gücü, həm də mərasimin öz abu-havası insanlara yaşamaq eşqi aşılayırdı (Şaziye Çelik Sedi qızı, 1960; Yakub Akpolad Həbib oğlu, 1936).

## Nəticə

Mədəniyyət ümumi olaraq inanclar, adət və ənənələr, insan tərəfindən yaradılan hər şeydir. Başqa sözlə desək, mədəniyyət ulu babalarımızdan bizlərə miras qalan maddi və mənəvi dəyərlərdir. Azərbaycan türkləri əsrlərdən bəri xalqın məişətindən, yaşam tərzindən irəli gələn milli mənəvi dəyərləri, inancları da öz folklorunda yaşatmışdır.

Tədqiqatlar nəticəsində aydın olur:

✓ İğdır və Qarsda yaşayan soydaşlarımız öz milli köklərindən uzaqlaşmamış, folklorumuza, qədim adət-ənənəmizə sahib çıxmış, mümkün olduqca yaşatmağa çalışmışlar.

✓ Qədimdə icra edilən mövsüm mərasimlərinin bir çoxu – Xıdır Ellez, Musalla, Dodu, Kepçegelin kimi ayinlər artıq həyata keçirilmir.

✓ Üzərliksalma mərasimi yalnızca evlərdə yaşlı nəslin nümayəndələri tərəfindən icra edilir.

✓ Tədqiqata cəlb edilən mövsüm mərasimlərində müəyyən diapazona malik melodik nəğmələrə rast gəlinmir.

✓ Oxunan nəğmələr adətən reçitativ üslubda olmuşdur ki, bu da onların arxaikliyindən xəbər verir.

## Ədəbiyyat


1. Gürçayır, S. (2011). "Qeyri-Maddi Mədəni İrsin Qorunması Konvensiyasına dair Tənqidi Oxu". Qazi Universiteti Milli Folklor jurnalı, il 23, 92 s.
2. Əliyev, R. (2014). Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 350 s.
3. Acar, Z.Z. (2010). Iğdır in every aspect. Ankara, 320 p.
4. Şimşek, E. (2003). Yağış duası əsasında Anadoluda oynanılan bir oyun: "Çömçe ilə gəlin", Milli Folklor, 15-ci il, 60-cı sayı.
5. Aydin, S. (1970). Kağızman Folklore. Erzurum: Unpublished Undergraduate Thesis. AUEF.
6. Aydin, S., Alin, K., Ozkaya, I. (2011). Kars region folklore research-I. Izmir, 128 p.
7. Zeynel Abidin Makas. (1952). İgdir.
8. Kəlafət, Y. (2010). Şərqi Anadoluda Qədim Türk İnanclarının İzləri. Genişləndirilmiş 6-cı Nəşr. Ankara.
9. Öcal, T. (1970). Iğdır Folklor və Etnoqrafiya (Nəşr olunmamış Bakalavr Tezi). AUEF, Ərzurum.
10. Qars vilayəti. Mədəniyyət inventar. (2009). Qars Qubernatorluğu İl Xüsusi İdarəsi. Ankara.
11. Cəfərli, M., Babayev, R. (2010). Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru I cild. Toplayıb tərtib edənlər. Naxçıvan, 388 s.
12. Adgül Tacəddin qızı Türkmən. (1953). Qars/Bölükbaş
13. Çətin Adıgözəl Rəhim oğlu. (1963). Qars/Mərkəz
14. Məmmədova, M. (2014). Azərbaycan və Anadolu folklorunda oyun və tamaşalar. Bakı, 213 s.
15. Şaziye Çelik Sedi qızı. (1960). Qars/Arpaçay
16. Yakub Akpolad Həbib oğlu. (1936). İğdır/Mələkli


Göndərilib: 12.02.2024 Qəbul edilib: 17.04.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/12-16

**Türkan İsmayıllı**
Naxçıvan Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
ismayilliturkanmehrac@gmail.com
https://orcid.org/0009-0009-1687-6203

# KOQNİTİV MODELLƏŞMƏ

**Xülasə**

Məqalə koqnitiv dilçilikdə əsas anlayışlardan biri olan koqnitiv modelləşmə və kateqoriyalaşma məsələsinə toxunmuşdur. Qeyd olunur ki metafor və metonimiya əsas koqnitiv mexanizmlərdir, bununla yanaşı koqnitiv modellər informasiya xəritəsidir. Göstərilir ki, tədqiqatlarda da freym anlayışına koqnitiv model kimi yanaşılır. Freym məfhumunun köməyilə leksik və frazeoloji vahidlər dərk edilir və insanın bilik dərəcəsi müəyyənləşir. Koqnitiv dilçiliyə görə dilin dərk edilməsi sadə bir proses deyil, idraki koqnitiv prosesdir.

***Açar sözlər:*** *Koqnitiv modellər, konsept, paraqonlar, konseptual metafora, Leksik konseptlər*

**Turkan Ismailli**
Nakhchivan State University
PhD in Philology
ismayilliturkanmehrac@gmail.com
https://orcid.org/0009-0009-1687-6203

## Cognitive modeling

**Abstract**

The article touched on the issue of cognitive modeling and categorization, which is one of the main concepts in cognitive linguistics. It is noted that metaphor and metonymy are the main cognitive mechanisms, and cognitive models are information maps. It is shown that the concept of frame is treated as a cognitive model in research. With the help of the frame concept, lexical and phraseological units are understood and a person's level of knowledge is determined. According to cognitive linguistics, language comprehension is not a simple process, but a cognitive cognitive process.

***Keywords:*** *Cognitive models, concept, paragons, conceptual metaphor, Lexical concepts*

## Giriş

Koqnitiv modelləşmənin ən aktiv sahəsini belə bir sual düşündürür. Biz qavrayış varlıqlarını necə öyrənirik. Məsələn, radioloqun rentgen şəkillərini, bioloqun isə vəhşi və zəhərli göbələkləri kateqoriyalaşdırdığı kimi insanlar da dil biliklərini necə kateqoriyalaşdırırlar. Koqnitiv model kateqoriyalaşmasını prototip modeli adlandırmaq olar. Bu modelə görə insan hər kateqoriyadan olan nümunələri ömür boyu öyrənir. Yəni bir hədəf təqdim ediləndə bu hədəfin bənzərliyi hər bir kateqoriya üçün ayrıca dəyərləndirilir və yaddaşda saxlanılır. Koqnitiv dilçilər üçün dilin dərk edilməsi sadə bir mental proses deyil. İnsan hər hansı bir nitqə qulaq asanda, bir mətn oxuyanda əks tərəfdə olan dinləyicidən tam fərqli prosesdə olur.

Koqnitiv dilçiliyə görə, linqvistik bilik və ensiklopedik bilik arasında aydın sərhədlər yoxdur. Məna xüsusiyyətcə ensiklopedikdir və ona görə də denotativ aspektləri konotativ olanlardan ayıra bilmərik.

Amerika dilçilərindən L.Blumfild və E.Sepir müxtəlif dillərə məxsus universal modellər yaratmaqla ilk cəhdləri etmişlər. E.Sepirə görə, "*insan dünyanı dərk etdiyi kimi, dil vahidi şəklində modelləşdirir"* (Imre, 2010: 128).

Lonqakerə görə, *"koqnitiv modellər semantik vahidi xarakterizə edən kontekstlərdir"* (Cambridge, 2008: 88). Lonqakerin klassik baxışına görə, "Monday" (bazar ertəsi) sözünün mənası bizim üçün həftənin günlərindən biridir. Amma biz bu sözü "week/həftə" konseptinə istinad etmədən təyin etməyə çalışsaq, bu tamamilə mümkünsüz olacaq. Yəni biz onları xüsusi konseptual mühitə yerləşdirməsək, onu "təyin etmə" prosesimiz çətin olacaq. Yalnız müvafiq konseptual idrak bizə lazımi bilik və informasiya gətirməyə kömək edir. Buna görə də Lonqaker vurğulayır, "*bütün linqvistik vahidlər müəyyən dərəcədə kontekstdən asılıdır. Əksər konseptlər digər konseptlərin presuppozisiyasıdır və gizli və ya aşkar şəkildə referantsız təyin edilə bilmir*" (Evans, 2016: 112).

*Əsas hissə.* Son zamanlarda koqnitiv dilçilikdə koqnitiv modellər gündəmdədir. Rumelhartın "sxemləri", Abelsonun "kod bloqları" biliyi təmsil etmək üçün vasitələrdir. Koqnitiv dilçilikdə araşdırılan kod sxemi, metafora, metonimiya və simvolik modellər kimi koqnitiv modellər də vardır (Imre, 2010: 117). Koqnitiv idrak məfhumuna oxşar Lakof və Filmorun də öz fikirləri vardır. Lakof onu ideallaşmış koqnitiv modellər (İKM), Filmor isə freymlər adlandırır. Onun fikrincə, freym və semantika ümumi və birgə anlayışlardır.

Fillmorun fikrincə, freymlər mətnin, diskursun idrakı prosesində şərh olunur. Freymin aktivləşdiyi durumda mətnin fraqmenti olan fikirlər üzə çıxarır. V.Demyankovanın fikrincə, "*freym anlayışı az və ya çox dərəcədə konvensional təbiətə malikdir və ona görə də mədəniyyətin xarakterini tipikləşdirir"* (Langaker, 1991: 112). Digər tədqiqatlarda da freym anlayışına koqnitiv model kimi yanaşılır. Freym məfhumunun köməyilə leksik və frazeoloji vahidlər dərk edilir və insanın bilik dərəcəsi müəyyənləşir. Ümumilikdə, koqnitiv modellər informasiya xəritəsidir. "İnsan və gül" sözlərini freym çərçivəsində düşünsək, o mənadadır ki, insan gənc çağında gül kimi təravətli olur, qocalanda isə gül kimi solur.

Lakofa görə 4 tipdə koqnitiv modellər vardır:

1)*"Propozisional modellər" elementləri, onların xüsusiyyətlərini və arasındakı əlaqələri səciyyələndirir. Lakof bunu Filmorun "freym"ləri ilə müqayisə edir;*

2) *"Kod-sxematik modellər" də sxematik görüntüləri, onların forması, tutum və trayektoriyasını səciyyələndirilir;*

3) *"Metaforik modellər" bir idrak cığırından digərinə köçürmə edir;*

4) *"Metonimik modellər" iki element arasında əlaqəni saxlayan vasitə kimidir.*

Metonimik modellər, həmçinin stereotiplər, sosial stereotiplər, tipik nümunələr, paraqonlar, yarım modellər olaraq prototip effektlərin mənbələridir. Bəzi hallarda 1 model sadəcə sözün mənasını təyin etmək üçün kifayət etmir. Ona görə də koqnitiv modelləri "zəncir" kimi təyin etmək lazımdır. Lakof bu modelləri *"cluster" ("salxım","kütlə") adlandırmışdır* (Croft, 2001: 143). Məsələn, "mother/ana" sözünün koqnitiv modeldə mənalarına baxaq. Ana sadəcə doğan, dünyaya gətirən şəxs deyil, həmçinin uşağa baxandır. Yəni "mother" sözünün idrak üçün bir neçə koqnitiv model zincirinə ehtiyacı var. 1) Doğum modeli (the birth model); Qadın modeli (the genetic model); Doyuran model (the nurturance model); Həyat yoldaşı modeli (the martial model); Genetik modeli (the genealogical model).

Metafora və metonimiya iki əsas təsəvvür etmə koqnitiv mexanizmidir. Onlar koqnitiv dilçilikdə nitq fiqurları deyil, konseptual modellər arasında "köçürmə" və ya "əks etdirmə"dir. Fərq ondadır ki, metaforada köçürmə müxtəlif təcrübi modellər arasında olur. Metonimiyada isə eyni idrak arasında baş verir.

Paraqonlar (nümunələr) – İndividual kateqoriya üzvləri olaraq idealları təmsil edir. Məsələn, Ronaldo, şübhəsiz ki, dünyanın ən yaxşı futbolçusudur, yaraşıqlıdır, zəngindir, xeyirxahdır, müsəlmanları da çox sevir. Yaxşı ata və uğurlu futbolçudur. Yəni dünyanın əksər yerlərində Ronaldo futbol paraqonunu təmsil edir.

Mersedes lüks maşındır və lükslüyü təmsil edir. Xomski generativ dilçiliyin görkəmli nümayəndəsidir. Paraqonlar bütöv bir kateqoriyanı təmsil edərək kateqoriyanın digər üzvlərinə qarşı normaları da təyin edirlər.

Görkəmli nümunələrdən olan Oksford universiteti ideal bir universiteti təmsil edir və koqnitiv modellərin bir nümunəsidir.

Nisbi modellər – Lakof bu termini "təsəvvür vasitələri" kimi yox, metafora və metonimiyadan fərqli olaraq faktiki bilgilərə əsaslanan ortada bir termin kimi də işlədir. Məsələn, bizim bilgimizdə restoranda yemək sifariş etmək ilə bağlı nisbi "qaydalar" vardır.

Koqnitiv bir modeldə hər bir element düşüncə kateqoriyasına uyğun gəlir. Koqnitiv bir model konsepti ya dərəcələndirərək, ya da dərəcələndirməyərək xarakterizə edilir. Koqnitiv modellərin ideallaşmış xarakteri də var. Modellər aydın sərhədləri və lazımi şərtləri olan kimi təyin edilir. Onlar prototip effektdən baş verdiyi üçün ideallaşırlar. Belə ki, mövcud vəziyyətdən ortaya çıxan çox ideallaşmış vəziyyətlərə uyğun olaraq təyin edilə bilirlər. Koqnitiv dilçilik üçün metaforanın izahı çox genişdir. Koqnitiv dilçilik iddia edir ki, metafora insan dili və idrakının mərkəzində yayılmış xüsusiyyətidir. Metaforalar duyğu motor domenlərindən gələn ənənəvi kodlamanın subyektiv təcübənin idrak cığırları üçün istifadə edilməsinə imkan verirlər. Beləliklə, konseptual metafora nəzəriyyəsi bir ideya və ya konseptual idrakın necə başqa birinin şərtləri altında dərk edilə bilməsini izah edir. İ.Riçards "Ritorikanın fəlsəfəsi" əsərində qeyd edirdi ki, "*metafora yalnız linqvistik fenomen deyildir, insanın düşüncə tərzidir"* (Langacker, 2001: 112). Riçardsdan ilhamlanaraq C.Ləkoff və M.Conson metaforanı yeni aspektdən izah etməyə çalışdılar. Onlar metaforanı insan düşüncəsi və davranışı ilə bağlı olan konseptual fenomen kimi təqdim etdilər.

Konseptual yanaşmada metaforalar mənbə idraki cığırından hədəf idraki cığırına keçiddir. Bəzən də leksik kodlamayı qoruyub saxlayır. Lakofa görə, "*konseptual metaforaların ən görkəmli xüsusiyyəti mənanı qoruyub saxlamasıdır"*. Love – sevgi, anger – qəzəb metaforik konseptlərdir. Bizim qavrayış sistemimizə xas olan konseptlər zaman/miqdar/vəziyyət/məqsəd/ modallıq və s. kimi metaforalar vasitəsilə dərk edilir. Bunlar elə konseptlərdir ki, onlara normal olaraq dillərin qrammatikləşməsi də daxildir. Əgər onlar, həqiqətən, təbiətcə metaforikdirsə, o zaman metafora qrammatikanın mərkəzi olur. Metaforanın xüsusiyyəti elə bir prosesdir ki, onun vasitəsilə biz mücərrəd konseptləri dərk edir və mücərrəd səbəbləri həyata keçiririk.

Happy is up (Xoşbəxtlik yuxarıdır, yəni xoşbəxtlikdən uçmaq. Burada xoşbəxtlik məfhumu "yuxarı" məkani anlamı ilə əlaqələnmişdir) (Langacker, 1991: 115). Metafora fundamental olaraq linqvistik yox, konseptualdır. Metaforik dil konseptual metaforanın səthi ortaya çıxmasıdır. Baxmayaraq ki, bizim konseptual sistemimiz metaforikdir, onun önəmli hissəsi qeyri-metaforikdir. Metaforik anlaşılma metaforik olmayaraq başa düşülməyə əsaslanır. Konseptual metafor sistemi avtomatik, biixtiyar baş verir və hiss edilməyən cəhdlə istifadə edilir. Bizim metafora sistemi təcrübəni anlamaqda mərkəz nöqtədir. Metafora bənzərlikləri daha çox bizim təcrübələrimizə əsaslanır və dilin qrammatika və leksikasında mühüm rol oynayır (Evans, 2016: 120).

Metaforik kodlamalar universaldır, bəziləri daha geniş yayılıb, bəziləri isə kultural əsaslıdır. Virtual olaraq insan biliklərinin formalaşdığı idrak insan bədənidir və bu metafora mənbə domeni kimi xidmət edir. Ümumi hədəf domenlər isə zaman, emosiyalar və vəziyyətlərdir (Evans, 2016: 280-281). Məsələn, körpələr bədənləri ilə "tutum" qavrayışları ilə tanış olurlar. Bir şeyləri ağızlarına qoyaraq təcrübə edirlər. Bu rutin olaraq davam edərsə, onlar əşyaları başqa konteynerlərə yerləşdirirlər. *In/out* konsepti ilə konsept bədəndən xaric obyektlərə köçürülür. Daha sonra bu konseptlər çoxlu başqa konseptlərə köçürülür (aşiq olmaq, çətinliyə düşmək, çətinlikdən çıxmaq və s.) Bu metaforik genişlənmələr idrak edilir və yüksək dil xüsusiyyətlidir. Metafora prosesinin özü də yayğın bir universal hadisədir və bütün dillər üçün geniş yayılmış fenomendir. Məsələn, faktdır ki, ingilis dilində *fire/yanğın* kodu qəzəbi başa düşən mənbə domenidir. *She is hot white with rage (qəzəbdən ağarmışdı*) (Imre, 2010: 27) o deməkdir ki, ümumi bilinən insan təcrübəsi olan qəzəbi alışqanla alovlandıra biləcəyimiz bir şeydən prototip olan metafora uyğun informasiya ilə motivə edilmişdir. O, mənbə domeyni barədə bir faktı açsa da, bəziləri bunu gizlədir. Metonimiya isə nəyisə bir şeyin bir hissəsini təmsil etməsidir. Dildə və mədəniyyətdə müəyyən metaforalar konvensiyallaşmışdır. İnsanlar üçün ən ümumi hal nəyisə bir şeyin ən asan dərk edilən və başa düşülən aspektini götürməkdir. Metonimik mənbələr prototip effektlərin əsas fenomenidir. Belə effektlərin əsas mənbəsi metonimiyadır. Metonimiya ona görə koqnitiv mexanizmadır ki, onun məqsədi "vurğulamaqdır". Metafora və metonimiya qrammatik məna və formanın, eyni zamanda leksikanın geniş bir hissəsini təyin edir. İmaginativ koqnitiv mexanizmlər olan metafora və

metonimiya sadəcə bədii üslub vasitələri deyil, onlar həmçinin mental əks olunmalardır (8). Yəni bir təcrübə cığırından fərqli təcrübə cığırına aparırlar və onlar normalda biixtiyarı şəkildə baş verirlər. Metafora zamanı ikinci təcrübi idrak cığırı qismən birincinin şərtlərində başa düşülür. Həkk olunma cığırı mənbə və ya "donor domen" adlanır, digəri isə hədəf və ya qəbul edən idrak cığırı adlanır. Əksər kateqoriyalar mücərrəd ideal hallarla şərtlənərək başa düşülür. İdeallar aktual əhəmiyyətli kateqoriyalardır. İdeallar vasitəsilə çoxlu kultural biliklər təşkil edilir. Bizim ideal evlər, ailələr, ideal işlər, işçilər və s. haqqında biliyimizdir. İnsanlar üçün bənzər, yaddaqalan, ya da önəmli nümunələri kateqoriya kimi dərk etmək çox ümumidir. Məsələn, dostumuz vegeteriandırsa, dostumuzu digər vegeterianlara ümumiləşdirməyə meyl edəcəyik. Lakof iddia edir ki, "*bəzi kateqoriyalar ideallar kimi başa düşülür"* (Croft, 2001: 148). Bunlar tipik və stereotipik nümunələrlə qarşılaşır. Məsələn, *siyasətçi – politician* kateqoriyası üçün bizim idealımız onun çalışqan, alturist biri olmasıdır. Bu siyasətçilər haqqında *eqoist, güc hərisi* stereotip fikirlə ziddiləşə bilər. Bizim ideallarımıza istinad edərək söylədiyimiz "He is a great politician" (O, əla siyasətçidir) pozitiv bir dəyərləndirmə kimi şərh edilsə də, bizim sosial stereotipimizdə eyni ifadə neqativ bir dəyərləndirmə kimi də şərh edilə bilər.

Koqnitiv modellər biliklərin "yerləşmiş" quruluşlarına da aid ola bilir, həmçinin bura daha mücərrəd varlıqlara bağlı biliklər aiddir. Sevgi/nifrət. Onlar müxtəlif səviyyələrdə detalları həyata keçirir.

Leksik konseptlər çoxlu koqnitiv modellərlə gerçəkləşə bilirlər. Koqnitiv modellər digər bir-biriylə əlaqəli olduğuna və başqalarından təsirlənə bildiyinə görə leksik konseptlər potensial olaraq şəbəkə konseptual biliklərlə əlaqəlidir. Leksik konseptlə implisit əlaqəli olan koqnitiv modellər ilkin koqnitiv modellərdir. İlkin koqnitiv modellərin alt yarımqrupu ikincili koqnitiv model adlanır. Bu cür ayırım ədəbi və məcazi dilin istifadəsinin ayırımı üçün vacibdir. Leksik konseptlə koqnitiv model profili arasındakı əlaqələri təsvir etməyin yolunu belə göstərmək olar.

Məsələn, *İngiltərə* leksik konsepti çoxsaylı koqnitiv modellərə çatmağı təmin edir. *İngiltərə – millət/dövlət/milli idman növləri/siyasi sistem/dövlət başçısı və* s.

Leksik konseptlərlə əlaqələnən koqnitiv modellər arasında ayırım etsək, ilkin koqnitv model profili aşağıdakı koqnitiv modellərdən ibarət olacaqdır. Coğrafi landşaft/millət/dövlət/mətbəx və s. Bu koqnitiv modellərin hər biri daha qarışıq bilgilərə çatmağı təmin edir. İngiltərədə insanlar müxtəlif idman növləri, futbol/reqbi/atletika ilə məşğul olurlar və s. Onlar bir çox Olimpiya oyunları və FİFA dünya kubokuna sahibdirlər. İlkin koqnitiv modellər ikinci koqnitiv modellərə yol açır. Məsələn, (*english electrota –ingilis seçki*) bir koqnitiv modeldir və (*political system – siyasi sistem*) koqnitiv modeli ilə əldə edilmişdir. Koqnitiv model bizim dünya ilə əlaqəmizdən, onu dərk etmək/hiss etmək qavrayışımızdan asılıdır. Leksik konseptlər linqvistik varlıqlardır. Linqvistik olmayan biliklərə çatmağı əldə edir. Situativ işlənmədə leksik konseptlər informativ xarakteri təmin edir. Bu isə mümkün semantik potensiallıqla əldə edilir. Koqnitiv dilçilikdə linqvistik konseptlər əsaslı şəkildə təcrübələrimizə dayanır (fiziki/sosial/kultural). Filmor, Lakoff və Lonqakerə görə linqvistik formalar sadəcə "ipuclarıdır". Bizim beynimizdə formalaşan konseptual strukturları aktivləşdirir. Mənalar bizim düşüncə və beynimizdə "yerləşmişdir" (Langaker, 1991: 46-47).

Leksik konsept seçimi məsələsi linqvistik və linqvistik olmayan xüsusi kontekst, yəni "doğru" bir leksik konsepti seçməli olan prosesdir:

*The judge asked the defendant to approach the (bar) – Hakim ittihamçıya kürsüyə yaxınlaşmağı tələb etdi (bar).*

*The customer ordered her beer at the (bar) – Müştəri özünə piştaxtadan pivə sifariş elədi (bar).*
Burada "bar" kəliməsi bir çox leksik konseptlərlə əlaqəlidir, 1-ci cümlədə "bar of a court" hakimin oturduğu yer mənasında, 2-ci cümlədə isə "a bar in a public house"/"içki alınan və satılan yer" mənasındadır. Düzgün leksik konsept bu nümunələrdə linqvistik kontekstə görə seçilir (Langacker, 1991: 219).

Lakoff və Johnson vurğulayır ki, "*məkani əlaqələr bizim qavrayış sisteminin "ürəyində" dayanır"* (Imre, 2010: 150-151). Biz yaxınlıq və uzaqlığı (nearness/farness –yaxınlıq/uzaqlıq) deyil, obyektlərin olduğu yeri görürük və onları yaxınlıq və uzaqlıq kimi qavrayırıq. Dil bir sistemdir və

onun quruluş prinsipləri, düşüncə çeşidlərini əks etdirir. Ona görə də dilin sistematikasını araşdırmaq qavrayış prinsiplərini araşdırmaqdır. F.Sössürdə də müşahidə edildiyi kimi, hər bir dil tək parçalar halında yox, bütöv bir sistem kimi araşdırılmalıdır. Hər bir hissənin yalnız bir bütöv sistemə sadiq olan məna və funksiyası vardır. Sistematiklik təkcə ayrı-ayrı dil sistemləri səviyyəsində deyil, həmçinin sistem əmələ gətirən hissələr içərisində təyin edilir. Beləliklə, quruluşun eyni çeşid və prinsipləri "öz eyni" (self-similar) yolla təkrar edilir.

## Nəticə

Koqnitiv modellər individual deyil, xalis subyektiv bilgi strukturlarıdır, ancaq hər hansı mədəniyyətə məxsus insanlar tərəfindən geniş şəkildə istifadə edildiyinə görə həm də kultural modellər adlanır.

Koqnitiv modellər, ümumilikdə, bizim təcrübəmizi strukturlaşdırmaq üçün işlədilir. Modellər bizim reallığı necə dərk etməyimizin konseptual ifadəsi kimi başa düşülə bilər və düşüncədə formalaşdığı üçün koqnitivdir. Müəyyən ümumi təcrübələrdən qaynaqlanaraq ortaya çıxdığına görə ideallaşmışdır. Koqnitiv modellərin nəticələri arasında kateqoriya strukturları və prototip effektləri də var. Onlar obyektiv olaraq təbiətcə mövcud deyil, insanlar tərəfindən yaradılır.

## Ədəbiyyat

1. Imre, A. (2010). Metaphors in cognitive linguistics. A.Imre. Roma: Journal of English Studies, pp.71-81.
2. Cambridge. (2008). Metaphors, Dead and Alive, Sleeping and Waking. A Dynamic View. Chicago: University of Chicago Press, pp.114-121.
3. Evans, V.V. (2016). Lexical concepts, cognitive models and meaning-construction. Cognitive Linguistics. Edinburgh University Press 17(4), pp.491-534.
4. Langaker, R.W. (1991). Concept. Image, Symbol, The Cognitive Basis of Grammar Sec-ond edition. Berlin: Mouton de Gruyter, 288 p.
5. Langacker, R.W. (2001). Discourse in cognitive grammar. San Diego: University of California, Cognitive Linguistics 12 (2), pp.143-188.
6. Croft, G.W. (2001). Radical Construction Grammar. Syntactic Theory in Typological Perspective. Oxford: Oxford University Press.
7. Langacker, R.W. (1991). Foundations of Cognitive Grammar. Stanford: Vol. II Descriptive Application. Stanford University Press, 128 p.
8. Cambridge URL: https://dictionary.cambridge.org/
9. DOI: 10.13140/RG.2.2.32046.28489

Göndərilib: 04.03.2024 Qəbul edilib: 20.04.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/17-22

**Ramilə Nəsirova**
Azərbaycan Dövlət Dəniz Akademiyası
filologiya üzrə fəlsəfə doktoru
ramilefarajova@gmail.com

# MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ QRAMMATİK ANOMALİYALAR

**Xülasə**

Tipoloji və genetik münasibətdə bir-birinə ən uzaq müxtəlif dillərə aid faktların müqayisə edilməsi təcrübəsi göstərir ki, bu dillərdə eyni və oxşar hadisələr mövcuddur. Dillərin bu yöndə müqayisəli öyrənilməsi onların əksəriyyəti üçün xarakterik olan hadisələri və hər bir dilin xüsusiyyətlərini daha tam və dərindən öyrənməyə imkan verir. Başqa sözlə, dillərin müqayisəli öyrənilməsi müqayisəyə cəlb edilən dillərin daxili sistemininin təsvirini verməyə yardım edir. Morfoloji üsullar dedikdə, biz yalnız şəkilçilər vasitəsilə söz yaradıcılığından deyil, eyni zamanda bu üsullar sırasına morfoloji qoşulma, reduplikasiya, inkorporasiya və konversiya üsullarını da aid edirik. Bizim fikrimizcə, sadalanan bu üsullar bir sıra dillərdə leksik, sintaktik və ya leksik-sintaktik üsullar kimi təsnif olunmalarına baxmayaraq, morfoloji üsulun digər üsullarla kombinə edilmiş formalarıdır. Onlar tarixən morfemlərin iştirakı ilə formalaşmış, müasir dövrdə bir çox dillərdə morfoloji üsulun bir sıra keyfiyyətlərinin daşıyıcısı kimi çıxış edir.

***Açar sözlər:*** *müxtəlifsistemli dillər, qrammatik anomaliya, inkorporasiya, affiksasiya, suffiksasiya, prefiksasiya, reduplikasiyası*

**Ramila Nasirova**
Azerbaijan State Maritime Academy
PhD in Philology
ramilefarajova@gmail.com

## Grammatical anomalies in languages with different systems

**Abstract**

The experience of comparing the facts of different languages, which are most distant from each other in typological and genetic relation, shows that the same and similar phenomena exist in these languages. The comparative study of languages in this sense allows a more complete and in-depth study of the phenomena that are characteristic of most of them and the peculiarities of each language. In other words, the comparative study of languages helps to describe the internal system of the compared languages. By morphological methods we mean not only the creation of words by suffixes, but also morphological joining, reduplication, incorporation, and conversion methods. In our view, these methods are combined forms of the morphological method with other methods, although in a number of languages, they are classified as lexical, syntactic, or lexical-syntactic methods. They were historically formed with the participation of morphemes, and in modern times they act as carriers of a number of qualities of the morphological method in many languages.

***Keywords:*** *languages with different systems, grammatical anomaly, incorporation, affixation, suffixation, prefixation, reduplication*

## Giriş

In essence, the analysis serves as a valuable resource for policymakers, businesses, and researchers seeking a nuanced comprehension of the tax control mechanisms governing excise goods in Azerbaijan. As the economic landscape evolves, the insights gleaned from this analysis will contribute to informed decision-making and the ongoing refinement of fiscal policies to promote sustainable economic growth.

## References

1. Musayev, A. (2016). Aksizlər (xüsusi istehlak vergisi). Bakı: “Azərbaycan Universiteti” nəşriyyatı, 158 s.
2. Ahmadova, E. (2023). Economic Analysis of the Tax System: The Example of Azerbaijan. Journal of Applied Business, Taxation and Economics Research, 2(6), pp.705-720.
3. Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.
4. Garayeva, S., Rzayeva, A. (2023). The role of the applied tax policy in ensuring the diversification of the economy in the Republic of Azerbaijan. Scientific Collection «InterConf», (144), pp.94-98.
5. Azizova, K., Ay, H. (2020). The Tax Audit in Azerbaijan. International Anatolia Academic Online Journal. Issue 6/1, pp.37-45.
6. Karimov, K.S. (2012). Economic life and tax system in the Azerbaijan Democratic Republic. «Tax Journal of Azerbaijan». №S/I, pp.119-136.
7. https://www.ceicdata.com/en/azerbaijan/government-revenue-and-expenditure-annual/government-revenue-taxes-excise-tax
8. https://www.pwc.com/az/en/publications/assets/DBG_Final_2022-02-10_.pdf
9. Azərbaycan Respublikası Vergi Məcəlləsi. (2015). Bakı, s.189-197.
10. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidməti. (2022). Aksizlər. Bakı.

Received: 24.01.2024 Accepted: 02.04.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/44-48

**Aidə Novruzova**
Naxçıvan Dövlət Universiteti
aidenovruzova @mail.ru
**Kifayət Hüseynova**
Naxçıvan Dövlət Universiteti
nurv7487@gmail.com

# İNSAN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA MÜƏLLİM FƏALİYYƏTİNİN PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

İşlədiyimiz mövzu müasir müəllimin formalaşmasında etik və pedaqoji ideyaların və mənəvi əqidənini böyük rol oynamasından bəhs edir. Mövzuda əsasən ictimai mühütün müəllim şəxsiyyətinin inkişafında və formalaş-masında mühüm amil kimi çıxış etməsi qeyd olunmuşdur.

İnsan şəxsiyyətinin formalaşmasına təsir edən irsiyyət, mühit və tərbiyə amillərinin qarşılıqlı münasibəti mətndə mühüm rol oynayır.

Burada həmçinin müəllim-şagird münasibətlərinin mahiyyəti və məzmunu, müəllimin pedaqoji fəaliyyəti, maarifçi, həm pedaqoq, həm də psixoloq olması qeyd olunmuşdur. Müəllim şagirdin yaxın köməkçisi olmalı, tərbiyə prosesində şagird üçün ideala çevrilməlidir.

Mövzuda dahi pedaqoqların fikirlərindən istifadə edilmişdir. Pedaqoqlardan Y.Talıbov, Makarenko, Komenski, Suxomlinski və başqalarının pedaqoji etika haqqında məqalədə bir çox maraqlı fikirləri vardır. Suxomlinski "Ürəyimi uşaqlara verirəm" əsərində pedaqoji etika və estetika barədə çox geniş ideyalar irəli sürmüşdür. İşlədiyimiz məqalədə müəllim şəxsiyyətinin formalaşmasında pedaqoji etikanın və mənəvi tərbiyənin əsas rol oynadığı da vurğulanmışdır.

Müəllim mənəvi münasibətlər dünyasında səhvə yol verə bilməz.Ona görə ki,müəllimin kiçik bir nöqsanı,kiçik bir hərəkəti şagirdlərin gözündən qaçmır. Müəllimin səsindəki titrəyiş, ahəng, sərtlik və s uşağa dərhal təsir edir. Müəllim üçün bütün uşaqlar əziz olmalıdır.Müəllimin təbəssümü və sevinci şagirdlərin qəlbində xeyirxahlıq,insanlıq münasibətləri,məhəbbət gözlərində isə qığılcım yaradır.Müəllim peşəsi bütün peşələrin anası hesab olunur. Müəllim gənc nəsli həyata hazırlayır.Müəllim sadəlik, təvazökarlıq, nəzakət, mənəvi saflıq, ideallıq rəmzidir. Müəllim nəsillərin ömrünü bir-birinə qaynaq edəndir. Müəllim bilməlidir ki,nüfuzu öz zəhməti ilə,əməyi və biliyi sayəsində əldə edir. Müəllim əməyi məhsuldar əməkdir. Müəllimlərin atesstasiyası bir daha göstərir ki,qabaqcıl və işgüzar müəllimlər müasir dövrün tələblərinə tamamilə cavab verirlər. Onlar gənc nəslin təlim-tərbiyəsində yorulmaq bilmədən çalışırlar.

***Açar sözlər:*** *fəaliyyət, şagird, müəllim, etik, pedaqoji, ideya, mənəvi, fəlsəfə, əqidə, iradə humanist, beynəlmiləl, peşə, psixologiya*

**Aida Novruzova**
Nakhchivan State University
aidenovruzova @mail.ru
**Kifayet Huseynova**
Nakhchivan State University
nurv7487@gmail.com

## Pedagogical characteristics of the teacher's activity in the formation of human personality

**Abstract**

The subject we work on refers to playing a great role of ethic and pedagogy ideas and moral belief in the forming of the teacher. The topic mainly performing social environment in the developing and forming teacher personality is noticed as an important factor.

Mutual position of the heredity, environment and upbringing factors which affect the formation of the human personality plays an important role in the subject here. It's also noticed the essence and content of the teacher – pupil relationship teacher's pedagogy activity, being educator either a pedagogy or a psychology.

In the article ideas from great pedagogues were used. Pedagogues, such as Y.Talibov, Makarenko, Komenski, Sukhomlinsky and others have many different opinions about pedagogical ethics in the article. Sukhomlinsky suggested very many ideas about pedagogical ethics and aesthetics in his work "To children I give my heart". The important role of moral upbringing and pedagogical ethics is also emphasized in the formation of the teacher's personality in the article we have worked on.

***Keywords**: activity, student, teacher, ethic, pedagogy, idea, moral, philosophy, belief, will-power, humanist, international, profession, psychology*

## Giriş

Müəllim tədris prosesinin ən əsas simasıdır. Onun peşə fəaliyyəti sırasında bir çox qabiliyyətlər mühüm yer tutur. Akademik qabiliyyət,didaktik qabiliyyət, kommunikativ (ünsiyyət) qabiliyyət, iradi-emosional qabiliyyət müəllimin fəaliyyətində mühüm yer tutur. Müəllim bu qabiliyyətləri gərgin əməklə qazanır.

Müəllimlik fəaliyyətinin özünə məxsus xüsusiyyətləri vardır. Bu xüsusiyyətlərə aşağıdakılar daxildir:

a) müəllim öz həyatını xalqın gələcəyinə həsr edir:

b) müəllim mürəkkəb və çətin,məsuliyyətli işdir, bu işdə səhvə yol vermək olmaz:

c) müəllimin fəaliyyəti mürəkkəb və dəyişkəndir:

d) müəllimlik yaradıcı işdir;çünki o,hazır göstərişlərlə,reseptlərlə işləyə bilməz. Onun özünün pedaqoji nəzəriyyəsi,qanunauyğunluqları vardır.

Müəllim müşahidə və təhlil etməyi, pedaqoji problemlərin optimal həlli yollarını müəyyən etməyi bacarmalıdır.

**Pedaqoji prosesdə müəllimin fəaliyyəti.**

Müəllimin fəaliyyəti ictimai həyatımızın xüsusi sahəsidir. Belə bir əmək sahəsində çalışan şəxsin mənəvi aləmi saf, təmiz olmalıdır. Məktəbdə müəllim əməyinin obyekti böyüməkdə və inkişaf etməkdə olan uşaq, yeniyetmə və gəncdir. Uşaq mütəhərrik bir varlıqdır. Onun inkişaf qanunauyğunluqlarını, psixoloji, bioloji xüsusiyyətlərini bilmədən sözün əsil mənasında işlətmək olmaz.

Tərbiyənin özünəməxsus obyektiv qanunauyğunluqları vardır. Həmin qanunları bilmək müəllim üçün zəruridir. Bunun üçün isə ilk növbədə tərbiyə obyektinin nə olduğunu bilmək lazımdır. Tərbiyənin obyekti insandır. Bu varlıqda idrak mənbəyi, hisslər və emosiyalar yatağı, yaddaş xəzinəsi, insanın bütün orqanizmini idarə edən beyni daha mürəkkəbdir. Buradan aydın olur ki, pedaqoji fəaliyyətin obyekti fəal surətdə inkişaf edən varlıqdır, uşaqdır. Müəllim hər zaman cəmiyyətdə ən sayılıb seçilən fədakar, zəhmətkeş, müqəddəs insanlardan olmuşdur.

Müəllim özünün danışıq tərzi, davranışı, tədris zamanı seçdiyi vasitə və üsulları, öyrətməyə həvəs göstərməsi ilə şagirdləri hər zaman özünə cəlb etməlidir.

"Ən yaxşı müəllim necə olmalıdır"? sualını görkəmli pedaqoq V.A.Suxomlinski belə yazırdı: "O ilk növbədə, uşaqları sevən insandır, onlarla ünsiyyətdən sevinc tapır, inanır ki, hər bir uşaq yaxşı insan ola bilər. Çətin tərbiyə olunan uşaqlarla işləmək, xəstə uşaqları ruhlandırmaq hər bir müəllimin əsas vəzifəsidir".

Müəllimlik ən sərfəli, ən çətin, ən məsuliyyətli, həm də mürrəkəb vəzifədir. Sürətlə dəyişən və yeniləşən cəmiyyət müəllimlərin hazırlıq və peşəkarlıq səviyyəsinin yüksəlməsinə mühüm tələblər verir (İlyasov, 2018: 8).

Valideynlər öz uşaqlarını müəllimə əmanət etdikdə arxayın və rahat olmalıdırlar.

Pedaqoq Y.Talıbov yazırdı ki, müəllimin peşəsini başqa peşələrlə fərqləndirən başlıca xüsusiyyətlərdən biri onun fəaliyyət obyektinin dinamik olmasıdır. Müasir müəllim öz peşə

qabiliyyəti, akademik fəaliyyəti, ünsiyyət forması, iradi-emosional hissləri ilə seçilməlidir. Müəllim şəxsiyyətinin formalaşmasında mənəvi əqidənini böyük təsiri vardır. Mənəvi əqidə müəyyən ictimai-siyasi, mədəni amillərin təsiri altında formalaşır.

Belə nəticəyə gəlmək olar ki, mənəvi münasibətlərin formalaşması prosessi dinamik, dialektik, uzunmüddətli, gərgin əmək tələb edən bir prosesdir. Bu prosesdə müəllim-şagird münasibəti mühüm rol oynayır. Bu da müəllimim mənəvi münasibətlər aləmini təşkil edir. Müəllim ziyalılarımızın gənc nəslin təlim və tərbiyəsində çalışan ən qabaqcıl nümayəndələrədən biridir (Mirzəyev, Rüstəmova, 2012: 10).

Məlumdur ki, ən dərin biliyə, savada malik olan müəllim savadlı uşaqlar yetişdirər, zəif müəllim isə zəif uşaqlar. Bu zaman aydın olur ki, müasir müəllimin öhdəsinə böyük məsuliyyət düşür.

Müəllim hər zaman müqəddəsdir. O həm şagirdlərlə, həm də valideynlərlə sıx əlaqə saxlayır, öz vəzifəsini layiqincə yerinə yetirməyə cəhd göstərir. Bunu da qeyd etməliyik ki, uşağın düzgün yetişməsində valideynlərin də rolu olmalıdır. Uşaq harda olursa-olsun, evdə,bağçada, məktəbdə düzgün tərbiyə almalıdır. A.S.Makarenko yazırdı: "Tərbiyə hər zaman baş verməlidir. Hətta siz evdə olmasanız da belə uşağın olduğu bütün mühit və şərait ona müsbət təsir göstərməlidir.

Müasir müəllim pedaqoji proses zamanı çox diqqətli olmalı, məsuliyyət hiss etməlidir. Pedaqoji tədris zamanı müasir müəllimin formalaşmada etika mühüm rol oynayır. Etik-pedaqoji ideya ta qədimdən bizə məlumdur. Hələ ta qədimdən Azərbaycan xalqı öz folklorlarında, dastanlarda, nağıl və qoşmalarında tərbiyəvi, əxlaqi-etik fikirlər irəli sürmüşlər .

Ə.Haşımov tədqiqatlarının birində yazırdı: "Pedaqoji fikrin ilk nümunəsi xalq kütlələri olmuşdur. Çünki xalqın geniş zəhmətkeş kütlələrinin düşüncəsi, yüksək insani hissləri, tarixi müdirikliyi folklorumuzda aydın əks olunmuşdur (Həşimov, 1970: 17).

**Müəllimin hərtərəfli formalaşmasında etik davranışların rolu.**

Müəllim etikası məsələsini dahi çex pedaqoqu J.Kamenski geniş aspektdə işləmişdir. O müəllim-şagird münasibətlərinə xüsusi əhəmiyyət vermiş,humanist müəllim idealını yaratmışdır. Müasir müəllim bütün tədris boyu pedaqoji etikanı unutmamalı uşaqlarla humanist davranmalı, şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almalıdır.

Ayrı-ayrı mühitdən gələn uşaqlar bir sinifdə toplaşır. Fərqli xüsusiyyətləri olan uşaqlar müəllimin köməyi,şəfqəti ilə bir-birinə uyğunlaşmalıdırlar. Deməli müəllimin şəfqətindən, düzgün etik davranışından çox şey asılıdır.

Müəllim etik biliklərə o qədər yiyələnməlidir ki, bunu şagirdlərə başa salmalı,onları hərtərəfli inkişaf etdirməlidir. Müəllim yaxşını qabağa çəkib, zəif oxuyanı danlamamalı, əksinə hamısına eyni qaydada davranmalı və müəyyən şəraitdə onu başa salmalı, ruhlandırmalıdır.

Deməli müəllim şagirdləri elmə həvəsləndirməli, öz davranış, etikası ilə müvəffəqiyyət qazanmalıdır. Müasir müəllimin öhdəsinə böyük vəzifələr düşür. Hər bir uşağın təbiətində gizlənmiş qığılcımı yandırmaq, onlara ilham vermək müəllimin borcudur.

İstedad hər bir uşağın zehnində, fikrində, ürəyində gizlidir. Bunları ancaq müəllim aşkara çıxara bilər. Bütün bunları görkəmli pedaqoqlar təsdiq etmişlər.

Pedaqoji etika sayəsində hər bir uşağın istedadını aşkara çıxarmaq olar.

S.Ə.Sirvani, A.Bakıxanov, K.D.Uşinski, M.F.Sidqi, A.S.Makarenko, N.Nərimanov, B.A.Suxomlinski, Tolstoy, Gertsen və başqa pedaqoqlar pedaqoji etikanın ən vacib tərbiyə sistemi olduğunu qeyd etmişlər. Ən əsas odur ki, müəllim insan zəkası haqqında təcrübə əldə etməli,həm pedaqoq, həm psixoloq olmalıdır. Müasir müəllim pedaqoji sistemdə tərbiyəçi ilə tərbiyə olunanlar arasında mənəvi münasibətlərə xeyli yer verməlidir. İlk növbədə isə müasir müəllim özünün əməli işi ilə sözünün bir-birinə uyğun gəlməsinə diqqət yetirilməlidir. Uşaqlarla ünsiyyətdə olmaq, daim onları dinləmək, yol göstərmək, onların qəlbində umud işığı yandırmaq lazımdır. Əlbətdə pis uşaq yoxdur, çətin tərbiyə olunan uşaq vardır.Ünsiyyətdə olmaq işığın, qaradinməzlik isə zülmətin əlamətidir. Ünsiyyətdə olmaq müəllim nüfuzunu yüksəklərə qaldırır, onu ideallaşdırır.

**Müəllim şəxsiyyətinin formalaşmasında mənəvi əqidəninin təsiri.**

Müəllim şəxsiyyətinin formalaşmasında mənəvi əqidənini böyük təsiri vardır. Mənəvi əqidə müəyyən ictimai-siyasi, mədəni amillərin təsiri altında formalaşır. Əqidə insanın mühit, həyat,

varlıq haqqında düşüncə və inamından ibarətdir. Mənəvi əqidənin formalaşmasında ictimai mühitin, ailənin böyük təsiri vardır. Mənəvi əqidənin əsas komponentlərindən biri əxlaqi etik, elmi bilikdir. İnsan ta uşaqlıqdan başlayaraq ömrünün sonuna kimi müəyyən elmi biliklərə yiyələnmək üçün səy göstərir. Elmi biliklərə yiyələnmək sayəsində insan təbiətdə və cəmiyyətdə baş verən hadisələrin mahiyyətini dərindən dərk edir. Elmi, əxlaqi-etik biliklər müəllimin ictimai-siyasi hadisələri düzgün qiymətləndirilməsinə, dünya miqyasında baş verən hadisələri düzgün dərk etməsinə kömək edir (İsmixanov, Bayramov, Vəliyeva, 2019: 27).

Mənəvi əqidənin başqa bir kompenenti də müstəqil fikirdir, fəaliyyətdir. Elmi-əxlaqi-etik biliklərə yiyələnməklə mənəvi şüurun tam formalaşması baş vermir, bunun üçün müstəqil fəaliyyət vacibdir. Müstəqil fəaliyyət çox mürəkkəbdir. Çünki əqidə müəllimi həmişə fəaliyyətə təhrik edir. Bu zaman müəllim cəmiyyətdə baş verən ictimai həyat hadisələrinin seyredicisi olmur, əksinə bu hadisələrə müdaxilə edir, fəaliyyət göstərir. Çünki müəllimm bütün hadisələrdə fəaliyyət göstərməsi, fəal və aktiv olması gənc nəsili arxasınca apaması deməkdir.

Mənəvi əqidənin başqa bir kompenentdə iradədir. Əgər iradə olmasa qarşıya çıxan çətinlikləri, maneələri dərk etmək cəsarəti olmasa, əqidə də ola bilməz (Əliyev, 2022: 15).

Deməli, mənəvi əqidə iradə qüvvəsini özündə birləşdirən prosesdir. Bütün bunlardan bir nəticə əmələ gəlir ki, mənəvi əqidə elmi, əxlaqi-etik biliklərə, həyat təcrübəsinə incə hisslərə əsaslanan həyat stimulu olan insanların məqsədə uyğun fəaliyyətidir. Müəllim peşəsi bütün peşələrin anasıdır, çünki müəllim gənc nəsili həyata hazırlayır, inkişaf etmiş, hərtərəfli formalaşmış şəxsiyyət yetişdirir, vətən övladı yetişdirir. Müəllim hər zaman vətən üçün canını verməyə hazır olan insanlar yetişdirir. Müəllim iqtisadiyyatı idarə edən insanlar yetişdirir (Əlizadə, Əlizadə, 2010: 20). Buna görə də müəllim elmi-əxlaqi, etik biliklərin mənbəyi sayılır. Müəllim hər zaman öz peşəsini sevməli, dərindən dərk etməli, daima öz üzərində işləməlidir. Müəllim bir günəşdir, hər zaman parlayır, ətrafını işıqlandırır. Müəllimm öz fəaliyyəti zamanı uşaqların psixologiyasını dərindən öyrənməli, onların daxili aləmi ilə maraqlanmalıdır. Müasir müəllim tələbkar olmalıdır, prinsiplərə rəayət etməlidir, eyni zamanda ədalətli olmalıdır.

H.A.Dobrolubov yazırdı: “Müəllim şagird üçün heyranedici təcrübə oyadan bəşəri kamilliyin ali nümunəsidir”.

Müəllim bilməlidi ki, öz nüfuzunu zəhməti, əməyi, biliyi, bacarığı sayəsində əldə edir. Müəllim kollektivçi olmalı, qarşılıqlı yardım göstərməyi bacarmalıdır. Müəllim fəal ictimaiyyətçi, maarifci və biliklərin inkişaf etdiricisi, xeyirxah münasibətlərin daşıyıcısı, əsl vətənpərvər və əxlaqi əqidənin daşıyıcısı olmalıdır. Müəllim-şagird,şagird-müəllim kollektivi bir-biri ilə sıx bağlıdır.

Müəllim şagird kollektivinin münasibətlərinin öz məzmunu, spesfik xüsusiyyətləri, çətinlikləri, problemləri vardır. Müəllim uşaq kollektivinə yalnız obyekt kimi deyib, habelə tərbiyə prosesində özünün ən yaxşı köməkçisi kimi baxmalıdır.

Kollektiv tərbiyə amilidir və o şagird şəxsiyyətinə çox vaxt müəllimdən də güclü təsir göstərir. Kollektiv münasibətlərinin formalaşması müəllimin əlində qüdrətli silahdır (Qənizadə, 1964: 32). Müəllim hər bir şagirdin yaxşı və ya pis hərəkətini kollektivin müzakirəsinə verib rəy yaratdıqda müsbət nəticə verir. Müəllim şagirdini qəlbdən sevir, onun hər bir böyük, kiçik müvəffəqiyyətlərindən fərəhlənir. Qəlbində uşaqlara məhəbbəti, valdeyn hərarəti olmayan müəllim uşağı incidir, ona daxili iztirab verir. L.Tolstoy belə müəllimlərə deyirdi: “Ona əzab verməyin, sorusun, qəlbini dinləyin”.

Rus pedaqoqu B.A.Suxomlinski yazırdı ki, mənim həyatımda ən başlıca sənət nədir? Düşünmədən deyərdim:Uşaqlara məhəbbət böyük qüvvədir. Belə bir məhəbbət B.A.Suxomlinski “Ürəyimi uşaqlara verərəm” adlı əsərində böyük bir ürəklə, hərarətlə, sevgi hissi ilə tərənnüm etmişdir.

Böyük alman pedaqoqu “müəllimlər müəllimi” F.A.Distever müəllimi cəmiyyətin hərəkətverici qüvvəsi hesab etmiş, müəllimlər üçün konkret tələblər, qaydalar hazırlamışdır. Müəllimin öz fənninə olan münasibəti uşaqlara da keçir. Məktəbin qabaqcıl məktəb olması üçün müəllimlərinin yaxşı olması şərtdir.

Dahi M.Zelinski ailə tərbiyəsi, ata-övlad, ana-qız münasibətləri, məktəbin həyatla əlaqəsi haqqında maraqlı fikirlər söyləmiş, müəllimləri uşaqlıq dünyasını öyrənməyə çağırmışdır.

Əsl müəllim şəxsiyyətin formalaşmasına, təkminləşməsinə, inkişaf etməsinə təsir edən amillərin, irsiyyət, mühit və tərbiyə amillərinin qarşılıqlı münasibəti haqqındakı məsələləsinə Karl Marks didaktik şəkildə yanaşmış və insanın yenidənqurma fəaliyyətini yüksək qiymətləndirmişdir.

Müasir Azərbaycan müəlliminin daha da formalaşması, hərtərəfli inkişaf etməsi, gələcək tələblərə cavab verməsi üçün onun qarşısında cətin və məsuliyyətli vəzifələr dayanır. Müəllim hər an öz üzərində işləməli, yeni fikirlər axtarmalı, öyrənməlidir. Müəllim daim yaradıcı əməyinin qayğısına qalmalıdır. Nüfuzlu müəllim cəmiyyət daxilində elmi biliyi,dünyagörüşü, intelekt səviyyəsi, hümanistliyı, ədalətliliyi, qayğı və tələbkarlığı ölçülü, biçili tənzimlənməsi ilə daxil olduğu cəmiyyət üzvlərinin hər birində müsbət mənada fərqlənir (Kərimov, 2009: 39). Daim yaradıcı əməyinin qayğısına qalan müəllim unutmamalıdır ki, şəxsi əməksiz insan müvəffəqiyyət qazana bilməz.

Bəli müəllim hər zaman yaradıcı olmalı, peşə fəaliyyətində etik davranış prinsiplərini gözləməli və tələblərə ciddi şəkildə əməl etməlidir.

Müəllim gənc nəslin mənəvi estetik tərbiyəsinin inkişaf etməsində böyük rol oynamalı, həm özünün, həm də şagirdlərin milli əxlaq, ictimai davranış, pedaqoji-etika normalarına riayət etməlidir.

Hər bir müəllim etik davranış qaydalarına əməl etməlidir. Bütün bu qaydalara əməl edən müasir müəllim öz üzərində layiqincə işləyərək kollektivin hörmətini qazanır və yüksəlir.

## Nəticə

Müasir müəllim şəxsiyyətinin formalaşması, hərtərəfli inkişaf etməsi, gənc nəslə dayaq olması dövrümüzün ən vacib aktual məsələlərindən biridir. Hər bir Azərbaycan müəllimi öz peşə nüfuzunu möhkəmləndirməyə, şərəf və ləyaqətini uca tutmağa borcludur. Müəllim ən məsuliyyətli, çətin və mürəkkəb bir yolun yolçusudur.Müqəddəs peşə sahibi olan müəllim öz sədaqəti, səbri biliyi, ruh zənginliyi, fədakarlığı ilə seçilirlər. Gələcək gənclərin, gənclər isə müəllimlərin əsəridir. Ulu öndər Heydər Əliyev demişkən: “Mən yer üzündə müəllimdən yüksək ad tanımıram”.

Hər an öz üzərində işləyən yeni fikirlər axtaran,hörmətli müəllimlərimizlə fəxr edir, onlara bu şərəfli məsləkdə uğurlar arzulayırıq.

## Ədəbiyyat

1. İlyasov, M. (2018). “Müəllim peşəkarlığı və səriştəliyinin müasir problemləri”. Bakı: Elm və təhsil.
2. Mirzəyev, F., Rüstəmovva, X. (2012). “Pedaqoji ustalığın əsasları”. Bakı: Dərs vəsaiti.
3. Həşimov, Ə. (1970). Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı: Maarif nəşriyyatı.
4. İsmixanov, M., Bayramov, H., Vəliyeva, S. (2019). “Ali məktəb pedaqogikası”. Bakı.
5. Əliyev, H.Ə. (2022). “Təhsil millətin gələcəyidir”. Bakı: Təhsil.
6. Əlizadə, Ə., Əlizadə, H. (2010). “Pedaqoji psixologiya”. Bakı.
7. Qənizadə, S.M. (1964). Seçilmiş əsərlər. Bakı.
8. Kərimov, Y.S. (2009). “Pedaqoji tədqiqat metodikası”. Bakı: Azərnəşr.

Göndərilib: 03.02.2024 Qəbul edilib: 15.04.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/49-53

**Zenfira Seyidova**
Naxçıvan Dövlət Universiteti
turalmemmedov521@gmail.com
**Sevda Ocaqquliyeva**
Naxçıvan Dövlət Universiteti
sevdaocagguliyeva@gmail.com
**Nərmin Novruzova**
Naxçıvan Dövlət Universiteti
nerminorucova34@gmail.com

# İNSANLARIN MƏDƏNİ-MƏNƏVİ TƏRBİYƏSİNDƏ MEMORİAL MUZEYLƏRİN ROLU

**Xülasə**

Memorial muzeylər milli mədəniyyətimizin mühüm bir sahəsi olub, müxtəlif sahələri əhatə etməklə, konkret şəxsiyyətin bu sahədəki xidmətlərini ictimaiyyətə nümayiş etdirir, eyni zamanda müəyyən zaman kəsiyi ərzində ölkənin yaşadığı siyasi-ictimai və mədəni səciyyəli prosesləri maddi sübutlar və dəlillər əsasında göstərməyə çalışırlar. Məqalədə memorial muzeylərin rolundan bəhs edilir. Həmçinin məqalədə İnsanların mədəni-mənəvi tərbiyəsində memorial muzeylərin rolu ətraflı şəkildə, müxtəlif nümunələr əsasında araşdırılaraq şərh edilir.

***Açar sözlər:*** *muzey, fond, ekspozisiya, təbliğat, memorial, əşya*

**Zenfira Seyidova**
Nakhchivan State University
turalmemmedov521@gmail.com
**Sevda Ojagguliyeva**
Nakhchivan State University
sevdaocagguliyeva@gmail.com
**Narmin Novruzova**
Nakhchivan State University
nerminorucova34@gmail.com

## The role of memorial museums in cultural and moral education of people

**Abstract**

Memorial museums are an important area of our national culture, they cover various areas and demonstrate to the public the services of a specific person in this area, and at the same time, they try to show the political, social and cultural processes experienced by the country during a certain period of time on the basis of material evidence and evidence. The article discusses the role of memorial museums. Also, in the article, the role of memorial museums in the cultural and moral education of people is analyzed in detail and interpreted based on various examples.

***Keywords:*** *museum, foundation, exposition, publicity, memorial, object*

## Giriş

Yarandığı zamandan və məkandan asılı olmayaraq muzeylər fəaliyyət göstərdiyi ölkədə hər bir şəxsin öz milli mənsubiyyətini dərk etməsinə və tədricən soy kökünə qayıtmasına, keçmişin ibrətamiz dərslərindən nəticə çıxarmasına xidmət etməlidir. Bundan başqa muzeylər öz mədəni ənənələrini böyüməkdə olan nəsillərə çatdırmalı, başqa xalqların mədəniyyətinə hörmətlə yanaşmaq vərdişinin tərbiyə edilməsinə və nəhayət, müstəqil inkişaf dövründə öz ixtisasından asılı olmayaraq bütün muzeylər milli mənafelərə xidmət etməlidir. Onlar ümumiyyətlə, mədəniyyət abidələrinin

qorunması ilə yanaşı, məhz öz millətinin malik olduğu mədəni ənənələri tərənnüm etməli, bu ənənələrin simasında öz xalqının daha qədim tarixə malik olduğunu, bu ənənələrin yaranmasında milli dühanın, milli istedadın müstəsna rolunu, bu istedadın mədəni-quruculuq sahəsində tükənməz potensial imkanlara malik olduğunu nümayiş etdirməyə çalışmalıdır. Tarix-mədəniyyət abidələrinin toplayaraq yığmaqda, onları bərpa etməkdə və mühafizəsində başlıca məqsəd vətəndaşları milli mədəniyyətin müxtəlif sahələrində yeni nailiyyətlər qazanmağa ruhlandırmaq, milli istedada, milli dühanın yaradıcı imkanlarına inam hissi tərbiyə etməkdir. Bu baxımdan, muzeylərin bütün növləri (tarix, ədəbiyyat, incəsənət, respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən diyarşünaslıq və xatirə muzeyləri) eyni dərəcədə xalqımızın öz azadlığı və ərazi bütövlüyü uğrunda mücadilədə qazandığı zəfərlər, o cümlədən, II dünya müharibəsində əldə etdiyi nailiyyətlərlə tanış etmək, xalqımızın qələbə dolu tarixindən bəhs edən və tamaşaçılara Azərbaycanın indi cəlb olunduğu müharibənin II dünya müharibəsindən fərqli xüsusiyyətlərini araşdırmaqda böyük xidmət göstərir. Həmçinin muzeylər xalqı milli mənafelər uğrunda fədakarlığa ruhlandırmaq və eyni zamanda, milli yaddaşı möhkəmləndirərək, Qarabağda gedən döyüşlərin iştirakçılarının xatirə muzeylərini təşkil etməklə onları fəal təbliğat işinə cəlb edə bilər. Bütünlüklə isə milli vətənpərvər ruhlu, hərtərəfli inkişaf etmiş, dünya siyasətindən baş çıxara bilən, dünya xalqları arasında Azərbaycan xalqının layiqli yeri olduğunu dərk edən çağdaş vətəndaş yetişdirməkdə iştirak edirlər.

Memorial muzeylərin tarix, incəsənət, ədəbiyyat və başqa ixtisasları təmsil edən muzeylərlə yanaşı milli tariximizi və mədəniyyətimizi əks etdirməkdə əhəmiyyəti böyükdür. Azərbaycan xatirə muzeylərinin mənşəyi onların təsis edildiyi siyasi, ictimai və mədəni şərait fəaliyyət yönümləri və əhalinin mənəvi tərbiyəsində oynadığı roldan bəhs edərkən onların yarandığı konkret tarixi şəraitdən çıxış etmək daha məqsədəuyğundur. Xronoloji cəhətdən bu tarix keçən əsrin 40-70-ci və ondan sonrakı illərə təsadüf edir.

Azərbaycanın dövlət müstəqilliyi şəraitində muzeylərimiz yeni fəaliyyət imkanları qazanmışdır. Müasir dövrdə əyani təbliğat vasitəsi kimi xatirə muzeylərinin əhəmiyyəti xüsusilə genişdir. Belə ki, Azərbaycanı xarici aləmə tanıtma, onun haqq səsini dünya ictimaiyyətinə çatdırmaq, xalqda özünə inam aşılamaq, vətənin tərəqqisi, müstəqilliyi və ərazi bütövlüyü naminə fədakarlığa ruhlandırmaq baxımından müstəsna əhəmiyyət kəsb edir.

Memorial muzeylər milli mədəniyyətimizin mühüm bir sahəsi olub, müxtəlif sahələri əhatə etməklə, konkret şəxsiyyətin bu sahədəki xidmətlərini ictimaiyyətə nümayiş edtirir, eyni zamanda müəyyən zaman kəsiyi ərzində ölkənin yaşadığı siyasi-ictimai və mədəni səciyyəli prosesləri maddi sübutlar və dəlillər əsasında göstərməyə çalışırlar. Muzeylərimiz bu proseslərdə milli dühanın rolunu aşkar edir, xalqda özünün görkəmli tarixi şəxsiyyətlərinə qürur hissi formalaşdırır, onu mədəni tərəqqi naminə yeni uğurlara ruhlandırır.

“Rusiya muzey ensiklopediyası”ında memorial muzeylər haqqında yazılmışdır: “Memorial muzeylər mühüm tarixi hadisələrin, dövlət və ictimai xadimlərin, elm mədəniyyət və incəsənət xadimlərinin xatirəsini əbədiləşdirmək məqsədilə muzey əşyalarının toplanması, qorunması, öyrənilməsi və nümayiş etdirilməsini həyata keçirməklə məşğul olan muzeylər qrupudur. Adətən belə muzeylər bir zaman həmin hadisələrin baş verdiyi və ya memorial muzeyin həsr olunduğu şəxsin yaşadığı binada yerləşirlər. Xatirə muzeylərinin əlamətdar xüsusiyyəti onların memorial xatirə xarakterindədir. Xatirə muzeylərinin bu xüsusiyyəti burada nümayiş etdirilən muzey əşyalarının kolleksiyalarında əks etdirilir. Muzeyə gələn tamaşaçıların əhval-ruhiyyəsinə və şüuruna emosional təsir göstərərək onlarda həmin hadisələr və ya görkəmli şəxslər haqda geniş təsəvvür və inam yaradır. Muzeydə nümayiş etdirilən maddi əşyalar onların mənsub olduğu şəxsin xasiyyətindən, həyat tərzindən, siyasi və ictimai fəaliyyətindən xəbər verir” (Həvilova, 2019).

Qeyd edim ki, memorial muzeylər bu və ya digər elm, mədəniyyət, siyasi-ictimai xadimin xatirəsini əbədiləşdirmək məqsədilə təşkil edilərək fəaliyyət göstərən muzeylərdir. Müasir dövrdə memorial muzeylər muzey otaq, muzey emalatxana, ev muzeyi və s. kimi qruplara ayrılır (Həvilova, 2019: 45).

Muzey fondunun arxeoloji qazıntılar və etnoqrafik araşdırmaların hesabına formalaıaşdığı tarix muzeylərindən və müəyyən bölgənin təbiətini, coğrafi xüsusiyyətlərini, təbii sərvətlərini, canlı və

bitki aləminin təsvirinə həsr olunmuş diyarşünaslıq muzeylərindən fərqli olaraq, xatirə muzeylərinin fondu onun sahibinin həyat və yaradıcı fəaliyyəti ilə əlaqədar olan məişət əşyaları, əlyazmalar, fotoşəkillər, portretlər, onun müxtəlif şəxslərlə yazışmasının məhsulu olan məktublar, arxiv sənədləri təşkil edir. İş metodları və eksponat toplamaq qaynaqları müxtəlif olsa da, onların hamısı üçün ümumi olan bir sıra əlamətlər mövcuddur. İxtisasından asılı olmayaraq bütün muzeylər, xalqın mənəvi cəhətdən tərbiyə edilməsinə xidmət edir (Haqverdiyev, 1922: 7).

Bütün muzeylər maddi mədəniyyət nümunələrinin mühafizə və bərpa edilərək gələcək nəsillərə çatdırılması vəzifəsi ilə yanaşı güclü təbliğat-təşviqat vasitəsi rolunu oynayır. Cəmiyyətdə cərəyan edən hadisələr haqqında ictimai rəyin istənilən səmtə yönəldilməsi vəzifəsini daşıyır. Hakim ideologiyadan, siyasi yönümdən, mövcud siyasi-ictimai durumdan asılı olaraq muzeylərin qarşısına müxtəlif vəzifələr qoyula bilər. Ancaq muzey hər şeydən əvvəl xalqı yeni uğurlara ruhlandıran, öz potensial qüdrətinə inam hissi tərbiyə edən əyani təbliğat vasitəsidir. Belə ki, xatirə muzeylərinin tamaşaçıları əcnəbilər və yerli əhali olmaqla iki hissədən ibrətdir. Deməli, muzeylərin fəaliyyəti də yönəldilmiş olduğu auditoriya baxımından ikili xarakter daşıyır. Muzeyi ziyarət edən əcnəbi tamaşaçılarda Azərbaycan xalqının qədim mədəniyyətə malik olan, bacarıqlı, qüdrətli bir xalq kimi hörmətlə yanaşmaq vərdişi formalaşdırmaq və yerli vətəndaşları təmsil edən tamaşaçılarda isə öz vətəninə məhəbbət, ona bağlılıq, öz xalqından olan görkəmli şəxsiyyətlərə görə haqlı qürur hissi tərbiyə etməli və onları yeni fədakar hərəkətlərə ruhlandırmalıdır (Allahverdiyeva, 1997: 11).

Memorial muzeylər tamaşaçını özünəməxsus dəyərlər əsasında tərbiyə edir. Bu muzeylərin məxsus olduğu görkəmli Azərbaycanın mədəniyyət, ictimai-siyasi xadimləri mənəvi cəhətdən inkişaf etmiş insan tərbiyə etmək üçün çox önəmli nümunələr verir (Bayramov, Məhərrəmova, 1999: 21). Əlbəttə əhalisi arasında müsəlmanların çoxluq təşkil edən bir Şərq ölkəsi kimi Azərbaycan cəmiyyətində "mənəvi dəyərlər" dedikdə ilk növbədə doğruluq, səmimiyyət, gözütoxluq, yaxşılığa meyl, təvazükarlıq kimi keyfiyyətlər başa düşülməlidir. Ancaq nəzərə almaq lazımdır ki, "mənəvi dəyərlər" məfhumu mütləq olduğu qədər də nisbidir. Müxtəlif siyasi-ictimai durumlarda mənəvi keyfiyyətlərin sayı artıb çoxala da bilər. Zənnimizcə Azərbaycanın öz dövlətçiliyinin möhkəmləndirilməsi və ərazi bütövlüyünün qorunması uğrunda mübarizə apardığı indiki şəraitdə mənəvi cəhətdən tam inkişaf etmiş kamil insan olmaq üçün təkcə yuxarıda sadalanan keyfiyyətlər kifayət sayıla bilməz. Mənəvi cəhətdən inkişaf etmiş həm də öz xalqını, vətənini, milli mədəniyyətini, adət-ənənələrini sevmək, onlar uğrunda fədakarlığa hazır olmaq zəruridir. Doğrudan da, xatirə muzeylərinin məxsus olduğu Azərbaycan oğulları bütün bu keyfiyyətləri öz simasında birləşdirmişlər.

Qeyd edim ki, tarix-diyarşünaslıq muzeylərinin yaradılması əgər paytaxtdan başlayıb, bölgələrdə başa çatırdısa, xatirə muzeyləri əksinə, ilkin olaraq əyalətlərdə yaradılırdı. XX əsrin 50-60-cı illərindən etibarən Şuşada Azərbaycan professional musiqisinin banisi, böyük bəstəkar Ü.Hacıbəyovun, Şamaxıda satirik şair M.Ə.Sabirin, Lənkəranda iki dəfə Sovet İttifaqı Qəhrəmanı H.Aslanovun, Xızıda milli dramaturgiyamızın banisi C.Cabbarlının, Qazaxda görkəmli şair və ictimai xadim M.P.Vaqifin, Ordubadda yazıçı M.S.ordubadinin və dünya şöhrətli alim, akademik Y.Məmmədəliyevin xatirə muzeyləri açıldı (Əliyev, 1984).

Azərbaycanda muzey işinə qayğı və diqqət Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın əsrlər ərzində yaratdığı mənəvi sərvətin toplanması, qorunması yolunda Heydər Əliyevin xidmətləri böyük olmuşdur. 1970-ci illərdən etibarən respublikamızda müxtəlif profilli muzeylərin, o cümlədən memorial muzeylərin yaradılması, fəaliyyət göstərən muzeylərin zənginləşdirilməsi bu fikirləri bir daha təsdiq etməyə imkan vermişdir. Azərbaycan ərazisindəki memorial muzeylər Azərbaycan SSR KPMK və Azərbaycan SSR Nazirlər Sovetinin 1976-cı il iyun tarixli "Dahi ədəbiyyat və incəsənət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi haqqında" və Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 1979-cu il 31 oktyabr tarixli qərarına əsasən təşkil edilmişdir. Muzeylərin, o cümlədən, memorial muzeylərin yaradılmasının zəruriliyi və məqsədəuyğunluğu Respublika Prezidenti Heydər Əliyevin fikri ilə bir daha təsdiqlənir: "Azərbaycan xatirəsini əbədiləşdirməyi vacib olan dahi şəxsiyyətlərlə şöhrətlənmişdir. Gələcək nəsillər onların həyat və yaradıcılığını bilmir. Bu sahədə müxtəlif vasitələrdən istifadə etmək lazımdır" (Bayramov, 1999: 20).

Bütövlükdə 1970-1980-ci illərdə xalq şairimiz S.Vurğunun, Ü.Hacıbəyovun, yazıçı və ictimai xadim N.Nərimanovun, C.Cabbarlının, Bülbülün və H.Cavidin xatirə muzeyləri fəaliyyətə başladı (Hacıbəyov, 1964: 14).

Memorial muzeylər özünün ilkin vəzifəsini – bu və ya digər yaradıcı şəxsiyyətin mədəni irsinin toplanması, bərpa edilməsi və ekspozisiyalar şəklində xalqa çatdırılması vəzifəsini qismən də olsa, yerinə yetirirlər. Böyük şairimiz Səməd Vurğunun ev muzeyində tamaşaçıların mənəvi tərbiyəsi onun həyat tərzində və yaradıcı fəaliyyətində vətən sevgisi, mənəvi saflıq, milli vətənpərvərlik, fədakarlıq, gözütoxluq və s. keyfiyyətlərin nümayiş etdirilməsinə, bu barədə tamaşaçılar qarşısında əsaslnadırılmış söhbətlər aparılmasına şərait yaratmalıdır.

Görkəmli şair və dramaturqun həyat və yaradıcılığına xas olan beynəlmiləlçilik motivlərini, arxa plana çəkmək və onların yerini milli özünəməxsusluğu tərənnüm edən ekspozisiyalara vermək lazımdır. Bu, muzey əməkdaşının tarix, ictimaiyyət və mədəniyyət sahələrində dərin bilik və xüsusi peşəkarlıq tələb edən çətin, lakin zəruri bir işdir. Memorial muzeylərin iş sahəsi, fəaliyyətinin digər sahələri, başqa mədəni, maarif və təbliğat müəssisələrinin fəaliyyəti ilə qırılmaz əlaqədədir. Belə hərtərəfli, çoxəhatəli və kompleks münasibət kütləvi işin məqsəd və vəzifələrinin reallaşdırılmasını xeyli asanalaşdırır. Muzeylərin təlim-tərbiyə sahəsində fəalliyəti, vətənpərvərlik, milli-mədəni irsə, adət-ənənələrə, həyat tərzinə sədaqət prinsiplərinə əsaslanmaqla, muzeyə gələnlərin müxtəlifliyini nəzərə almağa yönəlmişdir. Digər ideya-təbliğat səciyyəli müəssisələr kimi ev muzeylərinin qarşısında milli mentalitetə milli özünüdərketməyə əsaslanan dünyagörüşünün formalaşdırlması vəzifəsi qoyulur. Respublikamızda ev muzeylərinin səciyyəvi vəzifələrindən biri də muzey mədəniyyətini formalaşdırmaq olmuşdur. Bu muzeylər millətin içərisindən çıxmış ayrı-ayrı görkəmli şəxsiyyətlərin istedadına, onların yüksək mənəvi keyfiyyətlərinə-amallara əsaslanaraq, onları eksponatlar vasitəsilə tamaşaçıya nümayiş etdirirlər.

Respublikada memorial muzeylər əlbəttə, digər hadisələrdən təcrid edilmiş şəkildə yaranmamışdır. Respublikanın mədəni həyatı üçün önəmli olan bu hadisə ölkədə 80-ci illərdən başlayaraq həyata keçirilən mədəni inqilabın dalğaları üzərində gəlmişdir. Qeyd edək ki, muzeylər tarixi keçmişimizin öyrənilməsinə, mədəniyyətimizin və ənənələrimizin bərpa edilməsinə xidmət edir. Lakin eyni zamanda etiraf etməliyik ki, tarixi hadisələri müxtəlif mövqelərdən öyrənərək onlara müxtəlif yönümdən qiymət vermək olar. Müasir dövrün ictimai-siyasi və mədəni hadisələri dinamik, dəyişkən olduğundan biz artıq elə hadisələrə birmənalı şəkildə qiymət verməkdən çəkinir, onları dəyərləndirərkən bir sıra yardımçı amilləri nəzərə almalı oluruq. Belə ki, onilliklərlə siyasi sabitlik və əmin-amanlıq diyarı hesab etməyə alışdığımız ölkələri indi dünyanın "qaynar nöqtələri", qonşu, hətta qardaş hesab etdiyimiz xalqları təcavüzkar tərəf kimi qiymətləndirməli oluruq. Respublikada görkəmli ictimai-siyasi, elm və mədəniyyət xadimlərinin xatirə muzeylərinin açılması, muzey quruculuğu işinin yeni və daha yüksək mərhələsi, əhalidə muzey mədəniyyətinin formalaşmasının, əhalinin mənəvi tərbiyəsində muzeylərin fəaliyyətinin düzgün qiymətləndiridiyini göstərən bir amil hesab oluna bilər. Bu yönümdə ciddi islahatlar aparılmalı və bu işə öz ixtisasını dərindən bilən vətənpərvər ruhlu qüvvələr cəlb edilməlidir. Memorial muzeylərin işi respublikamızın müstəqil inkişaf mərhələsinin səciyyəvi xüsusiyyətlərindən irəli gələn yeni prinsiplər üzərində qurulmalıdır (Məsimov, 2004).

Xatirə muzeyləri milli mədəni irsimizin təbliğinin mühüm vasitəsi olaraq qalmaqdadır və çox güman ki, müstəqillik yolu ilə irəlilədiyimiz yaxın gələcəkdə bu mühüm rolu qoruyub saxlayacaqdır. Dünya miqyasında, bölgədə və respublikamızda cərəyan edən siyasi, ictimai və mədəni hadisələr "vətən sevgisi", "vətənpərvərlik", "mənəvi tərbiyə" və s. anlaşmaların özünə də yeni, milli mənafelər mövqeyindən yanaşmağı tələb edir. Muzey eksponatları arasında milli mədəniyyətimizi əks etdirən eksponatların say nisbətinin durmadan artmasına çalışmaq lazımdır. Bunun üçün, ümumiyyətlə, əhali ilə, müxtəlif fərdi kolleksiya sahələri ilə və müxtəlif profilli muzeylərlə eksponat mübadiləsi təşkil edilməli, o cümlədən, müxtəlif profilli ixtisaslaşdırılmış muzeylərlə xatirə muzeyləri arasında sıx əməkdaşlıq yaradılmalı, onların işində təkrarlama hallarına yol verilməlidir.

## Nəticə

Xatirə muzeylərində nümayiş etdirilən eksponatlar tamaşaçılarda öz xalqının yaradıcı qüdrətinə inam yaratmalı, onun vətən torpağına bağlılığını möhkəmləndirməli, xatirə muzeyinin məxsus olduğu görkəmli şəxsiyyətin nümunəsindən ilhamlanaraq onu yeni-yeni uğurlara ruhlandırmalıdır. Bu gün belə bir inam və ruh yüksəkliyi özünün müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpa edilməsi, mədəni tərəqqi uğrunda mübarizə aparan Azərbaycan xalqına olduqca zəruridir. Xatirə muzeylərinin məxsus olduğu Azərbaycanın görkəmli ziyalılarının həyat və yaradıcılıq irsi o qədər zəngin və dolğundur ki, onlar respublikanın ictimai-siyasi və mədəni həyatında o qədər dərin iz buraxmışlar ki, burada hər bir şəraitdə xalqın mənəvi tərbiyəsi üçün gözəl nümunələr əldə etmək olar. Burada vətən sevgisi, millət təəssübkeşliyi, qonşu xalqlarla beynəlmiləl dostluq çağırışları, vətənin tərəqqisi üçün fədakarlıq ideyaları, mənəvi saflıq, doğruluq, səmimiyyət, gözütoxluq, etibarlılıq, ədalət ideyaları bir-birini elə tamamlayır ki, qərəzssiz oxucu və ya tamaşaçı bu irsdən kamillik nümunəsi ola bilir. Burada əsas nailiyyət eksponatları seçərkən, muzey ekspozisiyalarını tərtib edən muzey əməkdaşlarının öhdəsinə düşür. Peşəkar muzey əməkdaşları məqsədyönlü şəkildə bu irsi araşdıraraq günün problemlərinə uyğun olan amilləri aşkar etməli və onlardan tamaşaçıların mənəvi tərbiyəsi işində istifadə etməlidirlər. Bu əməliyyat planlı və məqsədyönlü xarakter daşımalıdır.

## Ədəbiyyat

1. Həvilova, F. (2019). Azərbaycanın memorial muzeyləri və mədəni irsimiz. Bakı, 18 s.
2. Haqverdiyev, M. (1922). Muzeylər milli yaddaş saxlancımızdır. Bakı. № 1.
3. Məsimov, S. (2004). Hər muzey bir abidədir. Bakı, 28 s.
4. Allahverdiyeva, A. (1997). Muzeylər mənəvi zənginləşmənin əsas mərkəzi kimi. Bakı, 92 s.
5. Bayramov, A., Məhərrəmova, S. (1999). Muzeylərimiz və milli xüsusuiyyətlərimiz. Mədəni-maarif işi. № 11-2, Bakı, 21 s.
6. Əliyev, X. (1984). Səyyar sərgi M.S.Ordubadinin ev muzeyi. Mədəni-maarif. № 2. Bakı, 14 s.
7. Bayramov, A. (1999). Heydər Əliyev və muzeylərimiz. Bakı.
8. Hacıbəyov, Ü. (1964). Əsərləri, I cild. Bakı.

Göndərilib: 25.02.2024 Qəbul edilib: 11.04.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/54-58

**Dilbər Orucova**
Naxçıvan Dövlət Universiteti
dilber_orucova@mail.ru

# BƏDİİ DİSKURSDA DİNİ METAFORALAR

**Xülasə**

Bədii mətn bədii diskursun əsasını təşkil edir. Bədii nitqin yaranması prosesi digər nitq növləri ilə müqayisədə müəyyən fərqli cəhətə malikdir. Onun yaradıcısı yazıçı və ya şairdir. Bədii diskursda kommunikativ akt spesifik xüsusiyyətə malikdir. Ünsiyyət bir istiqamətlidir. Proses ünvançı → bədii mətn → ünvançı şəklində gedir. Hərəkətdə itkidə ikinci tərəfin iştirakı müşahidə edilmir. Bu baxımdan məsələ bədii mətndə metaforanın işlənməsi xüsusiyyətlərinin öyrənilməsini nəzərdə tutur.Dilçilikdə mətn müxtəlif yollarla izah olunur. Mətn şifahi işarələrin ardıcıllığı hesab olunur. Onun təşkili mətnin tələblərinə cavab verməlidir. Mətnin yazılı təfsiri onun simvolik mahiyyətini əks etdirir. Bununla belə, mətn təkcə işarələr ardıcıllığı deyil, həm də adlandırılmış və adlandırılmış tam bir işarədir.

***Açar sözlər:*** *dini, metafora, bədii, diskurs, ünsiyyət*

**Dilber Orujova**
Nakhchivan State University
dilber_orucova@mail.ru

## Religious metaphors in artistic discourse

**Abstract**

Artistic text is the basis of artistic discourse. The process of creation of artistic discourse has a certain different aspect compared to other types of discourse. Its creator is a writer or poet. In the artistic discourse, the communicative act has a specific feature. Communication is unidirectional. The process goes in the form of addressee → literary text → addressee. The second party's participation in the loss in action is not observed. From this point of view, the issue involves learning the features of metaphor development in the literary text.In linguistics, the text is explained in different ways. Text is considered a sequence of verbal signs. Its organization should meet the requirements of textuality. The written interpretation of the text reflects its symbolic nature. However, a text is not only a sequence of signs, but also a complete sign, the named and named.

***Keywords:*** *religious, metaphor, artistic ,discourse, communication*

## Giriş

Bədii mətn yazısının, yaxud müəllifin yaratdığı mətndir. Müəllif bədii əsərdə gerçəklik hadisələrindən bəhs edir və ya özü nəyisə uydurur və onu gerçəklik hadisəsi kimi təqdim etməyə çalışır. Bədii mətndəki ruhi və hissi qavrama məhsulu müəllifin təsəvvür və düşüncəsinə əsaslanır, assosiativ olaraq dini, eləcə də mifoloji diskursa istiqamətlənir. Bədii diskurs qavrama, dərketmə prosesində formalaşan estetik dəyərli kommunikativ istiqamətlənmiş verbal əsərdir. Bədii mətn oxucu üçün yazılır və onun qavrama qabiliyyətinə köklənir. Bədii mətnin adresatı oxucudur. Belə mətnlər müxtəlif mövzularda qələmə alına bilər. Dini mövzularda yazılmış bədii əsərləri bədii dini diskurslar hesab etmək mümkündür.

Bədi mətndə dini metaforların işlənməsi də adresatın bu mətni obrazlı dərk etməsinin spesifik açarını təşkil edir. Mətnlərin müxtəlif tiplərə bölünməsi, bu tiplərdən hər birinin özünün spesifik xüsusiyyətlərin mövcudluğu ayrı-ayrı mətn qrupları, o cümlədən də bədii mətn üçün müəyyən struktur-semantik normalar sistemi əmələ gətirir. Qəbul edilmiş normalar mətnin düzgünlüyünü pozmağa mane olur, onu müəyyən çərçivəyə salır. Bununla belə, bədii mətn üçün norma

hüdudlarını aşma səciyyəvidir və bu, söyləmlərin təşkilinin xarakterinə təsir göstərir. Dini mətnlərlə dini mövzulu bədii mətn fərqli anlayışlardır. Mətndə metaforanın işlənməsi bilavasitə bədii mətnin, ümumiyyətlə mətnin janr fərqlərindən asılı deyildir. Təbii ki, dini metaforalar daha çox dini mövzulu mətnlərdə aşkara çıxır.

Müasir elmdə konseptual və ya koqnitiv metafor məsələsi qoyulur. Konseptual metaforlar müəyyən konsept əsasında qruplaşır. İnsan dərketmə prosesində real predmet və hadisələrin özləri ilə deyil, onları adlandıran, təmsil edən dil işarələri ilə düşünür və mühakimə yürüdür. Mətn daxilində işlənən dini leksika və dini terminlər oxucudan dinlə bağlı müəyyən fon bilikləri tələb edir.

Bədii mətndə estetik spesifiklik mövcuddur və bu cəhət bədii mətnin əsas fərqləndirici əlamətidir. Təbii ki, başqa tipli mətnlərdə – publisistik, elmi və s. mətnlərdə də estetik dəyər vardır. Bədii mətnin dili digər tipli mətnlərin dilindən obrazlılığı, ifadəliliyi, emosionallığı və ekspressivliyi ilə seçilir.

Janr ümumi məzmun və forma əlamətlərinə görə birləşmiş əsərlər qrupudur. Roman, hekayə, povest, poema, komediya, şeir və s. fərqli janrlara aiddir. Ədəbiyyatşünaslıqda ədəbi növ anlayışından da istifadə olunur. Ədəbi növ janrdan geniş anlayışdır. Məsələn, roman bədii ədəbiyyat növü, romanın müxtəlif növləri (detektiv, tarixi, psixoloji roman, roman-pritça, roman-antiutopiya və s.) janrlar sayılır.

Nəzm və nəsr əsərlərinin kompozisiyaları arasındakı fərqlər əsərin hissələrə bölünməsinin daxili əsasları zəminindədir. Nəzmə daxili təşkilolma xasdır. Tematik kompozisiya problemi ilə bağlı tema, motiv, süjet kimi bir-biri ilə qarşılıqlı əlaqəli anlayışların nəzərdən keçirilməsi məqsədə uyğundur. Lirik əsərin linqvistik təhlili zamanı kompozisiya, eləcə də bəzi vasitələrin mətnyaratma rolu, mövzunun inkişaf xüsusiyyətləri nəzərə alınır. Poetik mətnlərdə məcazlardan, o cümlədən metaforlardan geniş istifadə edilir. Tema və motiv belə semantik vahidlərdir. Bədi əsər yalnız informasiya daşımır, o, söz materialının xüsusi təşkilinə görə oxucuya estetik təsir göstərir.

Mətni üslubi xüsusiyyətlərinə görə tiplərə ayırma zamanı müvafiq üslubda istifadə olunan mətn növlərinin adlarından istifadə olunur. Məsələn reportaj, müsahibə, xəbər mətnləri publisistik üsluba aid mətnlərdir. Mətnə kommunikativ aktın vahidi kimi yanaşıldıqda isə onun tiplərinin təyin edilməsi üçün danışan və dinləyənə görə mətnin funksiyası, forması əsas götürülür. Təsnifat zamanı seçilən meyarlar sırasında mətnin informativliyi, funksionallığı, struktur-semiotik və kommunikativlik xüsusiyyətləri ön plana çəkilir. Ümumiyyətlə, mətnlərin təsnifi məsələsinə ən azı dörd istiqamətdən yanaşmaq mümkündür. Birinci istiqamət mətnlərin funksional tipologiyasıdır. Bu zaman mətnin sosial funksiyası və işlənmə sahələri meyar kimi çıxış edir. İkinci istiqamət mətnin quruluşuna görə təsnifidir. Bu zaman mətni təşkil edən daxili elementlər meyarın əsasında durur. Üçüncü istiqamət üslubi təsniflə bağlıdır və burada da işlənmə sferası, mətnin hansı sahəyə aidliyi vacib element kimi götürülür. Nəhayət, dördüncü istiqamət mətnin kommunikativ xüsusiyyətlər üzrə təsnifini əhatə edir. Mətnin əsas təsnifat bölgülərində onun mövzu və məzmuna görə, mətnin ekstra və intra mətn fərqləndirici əlamətlərinə görə (yazılı-şifahi, spontan, qeyri-spontan, monoloji və dialoji, monoadresatlı və poliadresatlı və s.), mətndaxili əlamətlərə görə (mətn strukturunun qurulma qanunauyğunluğu), ekstramətn amillərinə (real kommunikasiya amilləri) bölgüsündən danışılır.

Lirikada hadisələrin özünün təsvirindən çox onların müəllifə təsirinin oyatdığı duyğu və hisslərdən bəhs olunur. Burada müəllifin daxili aləmi, yaşantıları, təəssüratı, ürək çırpıntıları qələmə alınır. Lirikanın əsasında müəllifin yaşadığı hiss və duyğular durur. Dramaturgiyada predmet fəaliyyətdə təsvir olunur. Oxucu və ya tamaşaçı baş verən hadisələri seyr edir. Müəllifin nitqi remarkalarda, personajların replikalarında adda-budda səslənir. Beləliklə, epik növ hadisələr, qəhrəmanların taleyi, onların hərəkətləri və işləri nəql olunur, baş verənlərin zahiri tərəfləri təsvir edilir. Burada personajların hiss və duyğuları da onların təzahür tərəfindən nəql edilir. Müəllif baş verən hadisələrə birbaşa münasibət bildirmək imkanına malikdir. Dramda hadisə, qəhrəmanlar arasındakı münasibət səhnədə təsvir olunur. Müəllif münasibətinin birbaşa ifadəsi remarkalar şəklində reallaşdırılır.

Metaforik quruluşlar mahiyyətlərinə görə implikativ olub obyektlərin emosional-ekspressiv qavranmasının, eləcə də dil vahidlərinə yaradıcı yanaşmanın məhsuludur. Yaradıcı yanaşma hadisələrin bədiiləşdirilməsi prosesi üçün səciyyəvidir. Gerçəkliyin metaforik dərkinə olan tələb insan təbiəti ilə də sıx bağlıdır. Yaradıcılıq prosesində insan öz tarixi təcrübəsinə əsaslanmaqla yeni anlayışları, obyekt və predmetləri təhlil edir, onların bu və ya digər dərəcədə oxşar predmet və hadisələrlə müqayisəsinə çalışır, başqa şəkildə adlandırır. Bədii yaradıcılıq yeni obrazlar təqdim etməyə meyillidir. Metafora insan biliklərinin, müşahidələrinin artmasına və nizama salınmasına kömək edir, gerçəklik obyektlərinin perseptiv təsəvvürü, həmçinin bu obyektlər arasındakı əlaqələrin yeni baxış bucağından tədqiqatını reallaşdırır.

Bədii mətndə metafora ekspressiya yaratmağın başlıca vasitəsidir. Psixolinqvistik kateqoriya kimi metafora implisit mətn mənalarının aşkara çıxmasına yardımçı olur, bədii mətnin ayrılmaz tərkib hissəsinə çevrilir.

Bədii yaradıcılığın əsasında gerçəkliyin dərk edilmə və qiymətləndirilmə səviyyəsində tədqiqatı durur. Yazıçı gerçəkliyi özünəməxsus, spesifik şəkildə dərk edir, onu qiymətləndirir və oxucuya təqdim edir. Müəllif real hadisələri gördüyü və qavradığı şəkildə özünün münasibəti, həmçinin niyyəti süzgəcindən keçirir, estetik məzmunla zənginləşdirir, obrazlı dillə, bədii ifadə vasitələri ilə qismən, yaxud tam dəyişdirilmiş şəkildə ya öz, ya da personajlarının dilindən nəql edir.

Mətnin adlandıranı maddi, onun adlandırılanı idealdır (Cherneyko, 2017: 128). Adlandırılan dərk və təsəvvür olunur. Mətnin dərk olunması birmənalı deyildir, subyektiv səciyyə daşıyır, oxucudan asılıdır.

Mətnin kommunikativ səciyyəsi özünü müxtəlif formalarda göstərir. Kommunikasiya həmişə adresantla adresat arasında gedir. Fərqlilik adresant və adresatın dəyişməsi ilə bağlıdır. Mətn özü adresant, oxucu adresat ola bildiyi kimi, ünsiyyət auditoriya ilə mədəni ənənələr arasında reallaşma imkanına malik olur. Mətn, xüsusən bədii mətn oxucunun özünün özü ilə ünsiyyətinə çevrilir. Bu cəhətlər həm mətndən, onun məzmunundan, təsirindən, həm də oxucudan asılılığa malikdir. Bu və ya digər mətn, xüsusən də bədii mətn adlandırana görə qapalı, adlandırılana görə sonsuzdur. Adlandırılan oxucunun təcrübə və bilikləri ilə təyin olunur (Cherneyko, 2012: 7-8).

Metafora müxtəlif janrlı bədii mətnlərdə işlədilir. Metaforanın janr yaratma funksiyasından V.K.Xarçenko bəhs etmişdir (Xarçenko, 1991: 21-24). Metaforanın müxtəlif janrlı bədii əsərlərdə istifadə olunması onun janr yaratma vasitəsi kimi qəbul edilməsinə, fikrimizcə, əsas vermir. Çünki bədii janr bu janrda yazılmış əsərdə metaforun işlədilib-işlədilməməsindən asılı olamayaraq mövcuddur. Janrın təyini zamanı metafor fərqləndirici əlamət rolunu oynamır. Ümumiyyətlə, metaforanın, o cümlədən dini metaforların funksiyalarını müəyyənləşdirmək metaforlaşmanın ümumi prinsipinə əsaslanmağı tələb edir.

M.Bleyk metaforlaşmanın ümumi prinsipini özünün interaksional nəzəriyyəsində şərh etmişdir. Onun fikrinə görə, metaforlaşma prosesində dörd element iştirak edir. Birinci element metaforun fokusudur. Metaforun fokusu təkrar adlandırma ilə düzəldilmiş nominativ vahiddir. Təkrar nominasiya vahidinin mənasında dəyişmə baş verir. Yəni o, ilkin mənasından fərqlənir.

Metaforlaşma zamanı müşahidə edilən ikinci element metafora çərçivəsidir. Metafora çərçivəsi təkrar nominasiya vahidinin ilkin mənasında dəyişmə yaradan kontekstdir. Kontekst yeni mənanı eksplisiləşdirir.

Metaforlaşma mexanizminin üçüncü elementi əsas subyektdir. Əsas subyekt müəyyən xassələri, keyfiyyətləri öz üzərinə götürən adlandırılandır. Metafor çərçivəsində adlandırılan adətən olmur. Metaforlaşma mexanizminin dördüncü elementi ikinci dərəcəli subyekt adlandırılır. Bu subyekt adlandırılan haqqında assosiativ məlumat yaradandır (Blek, 1990). Metaforlaşma mexanizminə bu şəkildə yanaşdıqda metaforun əsas xüsusiyyəti onun ikiplanlılığı kimi aşkara çıxır. Yəni metafor iki subyektə eyni zamanda aid ola bilir. Haqqında söhbət gedənin xassəsi onun adlandırılacağının xassəsi prizmasından aydınlaşır.

Dini anlayışlar mənəviyyat sahəsinə aid olduğuna və sakral səciyyə daşıdığına görə, onların adlandırılması, eləcə də mənalandırılmasında, verballaşdırılmasında çətinliklər ortaya çıxır. Məlumdur ki, mənəvi təcrübənin mürəkkəb konseptual sahə kimi verballaşdırılmasının müxtəlif, o

cümlədən də linqvistik məhdudiyyətləri vardır. Bu baxımdan, din konseptinin sözlərlə təsvirində, izahında nominativ vahidlərin çatışmazlığı ilə qarşılaşmaq olur (Stepanov, 2001: 454). Bununla belə, dini diskurslara və bədii mətndə dini anlayışların şərhinə istinadla demək olar ki, dini anlayışların verilməsi üçün istifadə olunan sözlərin semantik imkanlarının məhdudluğunu adların və predikatların köməyi ilə aradan qaldırmaq mümkündür (Karasik, 2004: 126). Onu da qeyd etmək lazımdır ki, tarixi təcrübə diskursda forma və məzmun arasındakı asimmetrikliyi tarazlaşdırmağa zəmin yaradır. Belə tarazlaşdırma xüsusi linqvokoqnitiv əməliyyatlar hesabına mümkünləşir. Konseptual metaforun aktuallaşması nəticəsində yaranan təkrar, predikatlar sahəsi qeyri-predmet mahiyyəti amlayışları müşahidə olunan və beləliklə, dərk olunan xassələr şamil etmək mümkünləşir.

Metaforik predikatların az olmayan bir qismi mücərrəd dini anlayışları fiziki predmet və hadisələrlə oxşarlıqlar əsasında səciyyələndirə bilir. Bu, metaforlaşmanın əsasında iki bilik strukturunun qarşılıqlı təsir prosesinin durmasına istinad edən konseptual metafora nəzəriyyəsi ilə izahını tapır. Qeyd edilən iki bilik strukturundan birincisi mənbə sahəsi, digəri isə hədəf sahəsi adlandırılır (Lakoff, 2004: 78). İnsanın ətraf mühitlə qarşılıqlı təsir prosesində olması nəticəsində formalaşmış metaforik inikas əsasında mənbə sahəsinin elementləri ona, yəni insana az aydın olan hədəf sahəsinə proyeksiyalanır. Ünsiyyət iştirakçısının dünya haqqında biliyinin əsas mənbəyi onun ilkin fiziki təcrübəsi olduğundan dərk edilən gerçəkliyin kateqoriallaşdırılması bu təcrübə ilə şərtlənən sadə obrazlar vasitəsi ilə həyata keçirilir.

Dini metaforlar konseptual köçürmələr əsasında yaradılır. T.Y.Litvinenko dini diskursda metafor adlı tədqiqatında bu məsələni öyrənmişdir. O, metaforlaşmanın işıq mənbə sahəsi ilə bir sıra konseptləri metafora yaratdığını göstərmiş, müxtəlif metaforik modelləri müəyyənləşdirmişdir. Din-işıqdır, Allah işıqdır, həyat yoldur, din görməkdir, din canlı varlıqdır, Allah kömək edəndir, Allah ruzi verəndir kimi modellər sahəsinə aid vahidin konseptual köçürülməsi üzrə dini metaforların yaradılmasında geniş tətbiq olunması bu tədqiqat işində nümunələr əsasında şərhini tapmışdır (Litvinenko, 2015). Qeyd etmək lazımdır ki, bədii diskursda bu modellər əsasında formalaşan metaforlar daha çox işlədilir. Eyni zamanda fərqli metaforik modellər də bədii diskurslarda aşkara çıxır. Ümumiyyətlə, belə konseptual metafor modelləri çoxdur və onların mümkün formalarını qabaqcadan təyin etmək çətindir.

*"He'll take it," the old man said aloud. "***God help him** *to take it."*

*He did not take it though. He was gone and the old man felt nothing.*

*"He can't have gone," he said. "Christ knows he can't have gone. He's making a turn. - Ağzı nədir yeməsin, – qoca qışqırdı, – Allah özü onun ruzisini yetirib... Amma deyəsən balıq tilova gəlmədi, yan keçdi. Tilov ipi daha tərpənmirdi. Qoca heç nə başa düşmədi. – Gedə bilməz, Həzrət İsa özü onu getməyə qoymaz* (Aşıq Ələsgər, 2014)**.**

God help him – Allah ona kömək edir.

Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)! O, hər şeyi biləndir (10).

Cahan vəhşi zülmü ilə qovrulub yanır. İnsan -vəhşi əvəzlənməsi metaforadır. Onun dini metafora olması, insanın Allahın onları yaratdığı məqsədi yerinə yetirməyib vəhşət zülmü yaratması ilə təsdiqini tapır. İnsan Allahından üz çevirdikdə şeytana qulluq edir, onun yanında olur, onunla təkbətək qalır (Shmid, 2003). Nümunədə qoca balıqçı üzünü Allaha tutmuş, Allahdan kömək diləyir. Ona görə də balığın tilovdakı yemdən əl çəkəcəyinə inanmır. Balığın yemi udması Allahın köməyi ilə ifadəsini tapır. Konseptual metafora təsviri metafora şəklində yaradılmışdır. Nə insan, nə də heyvan Allahın əmrindən çıxa bilməz (*Christ knows he can't have gone. He's making a turn).* Bibliyada ifadəsini tapan metaforik obrazlar çoxdur. Bu metaforalar sonradan ingilis ədəbiyyatında bu və ya başqa şəkildə yer almışdır. Ümumiyyətlə, ingilisbədii ədəbiyyatında, xüsusən poeziyada dini-mifoloji varlıqların metaforlaşması geniş yayılmış hadisədir. Bundan əlavə, cənnət və cəhənnəm dini məkani metafor kimi işləkliyi ilə seçilir (Kul'gavova, 2014).

## Nəticə

Bədii diskursda dini metaforların işlədilməsi zamanı emosional-ekspressiv təsir güclənir. Dini sakrallıq metaforun effektivliyini artırır. Metaforlar bədii ədəbiyyatın üslubi xüsusiyyətlərindən biridir. Onun mətnyaratma funksiyası izah və şərhi, əlavə cümlələrlə açıqlanması ilə bağlılığa malikdir.

## Ədəbiyyat

1. Cherneyko, L.O. (2017). Kak rozhdayetsya smysl. Smyslovaya struktura khudozhestvennogo teksta i lingvisticheskiye printsipy yeye modeli. Moskva: Gnozis, 208 s.
2. Cherneyko, L.O. (2012). Asimmetrichnyy yazykovoy znak v rechi: k voprosu ovzaimodeystvii smyslov v raznykh usloviyakh ikh realizatsii. Vestnik MGU. Ser. 9. Filologiya. M., № 2, s.7-40.
3. Xarçenko, B.K. (1991). Funktsii metafory. Voronezh: Izd-vo VGU, 88 s., s.21-24.
4. Blek, M. (1990). Metafora. Teoriya metafory. Moskva, s.153-172.
5. Stefanowitsch, A. Corpusbased approaches to metaphor and metonymy. Corpus-based approaches to metaphor and metonymy.
6. Karasik, V.I. (1999). Religioznyy diskurs. YAzykovaya lichnost': problemy lingvokul'turologii i funktsional'noy semantiki. Volgograd: Peremena, s.5-19.
7. Lakoff, Dzh. (2011). Zhenshchina, ogon' i opasnyye veshchi. Chto kategorii yazyka govoryat nam o myshlenii. Moskva: Gnozis, 512 s.
8. Litvinenko, T.Ye. (2015). Metafora v religioznom diskurse. Vestnik MGLU. Vyp. 5(716). Moskva: MGLU, s.79-89.
9. Aşıq Ələsgər. (2014). Ələsgər "Can" deməklə candan can əskik olmaz .... Bakı: Kitab Klubu, 320 s.
10. Heminquey, E. Qoca və dəniz//www.vivo-book.com1_ERNEST HEMİNQUEY QOCA_VƏ_ DENİZ
11. Shmid, V. (2003). Narratologiya. M.: YAzyki slavyanskoy kul'tury, 312 s.
12. Kul'gavova, L.V. (2014). Znacheniye slova v individual'noy kartine mira. Kognitivnyy analiz slova. M.: LENAND, s.153-195.

Göndərilib: 29.01.2024 Qəbul edilib: 18.04.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/59-63

**Səadət Əliyeva**
Naxçıvan Dövlət Universiteti
eliyevaseadet@gmail.com

# İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR STRATEGİYA KİMİ

**Xülasə**

İctimaiyyətlə əlaqələr işi həm dövlət idarəetmə orqanlarının, həm də özəl qurumların ictimaiyyətlə mükəmməl əlaqə qurmaq vasitəsi ilə sağlam inkişafı və məqsədlərinə çatması və dolayısı ilə də dövlətin iqtisadi inkişafı üçün mühüm şərtlərindən biridir.

Hökumət strukturlarının mətbuat xidmətlərinin ən əsas vəzifələrindən biri ictimai rəyi məlumatlandırmaqda ən təsirli vasitə olan mətbuatla təmsil etdiyi qurum arasında yaxşı münasibət yaratmaqdır. Ən təsirli vasitə olan mətbuatı yaxşı istifadə edə bilmək üçün onu yaxşı tanımaq və öyrənmək lazımdır. Mətbuatla əlaqələr üzrə mütəxəssis, təmsil etdiyi qurumla bağlı məlumatların KİV-ə sürətli, doğru və dəqiq şəkildə verilməsini təmin etməli və media ilə işlədiyi müəssisə arasında olan əlaqələri qarşılıqlı etimad və anlayış çərçivəsində qurmalı və inkişaf etdirməlidir. Yalnış məlumat verən mətbuat xidməti əməkdaşı zaman keçdikcə medianın ona qarşı olan inamını itirir və sonra onun verdiyi düzgün məlumata da etimad göstərilmir.

İctimaiyyətlə əlaqələr zamanı diqqət etməli vacib məqamlar dürüst olmaq, əlaqə qurulacaq şəxsi doğru seçmək, mətbuata öz işini görmək üçün mövcud imkanları yaratmaq, reallaşması imkansız olan tələbləri irəli sürməmək, maraq kəsb edən xəbərləri vermək və məlumatı mətbuatdan gizlətməmək. İctimaiyyətlə əlaqələr işinin ölkəmizdə inkişafı birinci növbədə ölkəmizdə demokratiyanın inkişafından, o cümlədən insan hüquqlarına və insanların düşüncələrinə verilən əhəmiyyətin artmasından asılıdır.

**Saadat Aliyeva**
Nakhchivan State University
eliyevaseadet@gmail.com

## Public relations as a strategy

**Abstract**

Public relations are one of the most important requirements for governmental authorities and private institutions to achieve their healthy development and long-term goals through excellent communication with the public.

One of the most important tasks of government structures is to create a bridge of good intentions between the press and the institution it represents as the most effective means of clarifying public opinion. To be able to make good use of the press, which is the most effective tool, you need to get to know and learn it well.

A press relations expert should ensure that information about the organization is provided quickly, accurately, and abundantly to the press and that the relationship between the press and the organization is established and developed within the framework of mutual beliefs and understanding. A press service colleague who gave false information lost faith in the press and then ignored the correct information he provided. These are some of the most important aspects of communication. To be honest, to choose the person to be contacted, to create existing opportunities for the press to do their job, not to make demands that are impossible to realize, to give news of interest, and not to hide information from the press. The development of public relations in our country depends primarily on the development of democracy in our country, including the growing importance of human rights and people's thinking.

## Giriş

Ayvi Ledbetter Li ictimaiyyətlə əlaqələr işinin qurucusu sayılır. Çoxillik karyerası dövründə bir çox iri şirkətləri təmsil edən Li ikitərəfli kommunikasiyanı konseptuallaşdırmasına görə xüsusi dəyərləndirsə də, bəziləri onun ictimaiyyət tərəfindən bəyənilməyən işlə -şirkətlərin adından daha çox təbliğat işi ilə məşğul olduğunu iddia edirdilər.

İctimaiyyətlə əlaqələr sənayeləşmə nəticəsində meydana çıxan bir prosesdir və fəaliyyət sahəsidir. Onun tarixinin əslində Qədim Misir, Roma, Yunanıstan və hətta Qədim Hindistanda başlandığını iddia edənlər olsa da, ancaq ictimaiyyətlə əlaqələr işi əsl inkişafını müasir dövrümüzdə yaşamışdır. Buna baxmayaraq ictimaiyyətlə əlaqələr işi əslində müasir dövrümüzdə aid bir yenilikdir. Bunun səbəbi isə dövlət və özəl qurumların hədəf kütlə ilə yaxşı əlaqələr qurmaq və onlara yaxınlaşmaq arzusudur (Cəfərov, 2003).

Müasir dövrdə idarə edənlər və idarə olunanlar arasında olan uçurumlar artıq yox olmaq üzrədir. İdarə edənlər artıq xalqla birgə olmağa üstünlük verir. İdarə olunanlar da öz növbəsində qanunların onlara verdiyi hüquq və azadlıqlardan istifadə etmək istəyirlər.

İctimaiyyətlə əlaqələr ikihissəli, bundan da artıq, üçhissəli-uzunmüddətli kampaniyaya hesablanan üç fəaliyyət istiqamətli olurlar. Bunlara təşviqat, müəssisənin imicinin idarə olunması və böhranlı vəziyyətlərdə idarəçilik daxildir.

İctimaiyyətlə əlaqələr KİV-in məhsuldar xəbər istehsalçısıdır. İctimaiyyətlə əlaqələr sənayesi genişdir və inkişaf etməkdədir. Fəaliyyətinin genişliyinə baxmayaraq, ictimaiyyətlə əlaqələrin funksiyaları, əsasən, pərdəarxasında yerinə yetirilir. Səmərəli təşkil olunmuş PR işi ictimai birliyi, həmrəyliyi gücləndirir. Reklam və xəbərlə qarışıq salınsa da, PR əhəmiyyətli dərəcədə fərqlidir (Con Vivian, 2021).

Böyük qruplarla, təşkilatlarla kommunikasiya, əsasən, KİV-dən asılıdır. İctimaiyyətlə əlaqələr departamentinin əməkdaşları müxbirlərin sorğularına cavablar verir, konfranslar təşkil edir, press-relizlər hazırlayır və tez-tez müəssisənin sözçüsü kimi xidmət göstərirlər.

İctimaiyyətlə əlaqələr termini bir qədər stiqmatik olaraq qəbul edilir, ancaq alternativ adların hər biri bu işi dəqiqliklə ifadə etmək üçün qeyri-adekvat hesab olunur. Strateji kommunikasiya və inteqrasiya olunmuş marketinq kimi ifadələr ictimaiyyətlə əlaqələrin reklamla qarışıq salınmasına gətirib çıxarır və yaxşı PR-in dialoq xarakterini nəzərdən qaçırır (Əlaəddin, 1997).

**İctimaiyyətlə əlaqələrin mövcud rolu.**

"İctimaiyyətlə əlaqələr" ingilis dilindən "public relations" termininin tərcüməsidir. PR-ın (bundan sonra "ictimaiyyətlə əlaqələr" yerinə onun ingilis dilindəki abbreviaturası olan PR-dan istifadə olunacaq) nə olduğu barədə ilkin rəyi 1948-ci ilin fevralında İngiltərədə yaranan İctimaiyyətlə əlaqələr institutunun (IPR) qəbul etdiyi tərifdən yaratmaq olar:

"PR — təşkilatla ictimaiyyət arasında qarşılıqlı anlaşma, mehriban (xoş) münasibətlərin qurulması və saxlanılmasına yönəlmiş planlaşdırılan davamlı səylərdir". Bu tərifdən sonra məlum olur ki, PR-ın əsas məqsədi təşkilatla ictimaiyyət arasında "qarşılıqlı anlaşma və xoş münasibətlərin" yaradılması və saxlanılmasıdır. Başqa bir tərifə nəzər salsaq, bir qədər də irəli getmiş olarıq. Tanınmış ingilis PR-meni Sem Blekə görə "PR — həqiqət və tam məlumatlandırmaya əsaslanan qarşılıqlı anlaşma vasitəsilə ahəngliyə nail olma elmi və sənətidir". Yəni, PR təkcə bu iki subyekt arasında olan münasibətləri deyil, ümumiyyətlə, ünsiyyəti mümkün olan subyektlərin münasibətlərini əhatə edir. Bura iki və ya daha çox şəxs, formal və qeyri-formal qruplar, təşkilatlar arasında, eləcə də bu qrup və təşkilatların daxilində mövcud münasibətlər daxil edilir (Aydəmir, 1998).

1978-ci ilin 11 avqust tarixində 30-dan çox milli və regional assosiasiya nümayəndələrinin Birinci Ümumdünya Assambleyasında qəbul etdikləri tərifdə isə PR-ın elmi araşdırmalarla sıx bağlı olduğunu görmək olar: "PR praktikası — tendensiyaların təhlili, onların mümkün nəticələrinin qabaqcadan hesablanması, təşkilat rəhbərliyinə məsləhətlərin verilməsi və təşkilat, həmçinin ictimaiyyətin maraqlarına xidmət edən, əvvəlcədən planlaşdırılmış fəaliyyət proqramının həyata keçirilməsinə imkan yaradan incəsənət və sosial elmdir". Rusiyalı müəllif A.B.Zverintsevin "Kommunikativ menecment" kitabında biz ilk dəfə PR-ın başqa adı — kommunikativ menecment

termini ilə rastlaşırıq: "PR — təşkilat daxilində, eləcə də təşkilatla onun ətraf mühiti arasında səmərəli ünsiyyətin qurulmasına yönələn professional fəaliyyətdir". Moskva Dövlət Universitetinin 1995-ci ildə nəşr etdiyi Yeni Əcnəbi Sözlər Lüğətində PR-la ictimai rəyin qarşılıqlı əlaqələrinə rast gəlirik:

"PR — müəssisənin (idarənin, firmanın) daha uğurlu fəaliyyət göstərməsi və nüfuzunun yüksəlməsi naminə ictimai rəyin təşkil olunmasıdır. Müxtəlif yollarla, əsasən isə, KİV vasitəsilə həyata keçirilir. PR — bütöv cəmiyyət maraqları naminə dövlət (idarəedici), ictimai strukturlar və vətəndaşlar arasında qarşılıqlı münasibətlər sənətidir".

"PR — təşkilatla onun uğuru və ya uğursuzluğu asılı olan kütlə arasında qarşılıqlı faydalı münasibətləri quran və qoruyan menecment funksiyasıdır". "PR Menecmentin hissəsi kimi planlaşdırılmış daimi iş həyata keçirir (Bally, 1958).

- Təşkilatın ictimaiyyətlə əlaqələri ilə məşğul olur.
- Təşkilatın daxilində və xaricində şüur, fikir, münasibətlər və davranışın monitorinqini həyata keçirir.
- Cəmiyyətə siyasətin, prosedur və hərəkətlərin təsirini təhlil edir.
- Təşkilatın yaşayış tərzi ictimaiyyətin maraqları ilə ziddiyyət təşkil etdikdə siyasət elementlərini, prosedur və hərəkətləri yeniləşdirir.
- Təşkilat və ictimaiyyətlə qarşılıqlı asılılığı olan yeni siyasi fənlər, prosedur və hərəkətlərin tətbiqinə dair məsləhətlər verir.
- Təşkilatla ictimaiyyət arasında ikitərəfli münasibətlər qurur və qoruyur.
- Təşkilat daxili və xaricində fikirlərdə, münasibətlərdə və davranışda xüsusi dəyişikliklər həyata keçirir.
- Təşkilatla ictimaiyyət arasında yeni və ya mövcud münasibətlərə təsir edir".

İctimaiyyətlə əlaqələr elə bir peşədir ki, burada təşkilatla ictimaiyyət arasında qarşılıqlı faydalı əlaqələrin inkişafı təsvir edilir. PR agentlikləri təşkilatlara, investorlara, müştərilərə, analitiklərə və digər önəmli tərəfdaşlara özlərinin cəmiyyətin gözündə görmək istədikləri imiclərini ictimaiyyətə təqdim etməkdə də köməklik göstərir. PR firmaları ödənişli reklam və marketinqdən fərqli olaraq, ictimai maraq və xəbər yükü daşıyan kampaniyalar hazırlayıb aparır.

PR agentliklər işlərini səhnəarxasında gördüyü üçün əksər vaxtlarda onların fəaliyyəti görünməz olur (Metin, 1997).

Təbiət etibarilə müxtəlifliyi baxımından PR üzrə mütəxəssislərin nə etdiyini hərtərəfli təsvir etmək çətindir. Lakin ictimaiyyətlə əlaqələr üzrə mütəxəssislər, əsasən, təşkilatla əsas maraqlı tərəflər arasında əlaqələrin qurulmasına çalışır ki, bu da nəticə etibarilə sosial rifaha fikir birliyi (yekdillik) vasitəsilə kömək edir. Bu kommunikasiya isə daha çox KİV vasitəsilə həyata keçirilir.

İctimaiyyətlə əlaqələr insanları dialoq vasitəsilə müəyyyən qənaət və baxışlara və ya əlverişli imicə inandırmağa çalışır. Onlar nəyisə deməkdən çox, ikitərəfli kommunikasiyadan istifadə edirlər. Alimlər bu əlaqəni daha çox dialoq nəzəriyyəsi adlandırırlar. Həmin nəzəriyyə tərəfdarları düşünürlər ki, əsl dialoq həqiqi fikir birliyinə gətirib çıxara bilər.

Maykl Kent və Morin Teylor dialoq nəzəriyyəsinin fəaliyyətində beş əsas xüsusiyyəti ümumiləşdirib.

Qarşılıqlılıq-təşkilat və onun ictimaiyyəti bir-birinə sıx bağlıdır, çünki əsas maraqlı tərəflər olmadan hər hansı təşkilat və quruluş mövcud ola bilməz. Bu baxımdan əməkdaşlıq hər kəsə bərabər şərait yaradılmaqla qarşılıqlı surətdə reallaşdırılmalıdır.

Yaxınlıq-səmimi kommunikasiya üçün təşkilat və onun auditoriyası arasındakı ünsiyyətdə spontonluq olmalıdır (Black, 1972).

Empatiya-təşkilatlar hətta fikir müxtəlifliyi olduqda belə ictimaiyyətin fikirlərini və mövqeyini dəstəkləməli, onların baxışlarının mühümlüyünü təsdiqləməlidir.

Risk-o zaman mümkün olur ki, dialoq nəzəriyyəsi fərdlərlə və ictimaiyyətlə onların şərtlərinə görə qarşılıqlı əlaqəyə, həssas olmaq, gözlənilməz nəticələr qarşısında atılan addım, qarşılqlı istək olduqda baş verir.

Öhdəçilik. Bir təşkilat ictimaiyyətlə qarşılıqlı əlaqələri anlamağa çalışmalıdır. Bu təşkilat üçün asan bir proses olmamasına baxmayaraq, amma müəssisə bu prosesə hazır olmalıdır.

İctimaiyyətlə əlaqələr ictimai məsələlərlə bağlı informasiya və fikir mübadiləsini təşviq etməklə güclü və canlı demokratik cəmiyyət qurmaq imkanına malikdir. İctimaiyyətlə əlaqələri həyata keçirənlər işlərini ən yaxşı şəkildə qurarkən aşağıdakı məqamlara diqqəti çəkirlər.

-Konkret təşkilatın maraqlarının ictimaiyyətə ictimai dialoqu genişləndirən və zənginləşdirən üsulla çatdırılması;

-Cəmiyyətdəki qurumlar arasında ictimaiyyətin xeyrinə olan qarşılıqlı tənzimləyici vasitələrin axtarılması;

-Rəqabət maraqları arasında yerləşdirmə işlərini həyata keçirməklə, zorakılıq ehtimalı və planlaşdırılmamış hərəkətləri azaltmaq yolu ilə cəmiyyət üçün təhlükəsizlik mexanizminin yaradılması;

İctimaiyyətlə əlaqələrin funksiyaları yaratmaq, yetişdirmək və xilaskar obrazı formalaşdırmaqdan ibarətdir (Jefkins, 1995).

İctimaiyyətlə əlaqələrdə etik həssaslıq ictimaiyyətlə açıq, dürüst dialoq tərəfdarı olan nəzəriyyəçilər tərəfindən yaradılır. Etika ilə bağlı müzakirə və akkreditasiyalarda məqsəd ictimaiyyətlə əlaqələr işini inkişaf etdirməkdən ibarətdir.

İctimaiyyətlə əlaqələr mənşə etibarilə tanıtım vasitəsi olsa da, müvəkkillik vasitəsi kimi də inkişaf edib. Bura ictimai-siyasi müzakirələrdə hökumət liderləri ilə lobbiçilik və ictimai fikri hərəkətə gətirmək də daxildir.

**İctimaiyyətlə əlaqələr və reklamda -oxşar və fərqli məqamlar.**

İctimaiyyətlə əlaqələr istər çap, istər TV və radioyayım, istərsə də rəqəmsal çatdırılma kütləvi kommunkasiyanın bütün informasiya vasitələri sayəsində hər kəs üçün əlçatandır. İctimaiyyətlə əlaqələr və reklama tez-tez sinonim kimi baxırlar. İctimaiyyətlə əlaqələr və reklam təcrübədə qarışıq salınsa da, təməl fərqləri bilmədən onları anlaya bilmərik.

İctimaiyyətlə əlaqələrin məqsədi tədricən rəğbət qazanmaqdan ibarətdir. Reklamın əsas hədəfi isə qısa zamanda satış əldə etməkdir. Digər tərəfdən isə ictimaiyyətlə əlaqələr rəğbət hissi yaratmaqla uğur qazanır. Reklam işi hər hansı bir fərd və ya qurum tərəfindən fikir, mal yaxud da xidmətlərin qeyri-fərdi təqdimatı və tanıdılmasıdır. Reklam işinin məqsədi, müəyyən bir zaman çərçivəsində, müəyyən olunmuş hədəf kütlə ilə ünsiyyətin təmin olunmasıdır. Reklam hər hansı bir mal və ya xidmətin satışını artırmaq məqsədini güdür. Hədəf kütləsi sadəcə müştərilər və yaxud da gələcək potensial müştəriləri əhatə edir. Məhsul və xidmətlər haqqında məlumatlar yayır (Nuri, 1990).

İctimaiyyətlə əlaqələr isə qurum və ya şəxsin ictimaiyyət arasında prestijini yüksəltmək, ictimaiyyətin dəstək və inamını qazanmaq və bunu davam etdirmək məqsədi daşıyır. Birbaşa olaraq məhsul və xidmət satmaq məqsədi güdmür. Hədəf kütləsi qurumun bütün ictimai rəyini əhatə edir. Qurum haqqında xəbər xarakteri daşıyan məlumatları telekommunikasiya qurumları vasitəsilə ödənişsiz işıqlandırmaq üçün fəaliyyət göstərir. İctimaiyyətlə əlaqələr dialoq ənənəsində inandırıcı bir fəaliyyət sahəsidir. Reklam sahələri isə dialoqa söykənmir. Reklamın məqsədi isə dialoq yox, ticarətdir. Bu baxımdan reklam ismarıcları qarşı tərəfi razılığa gətirmək üçün kifayət edəcək məlumatı təqdim etməklə hansısa qərarı qəbul etməyə təhrik edir. Bunun əksinə olaraq, ictimaiyyətlə əlaqələr dolğun məlumat verməklə inandırmağa can atır.

Yaxşı idarə edilən təşkilatların bir çoxunda ictimaiyyətlə əlaqələr yuxarı idarəetmə funksiyasına malikdir. Təşkilatın siyasətini müəyyənləşdirən şəxslər geniş tərkibdəki qurucular və ya ictimaiyyəti əhatə edən ictimaiyyətlə əlaqələr şurası ilə əməkdaşlıq etmək istəyirlər. Onlar qarşılıqlı fayda əldə etmək məqsədilə PR ofisinin nümayəndələrindən fəaliyyət istiqamətlərini planlaşdırmaqda kömək etmələrini istəyirlər. Reklam isə bunun əksinə olaraq, təşkilati siyasətə töhfə vermir. İstər PR, istərsə də reklam şirkətləri ismarıclarını yaymaq üçün daha geniş auditoriyası olan KİV-dən istifadə edir. Ancaq hər biri bunu fərqli formada təqdim edir. Reklam alınan media zamanında və məkanında görünür. Reklamçılar yerləşdirdikləri ismarıcları nəzarətdə saxlayırlar. Bütün bu proseslərdən sonra onlar zamanı və məkanı ödəniş etməklə alırlar. Əksər PR

ismarıcları isə informasiya bolluğu içindən seçiləcəyi və kütləvi auditoriyaya çatdıralacağı ümidilə xəbər xidmətləri və bloqçular kimi KİV qurumlarına ötürülür (DƏRS 10, 2002).

## Nəticə

İctimaiyyətlə əlaqələr yeni yaranan bir sahə kimi peşəkar təkamül və yenidənqurmalar vasitəsilə yaranıb. Bir çoxları "PR" termininin şübhəli və önəmsiz bir söz kimi işləndiyinin şahidi olub. Bu sahənin limicini yenidən bərpa etmək üçün ictimaiyyətlə əlaqələr sektorunda "İctimai işlər", "ictimai məlumat" kimi saysız alternativ adlardan istifadə edilib. Tədricən korporasiya kommunikasiyası, müəssisə kommunikasiyası və siyasi kommunikasiya kimi daha uyğun adlardan istifadə olunub və unudulub. Nəhayət, bu gün də öz ənənəvi adıyla "ictimaiyyətlə əlaqələr" termini istifadə olunub. PR sahəsində hazırda istifadə olunan ifadə strateji kommunikasiyadır. Bu termin isə əksərən kampaniya və məlumatlardan istifadə edərək KİV vasitəsilə uzunmüddətli təşkilati məqsədlərə nail olmaq kimi izah edilir.

Strateji kommunikasiyanın dayanıqlı gücə malik olub-olmayacağı isə gələcəkdə görünəcək. Bunun bir çatışmazlığı odur ki, bu ənənəvi ictimaiyyətlə əlaqələr ikiyönlü dialoq hədəfinə malik deyil. "Strateji kommunikasiya" termini lazım olan təsviri əks etdirmir. Bu termindən ictimaiyyətlə əlaqələrdən fərqli olaraq, daha çox birtərəfli kommunikasiyadan ibarət reklamdan da istifadə olunur.

İctimaiyyətlə əlaqələr mövzusu müasir dövrümüzdə dünyanın ən əhəmiyyətli məsələləri sırasına daxil olmuşdur. İctimai əlaqələrin təşkili və idarə olunması bu günün demokratik inkişaf, plüralizm, sosial dövlət prinsipləri mövqeyindən çıxış etmiş, hər bir dövlətdə, eyni zamanda ölkə daxilində fəaliyyət göstərən dövlət qurumları və təşkilatların fəaliyyətində aktual bir problem olaraq qarşıya çıxır.

İctimaiyyətlə əlaqələr işi bir idarəetmə sahəsi kimi Azərbaycanda istiqlaliyyət əldə olunduqdan sonra tətbiq olunmağa başlanmışdır. İctimaiyyətlə əlaqələrdən də bir idarəetmə sahəsi olaraq Azərbaycanda ilk tətbiq edən qurumlar ölkəmizdə fəaliyyətə başlayan xarici şirkətlər, xüsusilə də beynəlxalq neft şirkətləri olmuşdur. Müstəqilliyini qazandıqdan sonra ölkəmiz demokratik və sərbəst bazar iqtisadiyyatı sisteminə daxil olduğu bir zamanda Azərbaycan, onun dövlət idarəetmə qurumları və ökəmizdə fəaliyyət göstərən yerli və xarici şirkətlər üçün ictimaiyyətlə əlaqələrin təşkili və idarə olunması çox mühüm vacib məsələyə çevrilmişdir. Respublikamızda demokratik prinsiplərin inkişafı, ictimaiyyətin fikirlərinə verilən əhəmiyyətin artması və şirkətlərin əhali arasında imiclərini yüksəkdə tutmaq üçün göstərdikləri fəaliyyət və sərf etdikləri maddi resurslar ictimaiyyətlə əlaqələr anlayışının və idarəetmə sahəsinin Azərbaycanda da önəmini artırmışdır və artırmağa davam edir.

## Ədəbiyyat


1. Cəfərov, C. (2003). Mətbuat xidməti əməkdaşının stolüstü kitabı. Beynəlxalq münasibətlər klubu. Bakı.
2. Con Vivian. (2021). Kütləvi kommunikasiya mediası Tear press.
3. Əlaəddin, A. (1997). İctimaiyyətlə əlaqələr. İstanbul: Mətbəsi istiqaməti. Dekabr.
4. Aydəmir, O. (1998). İctimaiyyətlə əlaqələr vasitəsi kimi sponsorluq. İstanbul: Epsilon nəşriyyatı.
5. Bally, B. (1958). Life study of consumer expenditures, Second edition, New York Time İnc.
6. Metin, İ. (1997). Halkla ilişkiler, İsparta: Der yayınları.
7. Black, S. (1972). The role of public relations in management, London: Pitman.
8. Jefkins, F. (1995). Public relations techniques, Second edition, Oxford: Butterwirth-Heinmann.
9. Nuri, T. (1990). Halkla ilişkiler. Ankara: Qazi universiteti mətbəəsi.
10. Dərs 10. (2002). "İctimaiyyətlə əlaqələr". "İstanbul Universiteti açıq və distant təhsil. fakültəsi". "İctimaiyyətlə əlaqələr və media". İstanbul.


Göndərilib: 12.02.2024 Qəbul edilib: 06.04.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/64-67

**Aynurə Hümmətli**
Cəlilabad rayon Göytəpə şəhər V.Mürsəlov
adına 1 nömrəli tam orta məktəb
hummetli.a1984@gmail.com

# TƏRBİYƏ VƏ PEDOQOJİ USTALIQ

**Xülasə**

Tərbiyə və pedaqoji ustalığa dair münasibətlər qədim zamanlardan indiyədək davam edir. Hələ vaxt ilə K. D. Uşinski " İnsan tərbiyənin predmetidir" əsərində yazmışdır ki,əgər sizə deyirlərsə ki, tərbiyənin məqsədi insanı xoşbəxt etməkdir. (K.D.Uşinski "Seçilmiş pedaqoji əsərləri" Bakı.1953)

Uzun illər ərzində məqsədlər harmonik inkişaf etmiş, özündə mənəvi zənginliyi, əxlaqi təmizliyi və fiziki kamilliyi əks etdirən insan idealı mövqeyindən nəzərdən keçirilmişdir. Şübhəsiz ki, bu mövqeyə tərbiyənin ideal məqsədi kimi baxmaq lazımdır. Lakin, belə məqsədin vahid bir variant kimi seçilməsi tərbiyəvi işin praktik nəticəsinin qarşıya qoyulmuş məqsəddən əhəmiyyətli dərəcədə fərqlənməsinə gətirib çıxarır.

Tərbiyəvi tədbirləri şagirdlərin yaş səviyyəsinə, qarşıya qoyulmuş məqsədin tələblərinə uyğun seçə bilmək, tərbiyə işləri zamanı şagirdlər arasında qarşılıqlı əlaqə və münasibətləri düzgün təşkil etmək, tərbiyə nəzəriyyəsini bilmək şagirdləri müxtəlif fəaliyyət növlərinə və ictimai işlərə qatmaq bu bacarıqlara yiyələnmək bütövlükdə pedaqoji ustalığın səviyyəsini qaldırır.

***Açar sözlər:*** *tərbiyə, pedaqoji ustalıq, predmet, əxlaqi təmizlik və mənəvi zənginlik*

**Aynura Hummatli**
Jalilabad district Goytepe city
Secondary school № 1 named after V. Mursalov
hummetli.a1984@gmail.com

## Education and pedagogical skills

**Abstract**

Relationships about education and pedagogical mastery continue from ancient times to the present. At the same time, K.D. Ushinsky wrote in his work "The subject of human education" that if you are told that the purpose of education is to make people happy.

For many years, the goals have been considered from the standpoint of a harmoniously developed human ideal that reflects spiritual richness, moral purity and physical perfection. Without a doubt, this position shpuld be seen as the ideal goal of education. However, choosing such a goal as a single option leads to a significant difference in the practical result of the educational work from the set goal.

To be able to choose educational measures in accordance with the age level of students and the requirements of the set goal, to properly orqanize interaction and relations between students during education work, to know the theory of education, to involve students in various types of activities and social work, mastering these skills raises the level of pedagogical mastery as a whole.

***Keywords:*** *education, pedagogical mastery, subject, moral purity and spiritual wealth*

## Giriş

Azərbaycan Respublikası müstəqil dövlət kimi inkiş edərək milli xüsusiyyətlərini saxlamaqla dünyaya inteqrasiya edir. Tərbiyə və pedaqoji ustalıq sahəsində həyata keçirilən islahatlar imkan verir deyək ki, inkişaf etmiş ölkələrlə səsləşən işlərimizdə var. Azərbaycan Respublikasının demokratik, hüquqi, sivil bir dövlət kimi inkişafını şərtləndirən amillərdən biri də təhsil

müəssisələrində pedaqoji ustaliq və tərbiyəvi iş sisteminin düzgün qurulmasıdır. Çünki demokratik ruhlu gənclər məhz məktəbdəki düzgün təlim və tərbiyə prosesinin nəticəsində formalaşır.

Digər tərəfdən təhsil sisteminin inkişaf tendensiyası və pedaqoji ustalıq sahəsində novator müəllimlərin iş üsullarına dair toplanmış faydalı təcrübələr, pedaqoji-psixoloji tədqiqatların nəticələri daima sistemləşmə, ümumiləşmə və təlim-tərbiyə prosesinin məzmununun yeniləşməsini tələb edir. Bu problemlərin həllində tərbiyyə və pedaqoji ustalıq anlayışının gətirilməsini vacib bir problem kimi qarşıya qoyur və bütövlükdə təhsildə texnoloji yanaşmaların tətbiqini aktuallaşdırır.

Pedaqoji prosesdə nəzərdə tutulmuş məqsədlərin yerinə yetirilməsini təmin etməyə imkan verən, elmi əsaslar üzərində qurulmuş, məkan və zaman çərçivəsində proqnozlaşdırılmış tərbiyə və pedaqoji ustalıq prosesin bütün komponentlərinin birgə fəaliyyət sistemidir.

Tərbiyə bəşər yaranandan mövcud olmuş, tarix boyu inkişaf edərək bu günümüzə qədər gəlib çıxmışdır.

Şəxsiyyətin təşəkkül tapıb formalaşmasında digər amillərlə yanaşı tərbiyə prosesinin müstəsna dərəcədə böyük rolu vardır. Peyğəmbərimiz Həzrəti Məhəmməd (s.ə.) əleyhissəlam buyururdu ki, “Tərbiyə valideynin öz övladına verdiyi ən böyük hədiyyədir” (Abbasov, Əlizadə, 2000: 77).

Hər bir şəxs – istər yaşlı, istərsə də cavan, yaxud uşaq olsun –daim tərbiyəyə möhtacdır. İngilis filosofu Con Lokk “tərbiyə hər şeyə qadirdir”-deyir və göstərirdi ki, insanlar arasında fərqləri də tərbiyəyaradır (Kazımov, 1996: 65).

İnsanların bir-biriylə ünsiyyəti, qarşılıqlı münasibətləri, yaşayış uğrunda mübarizəsi prosesində birgə fəaliyyət göstərməyin zəruriliyi tərbiyənin yaranmasına səbəb olmuşdur.

Mürəkkəb proses olan təybiyə insanın hətta doğulmamışdan ana bətnindən başlayaraq formalaşmasında mühüm rol oynayır. İnsan doğulandan onu son mənzilə qədər müşayiət edən tərbiyə prosesi məzmun və xüsusiyyətlərinə görə rəngarəng olduğu kimi, üsullarına görədə müxtəlifdir. Bu mənada tərbiyə insanı ömrü boyu müşayiət edir.

Hər ölkənin özünəməxsus tərbiyəvi üsulları, müxtəlif əməli fəaliyyətləri və hər xalqın öz adət-ənənəsinə uyğun tərbiyə forması vardır. Bizim xalqımıza xas olan təybiyə üsulları zəngindir və bütün mərhələlərdə bu üsullardan istifadə etməklə cəmiyyətimiz üçün layiqli vətəndaşlar tərbiyə edə bilərik. Ü.Hacıbəyov demişdir: “Tərbiyənin məqsədi elmi, saf əxlaqlı, xalqın mənafeyini öz şəxsi mənzfeyindən üstün tutan, öz əməyi və fəaliyyəti ilə vətəninə xidmət etməyi özünə borc bilən, mübariz və sədaqətli şəxslər yetişdirmək (Orucova, 2006: 76).

Tərbiyə prosesinin mürəkkəb çətinliyi hamıya məlumdur, lakin onun uğurlu həllini tapmaq, bu çoxsahəli və təzadlı fəaliyyətin əsl ustası olmaq hamıya nəsib olmur. Buna yalnız bütün varlığı ilə bağlı olan masum uşaqları, özünün tədris etdiyi fənni və həmin fənni tədris etməyi sevən insanlar nail ola bilirlər. Aqillərin dediyi kimi, təlim-tərbiyə prosesi ilk baxışda son dərəcə asan, aydın görünür, hamıya tanış gəlir. Adam onunla nəzəri və əməli cəhətdən az tanış olduqca, bir o qədər aydın, asan və sadə görünür.

Əsl həqiqətdə isə bu işi bacaran müəllimlər məktəbdə yüksək nüfuz sahibinə çevrilirlər. Fikrimizcə müəllim nüfuzunun yaranması və formalaşmasına bir sıra amillər təsir göstərir.

1. Müəllim nüfuzu üçün zəruri sayılan təhsillilik və öz fənnini gözəl bilmək, yüksək pedaqoji ustalığa yiyələnmək həssas şagird diqqətindən əsla yayınmır. Müəllimin işindəki müsbət və mənfi cəhətlər haqqında şagirdlərdə aydın, həm də silinməz təsəvvür yaranır. Təlim –tərbiyə işlərinin müvəffəqiyyəti də məhz bu münasibətlərəsasında formalaşıb inkişaf edir.

2. Pedaqoji nüfuzun yaranmasına təsir edən amillərdən biridə məktəbdə səmimi və işgüzar mühitin olmasıdır. Pedaqoji ustalıq müəllimin nüfuzunu yüksəltdiyi kimi, təlim-tərbiyə işlərinin keyfiyyətinə də müsbət təsir göstərir.

3. Pedaqoji ustalıq həm də təlim prosesinindüzgün təşkilində özünü biruzə verir. Daha doğrusu, təlim zamanı fəallaşdırma probleminin həlli pedaqoji ustalığın mühüm komponentinə çevrilir. Belə ki, usta müəllim təlim prosesinin bütün həlqələrində, şagirdlərin nəzəri və praktik fəaliyyətində onların fəallıq və müstəqilliyini təmin edən təkmilləşdirilmiş üsulların və təlimin təşkili formalarının tətbiqinə nail olur.

Pedaqoji prosesin fəallaşdırılması ideyası fikrimizcə ilk təlim-tərbiyə işlərinin məqsədyönlü, planauyğun şəkildə həyata keçirildiyi zamanlardan qabaqcıl müəllimlərin pedaqoji ustalığı kimi meydana gəlmişdir. Qədim Çin filosofu, dövlət xadimi və pedaqoqu Konfusi (551-479) təlim prosesinin fəallığı təlimdən təfəkkürün vahidliyində və qırılmaz əlaqəsində görürdü. Konfutsiyə görə öyrənmək və fikirləşmək –bu bihudə məşğələdir. Yaxud fikirləşmək, lakin öyrənməmək-bu zəruridir. Təlimin keyfiyyəti bütövlüklə müəllimdən asılıdır (Əliyev, 1993: 100).

İnsanlığın ağıllı və şüurlu fəaliyyəti sahəsinə aid olan tərbiyə işi tarixi proses olduğundan cəmiyyətin inkişaf ahənginə uyğun olaraq daimi dəyişir, təkmilləşir və inkişaf edir. Bütün canlılara xas olan yeni mühitə instintik uyğunlaşmadan fərqli olaraq insanların yeni sosial, iqtisadi, ictimai, tarixi şəraitə uyğunlaşması tərbiyə işinin şüurlu, məqsəd yönlü xarakterə malik olması ilə bağlıdır.

Tərbiyə və pedaqoji ustalığa yiyələnməyin yolları və vəsaitləri haqqında da xalq pedaqogikasında da fikirlər çoxdur. Onlarla tanışlıq göstərir ki, zəhmət adamları əqli tərbiyə işində daha çox məhz nağıl və izah etmək, müsahibə aparmaq, əyani göstərmək üsullarından, eləcə də tapmacalardan, dastan, atalar sözü, mahnı və s. vasitələrdən bol-bol istifadə etmişlər. Burada həm də ailə tərbiyəsi məsələləri, uşağın yaş dövrləri, təlim-tərbiyəni hansı yaşdan başlamağın məqsədəuyğunluğu haqqında da çox qiymətli fikirlərə rast gəlinir (Əhmədov, 2001: 46).

Müəllim-şagird münasibəti bir növ pedaqoji ustalığın keyfiyyət meyyarı göstəricisi hesab olunur. Ona görə də ustad müəllimlər, çoxsahəli, geniş mənalı, perspektivli, tale yüklü pedaqoji fəaliyyətlərinə vurğunluqla yanaşır, ustalığın daima təkmilləşdirir.

Müasir dövrdə tərbiyənin və pedaqoji ustalığın real məqsədi- şagirdin fərdi qabiliyyəti və istedadı əsasında hərtərəfli inkişaf etdirməsidir. Respublikamız irəliyə doğru inkişaf etdikcə, əlverişli şərait yarandıqca tərbiyənin real məqsədindən perspektiv ideal məqsədinə keçid tam gerçəkliyə çevriləcəkdir. Hazırda məktəblər şəbəkəsinin genişləndirilməsi, xüsusi istedadı olan uşaqların aşkara çıxarılması və onların qabiliyyətlərinin hərtərəfli inkişafı üçün münasib şəraitin yaradılması kimi bir çox tədbirlər bu həqiqəti bir daha təsdiq edir (Uşinski, 1953).

Tərbiyə və pedaqoji ustalığın əsas məqsəd dövlət təhsil standartlarına uyğun biliyə, bacarığa, praktik hazırlığa, mütərəqqi dünyagörüşünə malik olan, xalqının milli, mənəvi, mədəni dəyərlərinə və bəşəri dəyərlərə dərindən yiyələnən, Azərbaycan xalqının azadlıq amalına və demokratiya ənənələrinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvər, müstəqil və yaradıcı düşünən şəxsiyyət tərbiyyə etməkdən ibarətdir.

Pedaqoji ustalıq səviyyəsinə yüksəlmiş müəllim bilir ki, düzgün münasibətdə her şeyin zərgər dəqiqliyi ilə ölçülməsi, “qızıl orta xətt” prinsipinə üstünlük verilməlidir. Dahi N.Gəncəvinin dediyi kimi” Bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir o da” (Gəncəvi, 1981: 110).

Pedaqoji ustalığın formalaşması müəllimin əxlaqi səviyyəsi, bu sahədə onun əldə etdiyi təcrübədən çox asılıdır. Məktəb illərində bu prosesə təkcə müəllimlər rəhbərlik etmir, ona valideynlər və uşaq kollektivləri də istinad edir. Bununla belə uşaqların formalaşmasına təsir göstərən sistemlər o qədər müxtəlifdir ki, müəllim gərək şagirdlərin şüuruna müsbət təsir edən hərəkətləri möhkəmlətməyə çalışsın. Müsbət keyfiyyətlərinin adətə çevrilməsinə nail olsun.

Təcrübə zamanı müəllim şüurlu surətdə elə situasiya yaratmalıdır ki, şagird həmin tələb olunan tərzdə davranmağa , hərəkət etməyə məcbur olsun. Məhz burada pedaqoji ustalıq müəllimin əxlaq-etik hərəkəti ilə qarşılıqlı surətdə bir-birini tamamlayır. Pedaqoji ustalığı ilə fərqlənən müəllim bu situasiyani o dərəcədə məharətlə həyati təsvir edir ki, uşaq yalnız arzu olunan əxlaqi təcrübəni düzgün yerinə yetirir (Pedaqogika, 1993: 218).

## Nəticə

Pedaqoji ustalığın təkmilləşdirməyi qarşısına məqsəd qoyan gənc müəllim öz peşəsinin psixoloji, social, fəlsəfi, əxlaqi əlamətlərinə xüsusi diqqət yetirməlidir.

O, məktəbə yenicə qədəm qoymuş 6-7 yaşlı körpələri bəzən yerli, bəzən yersiz ola biləcək suallarınz cavab verməyi özü üçün artıq yük saymamalı, onlara səbrlə, təmkinlə, qayğıkeşliklə, inandırıcı cavab verməyə çalışmalıdır. Şagirdlərin müraciətinə cavab verməyib biganəlik göstərdikdə müəllim-şagird münasibəti pozulur və uşaqlarla tərbiyəçi arasında soyuqluğun, yadlığın

yaranmasına səbəb olur. Belə uşaqları yavaş-yavaş məktəbin mədəni-kütləvi tədbirlərində yüngül işləri görməyə cəlb etmək lazımdır. İşin nəticəsi çox uğurlu olur. Şagird təlimdə də xeyli irəliləyir.

Pedaqoji ustalığı ilə şagirdlərin qəlbinə, ağlına hakim olmuş müəllimlər şagirdlərin idealına çevrilirlər. Məhz ona görə də digər uğurlar da, özlərini şam kimi əridib onların həyat yoluna nur saçmış xeyirxah müəllimlərin də payı olduğu böyük səmimiyyətlə etiraf edirlər.

## Ədəbiyyat

1. Abbasov, A., Əlizadə, H. (2000). Pedaqogika. Bakı.
2. Kazımov, (1996). Pedaqogika. Bakı.
3. Orucova, S. (2006). Ü.Hacıbəyovun pedaqoji görüşləri. Bakı.
4. Əliyev, H. (1998). Pedaqoji ustalığın əsasları. Bakı.
5. Əhmədov, H. (2001). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı.
6. Uşinski, K.D. (1953). Seçilmiş pedaqoji əsərlər. Bakı.
7. Gəncəvi, N. (1981). Sirlər xəzinəsi. Bakı.
8. Pedaqogika. (1993). Bakı. Maarif.

Göndərilib: 08.01.2024 Qəbul edilib: 01.04.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/68-75

**Tural Quliyev**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
turalquliyev2001@gmail.com

# İQTİSADİ SİSTEMLƏRDƏ QEYRİ-MÜƏYYƏNLİK ANLAYIŞI VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

İqtisadi sabitlik ölkə iqtisadiyyatını müəyyən etmək üçün istifadə olunan inflyasiya dərəcəsi, faiz dərəcəsi, valyuta məzənnəsi, daxili və xarici ticarət balansları, iqtisadi artım, borclanma, resurs təchizatı və təklif xərcləri, işsizlik, adambaşına milli gəlir, istifadədə olan göstəricilər kimi müəyyən edilir. Qeyri-müəyyənlik istilahı isə baş vermə ehtimalı bilinməyən və ya hesablanması mümkün olmayan nəticələrlə bağlı vəziyyətləri təsvir edən bir anlayışdır. Bu mənada qeyri-müəyyənlik zərər və ya qazancla nəticələnəcək hərəkət və ya hərəkətsizliyin nəticələrinin ehtimallarının hesablana bilmədiyi vəziyyətlərə aiddir. İqtisadiyyatda demək olar ki, bütün iqtisadi hadisələrdə qeyri-müəyyənlik halları mövcuddur. İqtisadi orqanlar iqtisadi siyasət tədbirləri görərkən, gördüyü tədbirlərin iqtisadiyyata hansı nəticələr verəcəyinə əmin deyillər. Şirkət müəyyən bir investisiya layihəsində pulunu riskə atdıqda, edilən qiymətləndirməyə baxmayaraq, bu investisiyanın gələcək nəticələri ilə bağlı iqtisadi qeyri-müəyyənlik hiss edir.

Məqalədə iqtisadi sistemlərdə qeyri-müəyyənlik anlayışı və onun qiymətləndirilməsi barədə məlumat verilmişdir. İqtisadiyyatda qeyri-müəyyənlik bütün nəzəri inkişaflara baxmayaraq hələ də müzakirə olunan bir anlayış olaraq yerini qoruyur. Qeyri-müəyyənliyin bu qədər müzakirə olunmasının səbəbi mücərrəd iqtisadi düşüncədə qeyri-müəyyənlik anlayışının malik olduğu semantik meyarların konseptuallaşdırılmaması deyil, qeyri-müəyyənlik anlayışı ilə bağlı konsensusun əldə olunmamasıdır. Qeyri-müəyyənliklə bağlı konsensusun olmaması bu anlayışla bağlı müxtəlif yanaşmaların ortaya çıxmasına səbəb olmuşdur.

***Açar sözlər:*** *qeyri-müəyyənlik, risklərin idarə edilməsi, maliyyə bazarı, dəyişkənliyin artması, nizamsızlıq, iqtisadi qərarlar*

**Tural Guliyev**
Azerbaijan State University of Economics
master student
turalguliyev2001@gmail.com

## Concept of uncertainty in economic systems and its evaluation

**Abstract**

Economic stability is defined as the inflation rate, interest rate, exchange rate, domestic and foreign trade balances, economic growth, borrowing, resource supply and supply costs, unemployment, per capita national income, and indicators used to determine the country's economy. The term uncertainty is a concept that describes situations with outcomes that are not known or cannot be calculated. In this sense, uncertainty refers to situations where the probabilities of action or inaction resulting in loss or gain cannot be calculated. In the economy, there are cases of uncertainty in almost all economic events. When economic authorities take economic policy measures, they are not sure what results the measures they take will have on the economy. When a company puts its money at risk in a certain investment project, it feels economic uncertainty about the future results of this investment, despite the valuation made.

The article provides information on the concept of uncertainty in economic systems and its assessment. Uncertainty in economics is still a debated concept despite all the theoretical

developments. The reason that uncertainty is discussed so much is not the lack of conceptualization of the semantic criteria of the concept of uncertainty in abstract economic thought, but the lack of consensus on the concept of uncertainty. The lack of consensus on uncertainty has led to the emergence of different approaches to this concept.

***Keywords:*** *uncertainty, risk management, financial market, increased volatility, irregularity, economic decisions*

## Giriş

Qeyri-müəyyənlik fəlsəfə, statistika, iqtisadiyyat, maliyyə, sığorta, psixologiya və sosiologiyada rast gəlinən anlayışdır. Qeyri-müəyyənlik o deməkdir ki, hadisə və ya qərarın nəticəsi əvvəlcədən dəqiq bilinmir. Başqa sözlə, qeyri-müəyyənlik hər hansı bir hadisə və ya qərarın birdən çox mümkün nəticəsi olduqda yaranır. İqtisadiyyatda qeyri-müəyyənlik gələcək qazanc və itkilər kimi iqtisadi şərtlərin paylanma diapazonu və statusu ilə bağlı qeyri-müəyyənliyə aiddir. Qeyri-müəyyənlik iqtisadiyyatda da mühüm elementdir. Qeyri-müəyyənliyin iqtisadi kateqoriyasının əhəmiyyəti onun yerinə yetirdiyi funksiyalarda aşkar olunur. Əsas problem olmaqla qeyri-müəyyənlik "inzibati prosesin mahiyyətidir" (Tompson, 1967: 159). Təşkilati ardıcıllıqdan yayınma qeyri-müəyyənliyi artırır, nizamın və onun harmoniyasının qorunması isə idarəetmə resurslarının mövcudluğunu tələb edir. Qeyri-müəyyənlik kateqoriyası təkcə iqtisadi deyil, həm də sosial həyatın hər hansı digər aspektini əhatə edən çox mürəkkəb bir hadisədir. Qeyri-müəyyənliyin mənbələrini və onun sosial həyatda yerinə yetirdiyi funksiyaları təhlil edərək, qeyri-müəyyənliyin xüsusi iqtisadi kateqoriya olduğunu iddia etmək olar.

Qeyri-müəyyənlik risk, davamlılıq, təhlükəsizlik və sabitlik kimi hadisələrin izahını təşkil edir. O, eyni zamanda onun mahiyyətinin və mahiyyətinin dərk edilməsində, qavranılmasında və zahirən düzgün təfsirində çoxlu qeyri-müəyyənlik və qeyri-müəyyənlik çalarını təcəssüm etdirir. Müxtəlif dövrlərdə yerli və xarici nəşrlərin təhlili bu kateqoriyanın universal və müəyyən dərəcədə tam tərifinin nəinki olmamalı, hətta mövcud ola da bilməyəcəyi ilə bağlı fərziyyəmizi təsdiq etdi. Təsəvvür etmək çətindir ki, qeyri-müəyyənlik şərti olaraq müəyyən edilmiş və dəqiq konseptual məzmuna malikdir. Əksinə, qeyri-müəyyənlik, hətta öz tərifində belə, qeyri-müəyyən qalmalı və tam başa düşülməməlidir.

**Əsas mövzu.**

Biznes mühitinin qeyri-müəyyənliyi müasir iqtisadiyyatın əsas xarakterik xüsusiyyətidir və hər bir iqtisadi fəaliyyət subyektinin səmərəliliyinə və inkişaf perspektivlərinə əsas təsir göstərir. Qeyri-müəyyənlik transformasiya proseslərinin inkişafı fonunda yaranır və qloballaşmanın və iqtisadiyyatın regionallaşmasının ziddiyyətli təsirinin dünya tendensiyaları, istehlakçıların əhval-ruhiyyəsinin uyğunsuzluğu və sahibkarların mənfəət dinamikası və s. ilə əlaqədardır. "Qeyri-müəyyənlik bazar iştirakçılarının, menecerlərin, ev təsərrüfatlarının və siyasətçilərin şüurunda gələcək imkanları özündə cəmləşdirən geniş anlayışdır. Bu həm də makro və mikro hadisələrdən tutmuş qeyri-iqtisadi hadisələrə qədər geniş spektri əhatə edən bir anlayışdır" (Bloom, 2014: 153). Yüksək səviyyədə siyasi risk, iqtisadi sabitliyin olmaması, mövcud qanunvericiliyin tez-tez dəyişməsi və çatışmazlıqları, korrupsiyanı artıran inzibati maneələr və iqtisadiyyatın kölgə sektoru sahibkardan diqqətli və diqqətlə düşünülmüş qərarlar, dəqiq və çevik qərarlar tələb edir.

Anarın rəngarəng mövzulardan ibarət olan yaradıcılığı cəmiyyəti narahat edən, xalqın ümumi mənafeyinə xidmət edən bir çox məsələyə toxunan mövzulardan ibarətdir. Bu mövzular yazıçının xalqla əlaqəsinin daha da möhkəmlənməsində, oxucuların qəlbinə tapdığı yolda uğurla irəliləməsində əsas rol oynayır. Bu səbəbdəndir ki, Anarın əsərləri illər keçməsinə baxmayaraq öz aktuallığını saxlayır. Lirik əsərlərində duyğuların bədii notlarla ifadəsində qazandığı oxucu məhəbbətindən daha çox Anar epik əsərlərində insanın daxili duyğularını qeyri-adi yox, tamamilə təbii və səmimi şəkildə təsvir etməyi bacarmışdır. Bu əsərlər daha çox insanın psixikasının təzahürünün nəticəsi olaraq meydana çıxmışdır. Şübhəsizdir ki, hər bir vətəndaşın qəlbində böyüdüyü vətəninin dərdləri sağalmaz izlər buraxır. Azərbaycan xalqının qəlbinə salınmış izlərdən biri də məhz Qarabağ dərdi idi. Qalibiyyətə qədərki dövrdə bu mövzuya bir çox qələm sahibləri dönə-dönə müraciət etmişdir. Bu yazıçılardan biri olan Anar da Qarabağ, Şuşa mövzusunu əsərlərində dəfələrlə işıqlandırmışdır. Anarın "Otel otağı", "Ağ qoç, qara qoç", "Vahimə" və s. əsərlərində bu mövzuya xüsusilə müraciət olunmuşdur. Yazıçının bu əsərlərin fonunda ifadə etdiyi fikir isə nəinki yazıçı, hətta ümumxalq mənafeyinə xidmət edir. Müəllif Kərim Əsgəroğlu obrazının simasında keçmiş xatirələri yenidən oyadaraq hadisələrə vətəndaş mövqeyindən nəzər salmış və etirazını bildirmişdir.

***Açar sözlər:*** *Anar, Qarabağ, Şuşa, Otel otağı, Vahimə, Ağ qoç, Qara qoç*

**Jeyhuna Aslanova**
Baku State University
master student
jeyhunaslanova@mail.ru

# Karabagh longing in Anar's prose

**Abstract**

Anar's creativity, which consists of colorful themes, includes topics that touch on many issues that concern the society and serve the general interest of the people. These topics play a key role in further strengthening the writer's relationship with the people and successfully advancing on the path he finds in the hearts of the readers. This is the reason why Anar's works remain relevant despite the passing of years. In his lyrical works, Anar managed to describe the inner emotions of a person in a completely natural and sincere way, not unusual, rather than the reader's love gained by expressing emotions with artistic notes. These works appeared more as a result of the manifestation of the human psyche. There is no doubt that the troubles of the homeland, where he grew up, leave irreparable traces in the heart of every citizen. One of the traces left in the hearts of the Azerbaijani people was the Karabakh problem. During the pre-victory period, many writers repeatedly addressed this topic. One of these writers, Anar, has covered the subject of Karabakh and Shusha many times in his works. Anar's "Hotel room", "White ram, black ram", "Panic", etc. this topic was especially addressed in his works. The opinion expressed by the writer in the background of these works serves not only the writer's interest, but also the public interest. The author looked at the events from the position of a citizen and expressed his protest by reawakening the past memories in the person of Kerim Asgaroglu.

***Keywords:*** *Anar, Karabakh, Shusha, Hotel room, Panic, White ram, Black ram*

## Giriş

Yaşadığımız həyatın yetərincə mürəkkəb olmasına baxmayaraq¸ biz insanlar bu həyatı həddindən artıq çətinləşdiririk. İnsan əlindəkiləri itirdikcə onların mahiyyətini daha aydın dərk edir. Bu itki bəziləri üçün maddi¸ bəziləri üçün isə mənəvi itkilər olur. Maddi itkilərdən fərqli olaraq mənəvi itkilərin yeri heç zaman dolmur. Əksinə acısı daha da ağırlaşır¸ ağrısı daha da dərinlərə gedir. Gündəlik həyatımızda isə ətrafdan o itkinin izlərini yığırıq. Bəzən bir quşun qanadlarını çırpdığı o qısa anda belə düşdüyümüz boşluqla barışa bilmirik. Bu tək bir xalqın¸ millətin yox¸ bütün insanlığın rastlaşdığı və əlindən qaça bilmədiyi problemdir. Buna görə də¸ insanlar bir- birini daha yaxşı anlamağı bacarmalıdır¸ amma bizi anlamadılar. Biz illərlə tariximizlə¸ ədəbiyyatımızla anlaşılmağa çalışdıq. Ədalətin öz yerini tapacağına inanaraq mənəvi yaramızı ovutduq¸ lakin anlaşılmadıq. Ta ki öz gücümüzlə öz bütövlüyümüzü bərpa edib öz ədalətimizi sübut edənədək. Bu illər ərzində xalqın yaşadığı sarsıntıları yazıçı Anar öz yaradıcılığında dəfələrlə bu mövzuya müraciət edərək hərtərəfli formada əks etdirmişdir. “Anar müasir ədəbiyyatımızın müxtəlif problemləri ilə bağlı xeyli sayda yazıların da müəllifidir. Ədəbiyyatda elə bir istedadlı şair və nasir yoxdur ki, onların yaradıcılığı Anarın fikir süсgəcindən keçməsin” (Yusifli, 2019: 2-3). Vaqif Yusiflinin bu fikriylə tam razılaşırıq, ona görə ki, müasir Azərbaycan ədəbiyyatında müraciət olunan mövzuların bir çoxunu Anar ilk dəfə yazan müəlliflərdəndir və bu mövzulara ondan əvvəl və sonra yenidən müraciət olunmasına baxmayaraq onun yazıları özünəməxsusluğunu qoruyub saxlamışdır.

Anar Şuşadan yazırdı...Anar bir zamanlar Azərbaycan xalqının itirməklə barışmadığı Şuşadan yazırdı. Anarın qələmini dindirən dərd isə bütün xalqın dərdiydi. 1993-1994-cü illərdə çap olunan ‘‘Otel otağı‘‘əsəri ilə yazıçı¸ bəlkə də¸ öz təxminlərinin fövqündə duracaq bir əsər yaratdığının fərqində deyildi. Povesti oxuduqca oxucu müəllifin rəsmi təhkiyəyə çevirdiyini hiss edir. Gözəlliyi dillər əzbəri olan Şuşanın yad əllərdə çırpına bilməyəcək qədər cəsarətini itirdiyini¸ məğlub olmağa alışmayan bu döyüşkən xalqın Qarabağın ürəyini itirməklə barışa bilmədiyini təsvir edir. Bu aspektdən baxdıqda¸ yazıçının əsərdə qoyduğu problemin nə qədər ali duyğuları təcəssüm etdirməyə xidmət etdiyi anlaşılır.

“Azərbaycan insanını Azərbaycan cəmiyyətinin (ümumən cəmiyyətin!) total ictimai-siyasi psixozundan xilas etmək yazıçının son dövrdə çapdan çıxmış “Otel otağı” kitabı kimi, 60-cı illərdən (yaradıcılığa başlayandan) bəri yazdığı, demək olar ki, bütün əsərlərinin əsas ideyasını təşkil edir” (Cəfərov, 2004)

Yazıçı Kərim Əsgəroğlunun yaşadığı dövrün və mühitin portretini yaradarkən bir çox ictimai və sosial problemləri işıqlandırmışdır. Bu problemlər sovet ideologiyasının təsiri altında əzilən və hətta bundan məmnunluq duyan bir çox obrazların zamanla xarakterlərində baş verən ciddi dəyişikliklərin vasitəsilə də anlaşılır. Kərim hər nə qədər vətəninə¸ millətinə bağlı bir insan surətidirsə¸ Çopur Cabbar bir o qədər dönük xarakterlidir. Kərim Türkiyəyə səfəri boyunca atdığı hər addımda vətənini- doğma Şuşanı xatırlayır. Anar yaratdığı obrazın duyğularını ifadə etmək üsulu kimi dad və qoxulardan istifadə edir. Hər bir qoxu Kərimi indi çox istəsə də fiziki olaraq heç cür gedə bilməyəcəyi Şuşaya aparır. İnsan xüsusilə də uşaqlıq çağlarında¸ bütün qayğılardan uzaqda yaşayarkən xoşbəxt olur və böyüdükdən sonra da uşaqlığını yaşadığı məkanlara ehtiyac duyduğu zamanlar getdikcə çoxalır. Bu ehtiyac Kərimin əlindən Şuşayla birlikdə alınmışdı və o¸ uşaqlığını da Şuşayla birlikdə itirmişdi. Xatirələr yaxasını buraxmaq bilməsə də¸ Kərim düşüncələrindən qaçıb reallıqla üzləşdikcə onu ölümə doğru qovan ürəyinin sancıları getdikcə daha da artırdı. Ankaraya gedərkən insanların kinayəli sözləri¸ bütün xalqın faciəsi sayılan itkilərin yaratdığı dərin yaraları çəkinmədən qanatmaqları illərimizi aldı. İllərlə o yaraların qanı dayanmadı¸ acısı dinmədi.

Çopur Cabbar xaricdən ziddiyyətli obraza bənzəsə də¸ daxilən məramı dəyişmir. Dövrün¸ mühitin tələblərinə asanlıqla uyğunlaşan bu obrazdakı əqidəsizlik aydın sezilir. Sanki¸ əqidəsizliyi özünə bir məslək edinmiş bu şəxs sovet dövrü və ondan sonrakı dövrdə də kütlənin yanlış olsa da¸ eşitmək istədiklərini¸ siyasətin xalqın beyninə yeritdiyi ideyaları səsləndirməkdən çəkinmir və ən ağrılı tərəf də bundan ibarətdir ki¸ xalqı kökündən uzaqlaşdırmaqla da açıq-aydın fəxr edir. Povestin əvvəlindən etibarən bir neçə yerdə biz Çopur Cabbarın çıxışlarıyla tanış oluruq. Obrazı öz diliylə

ifşa etmək üsulundan istifadə edən yazıçı onun çıxışlarındakı öz soy-kökünü danıb¸ müstəqillik əldə ediləndən sonra isə türklüyü ilə fəxr etməyini göstərərək xalqın ziyalı təbəqəsi sayılan insanlarının içində bu cür xəyanətkarların da olduğunu və Azərbaycanın kənar düşmənlərindən başqa öz daxilindəki namərdlərə qarşı da özünümüdafiəyə məcbur olduğunu göstərmək istəmişdir.

"Kişiliyin, cəsarətin olsun, dur günahlarını boynuna al, özün de görək bu dastanın bizə nə dəxli var axı ? Bizim dədə-babalarımız bəyəm at əti yeyiblər, qımız içiblər?" (Anar, 2004: 252). Bu misraları Kərimin atası Əsgərə deyib öz kökünü danan Çopur Cabbarı bir müddət sonra bu odlu-alovlu çıxışında dediklərini də danarkən görürük:

"Min illərdən bəri bu yerlər Türk torpaqları, Dədə Qorqud yurdu olub və min illər boyu da türk yurdu, Dədə Qorqud vətəni də olaraq qalacaq" (Anar, 2004: 269). Bu abzasda isə biz nəhayət ki, həqiqətləri dilə gətirən Çopur Cabbarla rastlaşırıq. Lakin, hər nə qədər doğruları söyləsə də, öncədən də qeyd etdiyimiz kimi bu sözlər onun qəlbindən süzülüb gəlmirdi, mənsəb uğruna, xalqın rəğbətini qazanmaq naminə dediyi sözlərdir. Xalqın içində bu tip insanlar çox idi və illər keçməsinə baxmayaraq hələ də var olub insanların ürəyinə saxta sözləriylə yol tapmağa çalışırlar.

Hər Qarabağla bağlı sualda Kərim Əsgəroğlunu qəhər boğması, əslində, Qarabağın duyğuları idi. Kərim həm də, Qarabağın insan vücuduna bürünmüş halıydı. Lakin, bu dərd Qarabağı öldürmədi, əksinə yaşatdı. Yaşatdı və yenidən bizə qaytardı. Kərim isə bu dərdə əsərin sonuna qədər də olsa, dözə bilmədi. Obrazı bir çox ölümlərin ev sahibi olan otel otağına, başqa sözlə desək, "öz qəbrinə" öz ayaqlarıyla gətirən yazıçı burda da xüsusi bir simvolik mənaya yer verir. Bəlkə də, o otaq sağlam əqidə uğruna yaşayan, həyatın bitib-tükənməyən dərdləriylə yoldaş olmuş Kərim kimi insanların ən son müqəddəs dayanacağı idi. Əsərin sonlarına doğru Kərim həyatında bir dəfə də olsa, digərləri kimi rüşvətlə işini həll edə biləcəyini, ailəsinin yanında utanmamaq üçün öz xarakterindən keçməyi düşünür. Lakin, Anar buna icazə vermir, obrazın pak duyğularına xələl gətirməyərək onun ömrünün son sətirlərini yazmaq üçün bu otağa-Kərim kimi ideologiyanın qurbanı olmaqdan imtina etmiş insanların ömrünü başa vurduğu otel otağına gətirir. Kərim Əsgəroğlu dünyadan hərkəsləşmədən köçür. Hara gedir getsin ona yol yoldaşı olan vətən nisgili isə bu dəfə o otel otağında tərk edilir, sanki dünya durduqca xalqın qəlbində məskunlaşmağa məhkum olduğunu anlayır. Anar haqqında danışarkən görkəmli şairimiz Bəxtiyar Vahabzadə belə bir fikir səsləndirir: "Əsərdə nə ölüm var, nə zülüm. Amma ürək parçalayan faciə var. Bu, oxucunu arxasınca aparıb istədiyi vəziyyətə sala bilən qələmin qüdrətidir" (4). Bu fikirləri daha sonra "Otel otağı" əsərinə də aid edən şair əsər haqqında olduqca dəyərli bir nüansa toxunmuşdur. Həqiqətən də, Anar bu acıma hissini sırf duyğuların vasitəsiylə çatdırmağı bacaran azsaylı yazıçılardandır.

"Döyüşə bilmirdin, ölməyə gedəydin Şuşaya" (Anar, 2004: 261). Kərimin dilindən deyilən bu cümlə bir çox azərbaycanlının bu itkidə özünü günahlandırarkən işlətdiyi cümlə rolunu oynayır. Bu dərdlə yaşamaqdansa, ölmək daha asan çıxış yolu kimi gəlirdi. Lakin, itirdiyimizi geri almaq üçün yaşamaq lazımıydı, yaşamağa və bu günlərə gəlib çıxmağa ehtiyac varıydı.

Elçin Hüseynbəyli məqalələrindən birində Anar haqqında belə bir fikir səsləndirmişdir: "Anar bir proqramçıdır. Millətinin yolunu müəyyən eləyən, onun gələcəyini proqnozlaşdırmağı bacaran yazardır" (Hüseynbəyli, 2018: 21). Həqiqətən də, Anarın yazdığı bir çox hadisə real həyatda baş verərkən yazıçı təxəyyülündə olduğu kimi baş verir. Bu da onun təxəyyülünün xalqa bağlılığından irəli gələn bir səbəbdir.

Anarın "Vahimə" hekayəsində biz Oruc obrazının həyatı fonunda Qarabağ müharibəsinin üzərindən illər keçməsinə baxmayaraq insanların psixikasında yaratdığı sarsıntıların daha da dərinləşməsinin şahidi oluruq. Psixoloq Orucun qəbuluna gələn pasientlərin əksəriyyəti eyni dərddən əziyyət çəkir. Bəziləri Qarabağ probleminin həllini bildiyini deyir, bəziləri ermənilərin yaşatdığı travmaların nəticəsi olaraq yaşadığı sarsıntıların təsirilə gördüyü xülyalara inanır. Burada müəllifin təsvir etdiyi Oruc obrazı cəmiyyətin reallığından uzaqda yaşayır və sanki bu uzaqlıqda nə vətən dərdi, nə torpaq davası, nə də tökülən qanlar var. Bu uzaqlıq insandan olduqca soyuqqanlı olmağı tələb edir. Orucu reallığa Baləmi dartıb gətirir və yaşadığı evin bir zamanlar erməni evi olduğunu, hətta pasientlərindən birinin dediyi kimi evin divarlarının "tilsimli" olduğu qənaətinə gətirib çıxarır, lakin burada müəllif yenidən oxucu iradəsinə üz tutaraq hadisənin real səbəblərini

anlamağı bizim öhdəmizə buraxır. "Müəllifə görə, insan ancaq öz fərdi dünyasında yaşa bilməz. Vətəndaşlıq hissindən, ictimai amaldan məhrumluq mənəvi boşluğa, həyatın beş günlüyü haqqında çürük fəlsəfəyə aparır və heç vaxt insanı sona qədər xoşbəxt edə bilməz" (Salamoğlu, 2002: 327). Orucun simasında verilən problemlə biz bu fikri daha aydın anlaya bilirik.

Anar "Ağ qoç, qara qoç" əsərində iki nağılın fonunda bir çox mədəni, siyasi, iqtisadi problemləri işıqlandırır. Ümumiyyətlə, xalqın başına gələn bəlaların özəyində məhz dövrün problemlərinə qarşı laqeyd münasibətin durduğunu ifadə edən yazıçı tarix boyu mövcud olan bütün dərdlərimizin çıxış yolunun öz haqqımızı tələb etməkdə olduğunu göstərir. Bu məqsədlə müəllif bu əsərdə də yenidən Qarabağ mövzusuna üz tutur, lakin bu dəfəki istiqaməti tamamilə başqa zəmində reallaşır. Əsər utopik və antiutopik olan iki nağıldan ibarətdir. Birinci nağıl utopik bir Azərbaycanda cərəyan edir. Bu nağılın qəhrəmanı Məlik Məmmədli səhərlər himn sədaları altında oyanır. Vətənpərvərlik notlarını böyük ustalıqla qələmə alan Anar əsərin davamında Şuşanın, Qarabağın təsvirinə geniş yer verir. Bu baxımdan yazıçının yaradıcılığında aparıcı xətlərdən biri olan vətənpərvərlik mövzusu müxtəlif ideyaların təqdim olunmasında paralel istiqamətlərdən biridir. Müəllif Şuşanı təsvir edərkən onun təbiətinin tərənnümünə xüsusi yer verir. "Qarabağ şikəstəsi" məqaləsində deyir: "Özüm də bilmirəm Şuşanı niyə bu qədər sevirəm. Burda doğulmamışam, burda böyüməmişəm, əslim-nəslim bu şəhərdən deyil, qohum-əqrabam burda yaşamır. Söz yox, vətənin hər qarışı, hər bucağı əzizdir, müqəddəsdir, amma Şuşa elə bir yerdir ki, imkanım olsaydı bütün ömrümü burda keçirərdim və vəsiyyət də edərdim ki, öləndə məni burda basdırsınlar" (Anar, 2015: 5). Bu fikirləri oxuduqca Anarın nəinki nəsrində, hətta qəlbində də Şuşanın ayrı bir yeri olduğunu aydın başa düşürük. Bu sevgi bir çox əsərində Qarabağ probleminin qarşımıza çıxmasına və həllini tapdığı gündən sonra da hələ də Şuşaya qarşı olan məhəbbətin bir an olsun səngiməməsinə gətirib çıxarmışdır. "Mübarizə yolunun çoxlu kəsələri var. Bu kəsələrə düşüb geriyə də qayıtmaq, başqa yollara gedib çıxmaq da mümkündür" (Anar, 2003). Bu mübarizə yolunda Anar da istedadlı qələm sahiblərindən biri kimi çəkinmədən millətin, xalqın dərdini dilə gətirmişdir.

## Nəticə

Ümumilikdə Anar nəsrində vətənpərvərlik mövzusunun, Qarabağ probleminin bu qədər geniş bədii lövhələrlə əksi deməyə əsas verir ki, yazıçı xalqın tarixini, etnoqrafiyasını, mədəniyyətini dərindən bildiyi kimi onu daxilən narahat edən, mənəvi sarsıntılara gətirib çıxaran hadisələri dərindən duyur və bunu öz əsərlərinə də mükəmməl şəkildə yansıdır. Yazıçının Qarabağ problemini ən çox əks etdirdiyi əsər "Otel otağı" povestidir. Burada Şuşanın təbiətinin hər addımda, hər təbiilik anında qəhrəmanın duyğularını riqqətə gətirməsi, keçmiş günlərini xatırladaraq o əlçatmaz duyğulara müraciətdən çəkinməməsi əsərin əsas məğzini təşkil etmişdir. "Ağ qoç, qara qoç" əsərində utopik cəmiyyətin təsviri zamanı yenidən xatırlanan Qarabağ sanki müəllifin günümüzə arzuladığı və illər sonra qəbul olunan arzusu səciyyəsini daşıyır. Xalqın mənafeyinə xidməti və ali duyğuların tərənnümü baxımından Anarın nəsri olduqca dəyərlidir.

## Ədəbiyyat

1. Yusifli, V. (2019). Anarın "söz dünyası". Ədəbiyyat qəzeti, 8 mart, s.2-3.
2. Cəfərov, N. (2004). Anar. Bakı: Bakı AzAtaM.
3. Anar. (2004). Seçilmiş əsərləri. 6 cilddə, III cild. Bakı: Nurlan.
4. https://www.anl.az/down/meqale/edebiyyat/2023/mart/840231(meqale).pdf
5. Hüseynbəyli, E. (2018). Anarı anlamaq anı. 525-ci qəzet, 10 fevral, 21 s.
6. Salamoğlu, T. (2002). Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: Səda, 2002
7. Anar. (2015). Qarabağ şikəstəsi. 525-ci qəzet. 2015, 8 may, S.5-6-7.
8. Anar. (2003). Seçilmiş əsərləri. VI cilddə Bakı: Nurlan, I c.

Göndərilib: 16.01.2024 Qəbul edilib: 07.04.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/99-104

**Müşviq Mehbalıyev**
Bakı Mühəndislik Universiteti
mmehbaliyev@beu.edu.az

# İRANIN NÜVƏ BÖHRANININ HƏLLİ CƏHDLƏRİ

**Xülasə**

Məqalədə İranın nüvə böhranının həllinə yönəlmiş fəaliyyətinin əsas inkişaf mərhələləri nəzərdən keçirilir. Müəllif İran ətrafında yaranmış nüvə böhranının əsas məqamlarına aydınlıq gətirir. İranın beynəlxalq münasibətlərin aktorları ilə münasibətlərində son onilliklərdə böhranı kontekstində baş verən dəyişikliklərə xüsusi diqqət yetirilir.

***Açar sözlər:*** *İran, nüvə böhranı, təhlükəsizlik, ABŞ, Qərb*

**Mushvig Mehbaliyev**
Baku Engineering University
mmehbaliyev@beu.edu.az

## Attempts to resolve the Iranian nuclear crisis

**Abstract**

The article examines the main stages in the development of activities to resolve the nuclear crisis of Iran. The author highlighted the main points of the nuclear crisis around Iran. Particular attention is paid to changes in Iran's relations with participants in international relations in the context of the nuclear crisis in recent decades.

***Keywords:*** *Iran, nuclear crisis, security, USA, West*

## Giriş

İranın nüvə böhranının həlli bir sıra ilkin şərtlər, hər şeydən əvvəl, danışıqlar prosesində tərəflərin razılığa gəlməsində qeyd-şərtsiz maraqlı olması ilə bağlıdır.

Beynəlxalq ictimaiyyətin Tehrana qarşı tətbiq etdiyi sanksiyalar, xüsusən də birtərəfli Amerika və Avropa sanksiyaları ölkə iqtisadiyyatına ağır zərbə vurdu. Qadağanedici tədbirlərin həyata keçirilməsinin İran üçün əsas nəticələri aşağıdakılardan ibarətdir:

1. Ticarət sahəsindəki məhdudiyyətlər səbəbindən xarici tərəfdaşlarla ticarət həcminin azalması
2. Müvafiq qadağalar səbəbindən investisiya həcmində azalma.
3. Neft embarqosu, tranzit qadağaları, 2012-ci ildə İranın SWIFT sistemindən çıxarılması, neft tankerlərinin sığortasının və təkrar sığortasının qadağan edilməsi səbəbindən neft, qaz və digər məhsulların satışından əldə olunan gəlirlərin azalması.
4. Müvafiq qadağalar səbəbindən İran təyyarə parkı daxil olmaqla, texniki vasitələrin, habelə silahlı qüvvələrin texnoloji strukturunun köhnəlməsi.

2011-2014-cü illər ərzində sanksiyaların təsiri nəticəsində İranın ÜDM-də 592 milyard dollardan 425 milyard dollara qədər əhəmiyyətli azalma baş verdi (1). Həmin dövrdə neft hasilatının həcmi gündəlik 3,5 milyon barreldən 3,1 milyon barrelə, ixrac isə gündəlik 2,25 milyon barreldən 1,1 milyon barrelə düşdü (2). Ölkə iqtisadiyyatında daim pisləşən vəziyyət siyasi kursda dəyişiklik və nüvə böhranından çıxış yolu üçün "aşağıdan tələb" yaratdı ki, bu da 2013-cü ilin iyun ayında keçirilən prezident seçkilərində H.Ruhaninin qələbəsini təmin etdi.

V.İ.Sajin Ruhaninin namizədliyinin yuxarıdan Ayətullah Xameneyi tərəfindən təsdiqləndiyini vurğulayır. Bu qərar ondan irəli gəlirdi ki, Həsən Ruhani "İranın nüvə problemi ilə bağlı idi və liberal-islahatçı qanadı təmsil edirdi", yəni o, "Qərblə dialoq apara biləcək" şəxs idi (3).

"Altılıq"da təmsil olunan Avropa ölkələri, Böyük Britaniya, Almaniya və Fransa, ilk növbədə, öz iqtisadi maraqlarını güdürdülər. ABŞ-ın 2010 və 2012-ci il Aktlarına uyğun olaraq, İranla bir sıra

sahələrdə birgə fəaliyyət göstərən xarici rezidentlərə (fiziki və hüquqi şəxslərə) qarşı sanksiyaların tətbiqi nəzərdə tutulurdu. Məhz bu qərar investisiyaların kəskin azalmasına, ixracat və idxalatın azalmasına və İranın SWIFT-dən ayrılmasına səbəb oldu. Buna görə də avropalılar İran bazarına qayıtmaq üçün böhranın tezliklə həllinə çalışırdılar.

İran neftinin ən böyük idxalçısı olan və hazırda ölkənin enerji təhlükəsizliyini təmin etmək üçün enerji tədarükünün şaxələndirilməsi siyasətini davam etdirən Çin İranla qarşılıqlı fəaliyyətdəki məhdudiyyətlərin aradan qaldırılmasında son dərəcə maraqlı idi (27). Oslodakı Sülh Araşdırmaları İnstitutunun professoru Pavel Bayev tərəfindən qeyd olunduğu kimi, məhz Çin faktoru təcrid vəziyyətində Pekinlə işbirliyində maraqlı olan Rusiyanın nüvə məsələsi ilə bağlı danışıqlar prosesində fəal iştirakına təsir göstərmişdi (17). Bu bir daha Pekinin böhranın həlli üçün göstərdiyi səylərin əhəmiyyətini nümayiş etdirir.

ABŞ üçün İran probleminin həlli nüvə silahının yayılmaması rejimini gücləndirməyə və bölgədəki qüvvələr nisbətini yenidən formalaşdırmağa imkan yaradardı (Arbatov, Sazhin, 2015). ABŞ-ın İranın raket proqramının davam etməsindən narazılığı təsadüfi deyil. Amerika tərəfi ballistik raket proqramının tammiqyaslı dayandırılmasına ümid bəsləyirdi, lakin H.Ruhaninin dediyi kimi “Tehranın nüvə başlıqları ilə təchiz olunması nəzərdə tutulmayan raketlər hazırlamaq hüququ var” (8). Bundan əlavə, İran üzrə aparıcı mütəxəssislərdən biri olan V.Sajinin dediyinə görə, B.Obama "Səudiyyə Ərəbistanı, İsrail və İran arasında balans” qurulmasında, İranla münasibətləri yaxşılaşdırmaqda maraqlı idi (11).

Nüvə silahının yayılmaması rejiminin gücləndirilməsi yolu ilə təhlükəsizliyin təmin edilməsi mövqeyindən çıxış edən Rusiya da İranın nüvə proqramı ilə bağlı danışıqlar prosesində strateji məqsədlər güdürdü. Hər şeydən əvvəl, Moskva Yaxın Şərq bölgəsindəki mövqelərini gücləndirməkdə, Qərbin regiondakı təsirini azaltmaqda maraqlı idi, bu da İranın dinc nüvə texnologiyalarına sahib olmaq və inkişaf etdirmək hüququnun ardıcıl müdafiəsində, sanksiyaların qəbul edilməsinə balanslı yanaşmada (sərt məhdudiyyətlərin tətbiqinə mane olmaqda) əksini tapdı (24). Eyni zamanda, danışıqlar çərçivəsində regional müttəfiqi kimi Tehranı dəstəkləyərkən, Rusiya tərəfi ABŞ ilə münasibətlərdə “İran kartı”nı oynayır, Vaşinqtonu İranın nüvə probleminin müzakirəsi yolu ilə NATO-nun Şərqə genişlənməsi, raket əleyhinə müdafiə sisteminin yerləşdirilməsi, ABŞ-ın nüfuzunun Rusiyaya qonşu dövlətlərə yayılması kimi məsələləri həll etməyə sövq edirdi (21). Bundan əlavə, ABŞ-ın danışıqlar masasında mümkün variant kimi qəbul etdiyi İran məsələsinin həlli üçün hərbi ssenarinin qarşısını almaq da həssas bir bölgədə vəziyyətin nəzarət altından çıxmasının qarşısını almaq baxımından Rusiya Federasiyasının milli maraqlarına cavab verir. Onu da qeyd etmək lazımdır ki, Əhmədinejadın prezidentliyi dövründə “altılıq” formatındakı dialoqdakı müəyyən problemlərə baxmayaraq məhz Rusiya diplomatiyasının səyləri sayəsində danışıqlar prosesi qorunub saxlanıldı. Bu kontekstdə xüsusən 2012-2013-cü illərdə Rusiyanın təşəbbüsü ilə Bağdad, Moskva, İstanbul və Almatıda. görüşlər reallaşdı (Gurova, 2015).

Həm İran, həm də Rusiya tərəfindən ənənəvi olaraq müttəfiq kimi qəbul edilən Suriyadakı vətəndaş müharibəsi çərçivəsində hərbi əməliyyatlar, terror qruplaşmalarının (xüsusən də İŞİD-in) fəallaşması fonunda İranın bölgədəki rolunun artması razılaşmanın əldə edilməsinə kömək edən geosiyasi amil kimi çıxış etdi. İranın bu son dərəcə ciddi təhdidlərə qarşı mübarizədə oynaya biləcəyi konstruktiv rolun beynəlxalq birlik tərəfindən dərki də danışıqların nəticələrinə təsir göstərdi. Xüsusilə Barak Obamanın İranı İŞİD-lə mübarizəyə cəlb etməkdə maraqlı olduğu bilinirdi ki, bu da onun Ayətullah Xameneyiyə məktubunda ifadə olunmuşdu (22). İran da öz növbəsində antiterror koalisiyasında iştirak ehtimalını danışıqlar prosesi ilə əlaqələndirirdi (4).

Beləliklə, bütün bu amillərin təsiri altında bir sıra danışıqlar nəticəsində 14 iyul 2015-ci ildə “altılıq” və İran tərəfinin nümayəndələri Birgə Hərtərəfli Fəaliyyət Planı (BHFP) imzaladılar ki, bu da İranın nüvə probleminin çoxillik həlli prosesinin məntiqi nəticəsi oldu. Qəbul edilmiş plan, İranın nüvə proqramının müstəsna dinc mahiyyətinin təmin edilməsinə yönəlmişdi, Tehran bu sahədə BHFP müddəalarına uyğun olaraq, BAEA ilə sıx əlaqədə, habelə “Altılıq” və İran tərəfindən yaradılan Birgə Komissiya çərçivəsində hərəkət etmək barədə öhdəlik götürmüşdü. BHFP nüvə proqramı ilə əlaqədar İrana BMT Təhlükəsizlik Şurasının tətbiq etdiyi sanksiyaların,

çoxtərəfli və milli sanksiyaların ləğvini də əhatə edirdi. "Altılıq" üzvlərinin götürdüyü öhdəliklər İrana ticarət, maliyyə, texnologiya sahələrində fəaliyyət imkanı verilməsini, "şər oxu" dövlətinin perspektivli tərəfdaşa çevrilməsini nəzərdə tuturdu.

BHFP, əsasən, aşağıdakıları nəzərdə tuturdu (13):

1. İranın uranın zənginləşdirilməsi ilə bağlı fəaliyyətinin 8 il müddətinə məhdudlaşdırılması və sonradan tədricən müstəsna surətdə dinc məqsədlər üçün zənginləşdirməyə keçid.
2. Natanzdakı obyektdə zənginləşdirmə gücünün məhdudlaşdırılması; Fordu müəssisəsində zənginləşdirmə işlərinin aparılmasının, hər hansı bir nüvə materialının yerləşdirilməsinin qadağan edilməsi.
3. Uranı zənginləşdirmə limitinin 3,67% səviyyəsində müəyyən edilməsi.
4. Zənginləşdirilmiş uranı saxlama həcmlərinin məhdudlaşdırılması.
5. İstifadə olunmuş nüvə yanacağının İran ərazisindən çıxarılması.
6. Sentrifuqaların və zənginləşdirmə ilə bağlı texnologiyaların çıxarılması daxil olmaqla infrastruktur dəyişiklikləri yolu ilə Fordudakı obyektin nüvə, fiziki və texnoloji mərkəzə çevrilməsi.
7. Beynəlxalq tərəfdaşlıq vasitəsilə Arakdakı ağır su tədqiqat reaktorunun tibbi və sənaye məqsədləri üçün radioizotoplar istehsalı mərkəzinə çevrilməsi.
8. İstifadə olunmuş nüvə yanacağının emalı sahəsində fəaliyyətin qadağan edilməsi.
9. Şəffaflıq rejimi təmin edilməklə İranın BAEA ilə əməkdaşlığı.
10. İranın nüvə partlayıcı qurğular yaratmaq cəhdlərindən imtina etməsi.
11. Beynəlxalq sanksiyaların ləğvi.

İcra Planına (Sazişə V Əlavə (7)) uyğun olaraq, BHFP-nın həyata keçirilməsi ikinci icra mərhələsində "Qəbul günü"ndə - BHFP BMT Təhlükəsizlik Şurası tərəfindən təsdiqləndikdən 90 gün sonra başlanmalı idi. 20 iyul 2015-ci ildə BMT Təhlükəsizlik Şurası BHFP-nı dəstəkləyən 2231 saylı qətnaməni (9) qəbul etdi, 18 oktyabr 2015-ci ildə BHFP ilə nəzərdə tutulan saziş tərəflərinin öhdəliklərinin icrası tədbirlərinin həyata keçirilməsinə başlanıldı (14).

Belə ki, İran ilkin qaydada Əlavə Protokolu tətbiq etməyə və nüvə obyektlərinin inşası planları barədə BAEA-nın əvvəlcədən məlumatlandırılmasını nəzərdə tutan təkmilləşdirilmiş 3.1. Koduna uyğun hərəkət etməyə başladı. AB və ABŞ İranın öz öhdəliklərini yerinə yetirdiyinin BAEA tərəfindən təsdiqlənməsi ilə başlanan BHFP icrasının üçüncü mərhələsində qüvvəyə minən İranın nüvə proqramı ilə bağlı iqtisadi və maliyyə sanksiyalarına xitam verən qərarlar qəbul edirlər. BMT Təhlükəsizlik Şurasının Tehrana qarşı sanksiyalar tətbiq edən qətnamələrinin ləğvi də həmin eyni anda baş verməli idi.

16 yanvar 2016-cı ildə başlanan "İcra Günü"ndə BAEA Baş Katibi Yukiya Amano İranın BHFP-nın həyata keçirilməsi üçün bütün lazımi hazırlıqları başa çatdırdığını təsdiqləyən hesabat təqdim etdi və planın icrasının üçüncü mərhələsi başlandı (Kozhanov, 2012). BMT Təhlükəsizlik Şurasının 2231 saylı qətnaməsinə uyğun olaraq, bir sıra məhdudiyyətlər saxlanmaqla sanksiyalar rejimi ləğv edildi. Tehrana silahların, o cümlədən hərbi texnikanın göndərilməsinin mümkünlüyü ilə bağlı məsələ geniş açıqlandı. 2231 saylı qətnamə BMT Təhlükəsizlik Şurasında müvafiq qərarın dəstəklənməsini nəzərdə tutmaqla 2020-ci ilədək dövr üçün tədarükün icazə prosedurunu müəyyənləşdirdi. Xarici KİV-in yuxarıda göstərilən qətnamənin müddəalarının yanlış təfsiri ilə bağlı açıqlamalarını şərh edən Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi M.V.Zaxarova qeyd etdi ki, BMT Təhlükəsizlik Şurasına üzv olan, belə bir hüquqa malik dövlətlərin tədarük barədə qərara veto qoyması halında "onlar ... xüsusən də Yaxın Şərqdə terrorizmlə mübarizə şəraitində dövlətin qanuni özünümüdafiə hüququnun həyata keçirilməsinə niyə mane olduqlarını izah etməlidirlər" (6).

İrana qarşı sanksiyaların götürülməsindən qısa müddət sonra bir sıra hüquq firmaları AB və ABŞ-ın İrana qarşı siyasətindəki əsas dəyişikliklərlə bağlı analitik hesabatlarını dərc etdirdilər. Məsələn, 19 yanvar 2016-cı ildə Danimarkanın "De Brauw Blackstone Westbroek" şirkəti İranın nüvə fəaliyyəti ilə bağlı bəzi milli sanksiyaların qüvvədə qaldığı və insan haqlarının vəziyyəti səbəbilə Tehrana tətbiq olunan sanksiyalara toxunulmadığı barədə hüquqi xəbərdarlıq yayımladı.

Məruzədə sanksiyaların qaldırılmasından bəri ən mühüm dəyişikliklərin ümumi xülasəsi verilirdi. AB tərəfindən xam neft, qaz və əlaqədar məhsulların alınması, idxalı və daşınması qadağası ləğv edilmişdi; sənayenin neft, neft-kimya və qaz sektorlarındakı İran müəssisələri ilə investisiya, maliyyələşdirmə və əməkdaşlıq məhdudiyyətləri aradan qaldırılmışdı. Amerika Birləşmiş Ştatları tərəfindən, Xüsusi təyin olunmuş Xarici Vətəndaşların Siyahısında qalanlar istisna olmaqla, əsasən Amerikadan kənar rezidentlər (hüquqi və fiziki şəxslər) sanksiyalardan azad edilmişdi (26). STEP konsaltinq agentliyində qeyd edildiyi kimi, İran hökuməti bu siyahıda qalmışdı (23). Bir həftə sonra Amerikanın “Ropes & Grey” hüquq şirkəti müvafiq hesabat yayımladı. Hesabata görə, İrana sərnişin təyyarələrinin, habelə sərnişin hava nəqliyyatında istifadə üçün ehtiyat hissələri və texnologiyaların ixracı, İrandan yerli istehsallı xalçaların və ərzaq məhsullarının idxalı qadağasının qaldırılması istisna olmaqla ABŞ tərəfindən sanksiya rejimində ciddi dəyişiklik edilməmişdi. Bu günə qədər ABŞ İrana qarşı əksər malların, məhsulların və texnologiyaların ixracını və idxalını qadağan etməkdədir. AB İrana qarşı nüvə proqramı ilə bağlı bütün sanksiyaları ləğv etmişdi. Dəyişikliklər müvafiq sənəddə - “Şuranın Qərarı 2016/37 / CFSP”də göstərilmişdi (25). Onu da qeyd etmək lazımdır ki, AB və ABŞ-ın İranla hərbi-sənaye kompleksində əməkdaşlıq barədə qadağaları bu günə qədər qüvvədə qalır. Daha əvvəl də qeyd edildiyi kimi, İranın ballistik raket proqramının məhdudlaşdırılacağına ümid edən ABŞ xüsusən də İranın təkrarən keçirdiyi sınaqlar fonunda hadisələrin inkişafından narazı qaldı (Leyva, 2015).

Bununla əlaqədar olaraq, 2016-cı ilin martında Prezident Barak Obama Tehrana qarşı sanksiyaların daha bir il uzadılacağını elan etdi. Rəsmi mövqe bundan ibarət idi ki, “İran hökumətinin müəyyən hərəkətləri və qərarları ABŞ-ın bölgədəki maraqlarına ziddir və ABŞ-ın milli təhlükəsizliyi, xarici siyasəti və iqtisadiyyatı üçün qeyri-adi və fövqəadə təhlükə yaratmaqda davam edir” (2).

Sanksiyalardan sonrakı mərhələ bütövlükdə İranla beynəlxalq birliyin üzvləri arasında əlaqələrin qurulması, Tehranla Çin və Rusiya kimi ənənəvi tərəfdaşlar arasında əlaqələrin bərpası və möhkəmləndirilməsi ilə xarakterizə olunur. BAEA İİR-in nüvə proqramı ilə bağlı fəaliyyətinə, BHFP-nın nəzərdə tutduğu tədbirlərin icrasına nəzarəti davam etdirir. Agentliyin baş direktoru Yukiya Amanonun 29 fevral 2016-cı il tarixli hesabatında İranın şəffaflıq rejiminin təmin edilməsi və BHFP-nın müddəalarına riayət edilməsi sahəsində BAEA ilə hərtərəfli əməkdaşlıq edərək, müəyyən edilmiş plana uyğun hərəkət etdiyi qeyd olunurdu (19).

Tərəflərin BHFP ilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üzrə sonrakı əməkdaşlığı İcra Planına uyğun olaraq davam etdi (7). Dördüncü mərhələ - “İcra Günü”ndən 8 il sonra başlayacaq “Keçid Günü”ndə (18 oktyabr 2023-cü il) və ya BAEA-nın “İrandakı bütün nüvə materialının dinc fəaliyyətdə qalması” barədə məlumatı ehtiva edən geniş rəyinin təqdim ediləcəyi tarixdə başlanmalıdır.

BHFP-nın icrasının İrana qarşı sanksiyaların hərtərəfli ləğv edilməsini nəzərdə tutan sonuncu mərhələsi “Qəbul günü”ndən 10 il sonra gələcək “BMT Təhlükəsizlik Şurasının qətnaməsinin bitməsi günü” (18 oktyabr 2025-ci il) başlayacaq. Eyni zamanda, İcra Planının mətnində göstərildiyi kimi, İranın nüvə proqramı ilə bağlı BHFP üzrə öhdəliklər qüvvədə qalacaq.

Beləliklə, 2015-ci ildə razılaşma ərəfəsində nüvə böhranı ətrafında vəziyyət buna təkan verən subyektiv və obyektiv ilkin şərtlərin mövcudluğu ilə xarakterizə edilirdi:

1. İranda islahatçı düşüncəli prezident H.Ruhaninin ölkədəki çətin daxili iqtisadi vəziyyətlə əlaqədar nüvə probleminin həlli şüarları ilə hakimiyyətə gəlməsi (10).

2. Çinlə yanaşı, danışıqlar prosesində iştirak edən Avropa ölkələrinin də İranla iqtisadi əməkdaşlıqda və sanksiyaların ləğvində maraqlı olması.

3. Rusiya və ABŞ-ın bölgədəki mövqelərini gücləndirməkdə maraqlı olması.

4. Bölgənin geosiyasi mənzərəsinin dəyişməsi, terror qruplaşmalarının fəallaşması şəraitində İranın rolunun əhəmiyyətinin artması.

## Nəticə

BHFP-nin imzalanması və razılaşmada nəzərdə tutulmuş addımların həyata keçirilməsi ilə beynəlxalq sanksiyalar və AB sanksiyaları qismən ləğv olundu; ABŞ tərəfindən qeyri-amerikalı rezidentlərin fəaliyyətinə təsir edən sanksiyalar rejimi zəiflədildi, eyni zamanda amerikalı fiziki və hüquqi şəxslərin fəaliyyəti ilə bağlı sanksiyalar uzadıldı. Bütövlükdə hazırkı mərhələ qəbul edilmiş planın əsas müddəalarının icrasında müsbət dinamika ilə əlamətdardır.

## Ədəbiyyat

1. GOV/2016/8 / IAEA. 29.02.16. URL: https:// www. iaea. org/ sites/ default/ files/gov2016_8_rus.pdf
2. Baev, P.K. (2015). The China factor in Russian support for the Iran deal / Brookings. July 21. URL: http://www.brookings.edu/blogs/order-from-chaos/posts/2015/07/21-china-russia-support-for-iran-deal-baev
3. Sovmestnyy vseob"yemlyushchiy plan deystviy. https://documents-dds-ny. un.org/doc/UNDOC/GEN/N15/225/51/PDF/N1522551.pdf?OpenElement
4. Top importers of Iranian crude oil. (2012). Reuters. February 6. URL: http://www.reuters.com/article/iran-oil-buyers-idAFL3E8C529I20120206
5. Arbatov, A., Sazhin, V. (2015). Yadernoye soglasheniye s Iranom: final ili novyy etap? Moskovskiy tsentr Karnegi. 4 dekabrya. URL: http://carnegie.ru/2015/12/04/ru-62179/imoe
6. Bochinin, A. SSHA prodlili sanktsii protiv Irana TASS. 9.03.2016. URL: http://tass.ru/mezhdunarodnaya-panorama/2726060
7. Gurova, M. (2015). Iranskaya yadernaya vekha (interv'yu s Khlopkovym A.) Rossiyskiy sovet po mezhdunarodnym delam. 15.07.15. URL: http://russiancouncil.ru/inner/?id_4=6341#top-content
8. Demidenko, S. (2015). Iran – «shesterka»: poka voz i nyne tam, no vot nadolgo li? / Rossiyskiy sovet po mezhdunarodnym delam. 25.02.15. URL: http://russiancouncil.ru/inner/?id_4=5338#top-content
9. Leyva, M. (2015). Iran provel ispytaniye ballisticheskoy rakety v narusheniye rezolyutsiy OON. RBK. 8.12.2015. – URL: http://www.rbc.ru/politics/08/12/2015/566666309a79470d2d2fbd37;
10. Otvet ofitsial'nogo predstavitelya MID Rossii M.V.Zakharovoy na vopros agentstva TASS otnositel'no nevernykh interpretatsiy rezolyutsii Soveta Bezopasnosti OON 2231. Ofitsial'nyy sayt MID RF. 20.02.16. URL: http://www.mid.ru/maps/ir/-/asset_publisher/HUPBmpXjn4Ob/content/id/2105425
11. Plan realizatsii SVPD. Sayt OON. S.115 URL: https://documents-dds-ny. un. org/ doc/ UNDOC/ GEN/ N15/ 225/ 51/ PDF/ N1522551. pdf?OpenElement
12. Prezident Irana prikazal rasshirit' raketnuyu programmu / RIA Novosti. 31.12.15. – URL: http://ria.ru/world/20151231/1352429326.html
13. Rezolyutsiya SB OON №2231 (2015) - http://www.un.org/ru/sc/2231/
14. Sazhin, V.I. 2014 god perelomnyy dlya Irana? – URL: http://russiancouncil.ru/inner/?id_4=4682#top-content
15. Sazhin, V.I. 2014 god perelomnyy dlya Irana? / Rossiyskiy sovet po mezhdunarodnym delam. 28.10.15. – URL: http:// russiancouncil.ru/ inner/?id_4=4682#top-content
16. Soglasheniye po iranskoy yadernoy programme ofitsial'no vstupayet v silu / TASS. 18 oktyabrya 2015. - URL:http://tass.ru/mezhdunarodnaya-panorama/2356369
17. Feynberg A. Iran provel novyye ispytaniya ballisticheskikh raket posle kritiki SSHA / RBK. 9.03.2016.URL: http://www.rbc.ru/politics/09/03/2016/56dfcfb69a79471ed2cdbc5a
18. Annual Statistical Bulletin. (2015).
19. GDP at market prices. World Bank – URL: http://data.worldbank.org/indicator/ NY.GDP.MKTP.CD/countries/IR?display=graph
20. IAEA Director General’s Statement on Iran. IAEA site. URL: https://www.iaea.org/newscenter/news/iaea-director-general%E2%80%99s-statement-iran

21. Kozhanov, N. (2012). Russia's Position on Iran's Nuclear Program. The Washington Institute. April 19. URL: http://www.washingtoninstitute.org/policy-analysis/view/russias-position-on-irans-nuclear-program
22. Lee, C., Solomon, J. (2014). Obama Wrote Secret Letter to Iran's Khamenei About Fighting Islamic State. The Wall Street Journal. Nov. 6. URL: http://www.wsj.com/articles/obama-wrote-secret-letter-to-irans-khamenei-about-fighting-islamic-state-1415295291
23. Many US sanctions on Iran remain in effect despite ban lift / STEP. 21 January, 2016. – URL: http://www.step.org/news/many-us-sanctions-iran-remain-effect-despite-ban-lift
24. Russian Approaches Towards the Iranian Nuclear Programme. The Embassy of the Russian Federation to the United Kingdom of Great Britain and Northern Ireland – URL: http://www.rusemb.org.uk/in4b/
25. Significant Changes to U.S. and E.U. Sanctions Against Iran/Ropes&Gray. January 26, 2016. URL: https://www.ropesgray.com/newsroom/alerts/2016/January/Significant-Changes-to-US-and-EU-Sanctions-Against-Iran.aspx
26. Significant relief of sanctions against Iran, but certain restrictions remain. De Brauw Blackstone Westbroek. 19.01.2016. URL: http://www.debrauw.com/alert/significant-relief-sanctions-iran-certain-restrictions-remain/

Göndərilib: 10.02.2024 Qəbul edilib: 18.04.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/105-109

**Mədinə Abbaszadə**
Bakı Dövlət Universiteti
magistrant
madinaabbaszada@gmail.com

# AVROPA İTTİFAQI ÇƏRÇİVƏSİNDƏ ŞİRKƏTLƏRIN AQRESSİV VERGİ PLANLAMASI, MEXANİZMLƏRİ VƏ MÜBARİZƏ YOLLARI

**Xülasə**

Şirkətlər vergidən yan keçmək və öz vergi öhdəliklərini azaltmaq məqsədilə aqressiv vergi planlaması həyata keçirirlər. Aqressiv vergi planlaması müxtəlif mexanizmlərdən istifadə olunmaqla həyata keçirilir. Məqalədə aqressiv vergi planlamasının əsas mexanizmləri hesab edilən borcun köçürülməsi, hibrid uyğunsuzluq, daimi nümayəndəlik statusundan süni şəkildə yayınma, vergi müqaviləsindən sui-istifadə, vergi qərarı kimi mexanizmlər qeyd olunmuş və həmin mexanizmlər barədə qısa izahlar verilmişdir.

Aqressiv vergi planlaması ilə mübarizə hazırda bir çox dünya ölkələrini, həmçinin də Avropa İttifaqını ciddi düşündürən məsələlərdəndir. Belə ki, şirkətlərin aqressiv vergi planlaması nəticəsində vergi öhdəliklərindən yan keçməsi dövlətlərin büdcə gəlirinin əsasını təşkil edən vəsaitdən məhrum olmasına gətirib çıxardır. Aqressiv vergi planlaması ilə mübarizədə Avropa Komissiyası tərəfindən qəbul olunmuş “Vergidən Yayınmaya Qarşı Direktiv” (ATAD), həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) “Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsi" (BEPS) layihəsi bu sahədə mühüm əhəmiyyətə malikdir. ATAD aqressiv vergi planlaması ilə mübarizədə faiz məhdudiyyəti, çıxış vergisi, sui-istifadəyə qarşı ümumi qaydalar (GAAR), nəzarət olunan xarici müəssisə və hibrid uyğunsuzluqla mübarizə qaydalarını müəyyən etmişdir.

***Açar sözlər:*** *aqressiv vergi planlaması, aqressiv vergi planlamasının mexanizmləri, aqressiv vergi planlaması ilə mübarizə, ATAD, BEPS*

**Madina Abbaszade**
Baku State University
master student
madinaabbaszada@gmail.com

# Aggressive tax planning of companies, their mechanisms and ways of fighting within the European Union

**Abstract**

Companies engage in aggressive tax planning to avoid tax and reduce their tax liability. Aggressive tax planning is carried out using various mechanisms. The article mentions such mechanisms as the main mechanisms of aggressive tax planning, such as debt shifting, hybrid mismatch, artificial avoidance of permanent establishment status, tax treaty abuse, tax ruling, and brief explanations of those mechanisms are given.

Combating aggressive tax planning is currently one of the issues that many countries of the world, as well as the European Union, are seriously thinking about. As a result of aggressive tax planning by companies, states are deprived of funds which is the basis of the budget income. In the fight against aggressive tax planning "Anti-Tax Avoidance Directive" (ATAD) adopted by the European Comission, as well as the "Base erosion and profit shifting" (BEPS) project of the Organization for Economic Co-operation and Development (OECD) have great importance in this field. ATAD sets rules to combat aggressive tax planning as interest limitation rule, exit tax, general anti-abuse rules (GAAR), controlled foreign entity and hybrid mismatch.

***Keywords:*** *aggressive tax planning, mechanisms of aggressive tax planning, combating aggressive tax planning, ATAD, BEPS*

## Giriş

Aqressiv vergi planlaması şirkətlərin qanuni hesab edilən, lakin qanunun məqsədinə və ruhuna zidd olan yolla vergi öhdəliyini azaltmağa çalışmasıdır. Şirkətlər aqressiv vergi planlaması ilə ölkələrin vergi sistemindəki boşluqlardan və uyğunsuzluqlardan istifadə edərək vergidən yan keçməyə (“tax avoidance”) səy göstərir (1). Vergidən yan keçmə anlayışı vergidən yayınma (“tax evasion”) anlayışından fərqləndirilir. Belə ki, vergidən yan keçmə vergi qanunvericiliyindəki boşluqlardan və uyğunsuzluqlardan istifadə edərək qanuni yolla vergi öhdəliyini azaltmağa yönəlmişdirsə, vergidən yayınma xərcləri süni şəkildə artırmaqla, gəlir məbləğini düzgün bəyan etməməklə və digər qanunsuz yollarla əldə olunmuş mənfəəti az göstərərək vergini ödəməkdən yayınmağa istiqamətlənir (2).

Aqressiv vergi planlamasının müxtəlif mexanizmləri mövcuddur və ona aşağıdakılar aiddir: Borcun köçürülməsi mexanizmi. Şirkətlər ya borc almaqla, ya da səhm buraxıb satmaqla maliyyələşə bilərlər. Şirkətlər borc alarkən borc verənə müəyyən dərəcə ilə faiz ödəyir. Vergi hesablanarkən şirkətin borc verənə ödədiyi faiz ödənişləri xərc kimi tanınaraq həmin vergi ilində əldə olunmuş gəlirdən çıxılır. Gəlirdən çıxılan xərc hesabına şirkətin əldə etdiyi mənfəətin həcmi müəyyən olunur. Xərc nə qədər çox olarsa, mənfəətin həcmi bir o qədər azalmış olar. Bununla da, şirkət əldə etdiyi mənfəətə görə ödəməli olduğu mənfəət vergisinin həcmini azaltmağa nail olur. Şirkətlər səhm buraxıb satdıqda isə vergi ilinin sonunda şirkətin fəaliyyətinin nəticəsində əldə olunmuş xalis mənfəətdən səhmdarlara dividend ödəməli olurlar. Dividend ödənişi xərc kimi tanınaraq şirkətin mənfəətinin azalmasına səbəb olmur. Belə ki, dividend özü xalis mənfəətdən, yəni mənfəətdən mənfəət vergisi çıxıldıqdan sonra qalan gəlirdən ödənildiyi üçün verginin azalmasına səbəb olmur. Buna görə də, şirkətlər səhm buraxıb satmaqla vəsait toplamaq əvəzinə borc götürüb faiz ödəməyə üstünlük verirlər. Bu da şirkətin maliyyələşmək üçün kapitaldan çox borcdan istifadə etdiyini göstərir və yüksək borc-kapital nisbəti ilə nəticələnir (3).

Vergi dərəcəsi yüksək olan ölkələrdə yerləşən şirkətlər adətən aşağı vergi tutulan ölkələrdə törəmə müəssisələr yaradır. Həmin törəmə müəssisə ana müəssisəyə borc verir və ana müəssisə aldığı borca görə törəmə müəssisəsinə faiz ödənişlərini həyata keçirdikdə, bu onun mənfəətinin azalmasına səbəb olur. Belə ki, borca görə ödənilən faiz ödənişləri xərc kimi ana müəssisənin həmin vergi ilində əldə etdiyi gəlirindən çıxılır, nəticədə mənfəətin məbləği azalır. Bununla da, yüksək vergi dərəcəsi olan ölkədə yerləşən ana müəssisə öz törəmə müəssisəsindən borc alma yolu ilə mənfəətini azaldaraq daha az vergi ödəmiş olur. Bu strategiya nəticəsində şirkətlər mənfəətini süni şəkildə azaltmaqla vergidən yayınırlar. Artıq ölkələr və beynəlxalq təşkilatlar bu taktikadan xəbərdardırlar və onu məhdudlaşdırmaq üçün müvafiq tənzimləmələr həyata keçirməyə çalışırlar. Bu tənzimləmə qaydalarından biri də “thin capitalization”qaydasıdır. Bu qayda ölkənin vergi qanunvericiliyində borcun kapitala nisbəti üçün müəyyənləşdirilmiş hədd aşılan zaman tətbiq olunur. Hər bir ölkə borcun kapitala nisbəti həddini müstəqil müəyyən edə bilər (4).

Misal üçün A şirkəti öz törəmə müəssisəsindən 90.000.000 dollar borc götürüb və kapitalının həcmi 10.000.000 dollar təşkil edir. A şirkəti götürdüyü borca görə 5% dərəcə ilə faiz ödənişi ödəyir ki, bu da 4.500.000 dollar (90.000.000 x 5%) edir. Bu halda faktiki olaraq borcun kapitala nisbəti 9:1-ə bərabərdir. “Thin capitalization” qaydasına görə, əgər A şirkətinin yerləşdiyi ölkə borcun kapital nisbətini 3:1 kimi müəyyən edibsə, bu zaman vergittutma məqsədləri üçün yalnız 1.500.000 (30,000,000 x 5%) dollar xərc kimi tanına bilər.

Hibrid uyğunsuzluq mexanizmi. Hibrid uyğunsuzluqlar iki və daha çox yurisdiksiyada fəaliyyət göstərən şirkətlərin həyata keçirdiyi əməliyyatların vergitutma məqsədləri üçün hər bir yurisdiksiyada fərqli qiymətləndirilməsi zamanı baş verir. Hibrid uyğunsuzluq ölkələrin vergi qanunvericiliyində müəyyən əməliyyatlara və ya müəssisələrə münasibətindəki fərqlərdən istifadə edən vergi strategiyasıdır. Müəssisələr öz əməliyyatlarını birdən çox ölkədə həyata keçirdikdə, hər

bir ölkənin vergi qanunları vergitutma məqsədləri üçün əməliyyata fərqli münasibət göstərə bilər ki, bu da "uyğunsuzluq"lara səbəb ola bilər (5).

Belə ki, müəssisə başqa bir ölkədə öz törəmə müəssisəsini təsis edə bilər və bu törəmə müəssisə ana müəssisənin yerləşdiyi ölkənin vergi qanunvericiliyinə müvafiq olaraq onun vergi öhdəlikləri üçün sahiblərinin məsuliyyət daşıdığı müəssisə kimi tanındığı halda, törəmə müəssisənin təsis olunduğu ölkənin vergi qanunvericiliyinə müvafiq olaraq isə vergi öhdəlikləri üçün müstəqil məsuliyyət daşıyan ayrıca müəssisə hesab oluna bilər. Törəmə müəssisə üçüncü tərəfdən borc aldıqda onun yerləşdiyi ölkənin qanunvericiliyinə uyğun olaraq, o, vergi öhdəlikləri üçün məsuliyyət daşıyan müstəqil müəssisə kimi tanındığından aldığı borca görə ödədiyi faiz ödənişini xərcinə sala biləcək. Eyni zamanda ana müəssisənin yerləşdiyi ölkənin vergi qanunvericiliyi törəmə müəssisənin vergi öhdəlikləri üçün onun məsuliyyət daşıdığını müəyyən etdiyindən, vergitutma məqsədləri üçün borca görə faiz ödənişinin həyata keçirilməsinə görə xərc ana müəssisə üçün də tanınacaq. Nəticədə eyni bir əməliyyata görə həm ana müəssisə, həm də törəmə müəssisə törəmə müəssisənin ödədiyi faiz ödənişinə görə xərci gəlirindən çıxmaqla mənfəətini azalda bildi. Yaxud ana müəssisədən törəmə müəssisəyə verilən vəsaitin bir yurisdiksiyada borcun verilməsi, digər yurisdiksiya da isə kapital qoyuluşu kimi qiymətləndirilməsi nəticəsində hibrid uyğunsuzluq baş verə bilər. Hibrid uyğunsuzluqlar eyni əməliyyata görə xərcin iki dəfə hesablanmasına, əməliyyata görə verginin tutulmamasına və s. vergidən yan keçmə hallarına səbəb ola bilər.

Vergi müqaviləsindən sui-istifadə mexanizmi. Hazırda bir çox ölkələr arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair müqavilələr imzalasa da, lakin hələ də bəzi ölkələr arasında belə müqavilələr mövcud deyil. İkiqat vergitutmanın aradan qaldırılmasına dair müqavilələr iki ölkə arasında eyni gəlirin iki dəfə vergiyə cəlb edilməsinin qarşısını almaq məqsədi daşıyan müqavilələrdir. Vergi müqaviləsindən sui-istifadə şirkətlərin fəaliyyət göstərdikləri iki yurisdiksiya arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair müqavilənin olmadığı halda onların həmin ölkələrlə əlverişli vergi müqaviləsi olan üçüncü ölkədə törəmə müəssisə yaratmaqla əlverişli vergi müqaviləsinin şərtlərindən istifadə etməsidir (3).

Hər bir dövlətdə vergi qanunvericiliyi formalaşdırılan zaman vergitutmanın bir sıra prinsipləri əsas kimi götürülür. Məlum olduğu kimi, vergi qanunvericiliyi vergi sisteminin əsasını təşkil edir. Odur ki, vergi qanunvericiliyi vergitutmanın əsaslarını, vergilərin hesablanması, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyiciləri və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin

digər iştirakçılarının vergitutma məsələlərilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını və s. müəyyən edir.

"Vergitutmanın aşağıdakı prinsipləri vardır:

-Ədalətlilik prinsipləri.

Adı çəkilən prinsipə əsasən, dövlət vergilərinin təsir dairəsi hər bir vətəndaşın gəlir və imkanlarını eyni dərəcədə əhatə etməlidir. Adətən, bu, prinsipin iki aspekti fərqləndirilir: üfüqi və şaquli. Üfüqi ədalətlilik prinsipinə uyğun olaraq, eyni iqtisadi vəziyyətdə olan vergi ödəyiciləri eyni vergi mövqeyində dayanmalıdırlar, yəni onların ödədikləri verginin məbləği bərabər olmalıdır. Bu prinsipin əsasında dayanan ideyaya görə tutulan verginin həcmi vətəndaşın faktiki gəlirlərinin məbləğindən asılı olaraq müəyyənləşdirilməlidir.

-Səmərəlilik prinsipi.

Adı sadalanan prinsipə görə, yığılan verginin məbləği onun yığılmasına çəkilən xərcin həcmindən çox olmalıdır. Buna misal olaraq bir sıra vergi növləri, o cümlədən əmlak vergisi nümunə kimi göstərilir. Belə ki, bəzi mütəxəssislər əmlak vergisinin vergitutmanın səmərəlilik prinsipinə zidd olduğunu sübut etməyə çalışırlar. Onların fikrincə, əmlak vergisinin yığılması zamanı səmərəlilik prinsipinə əməl olunmur. Çünki bəzi yığılan verginin məbləği yalnız əmlak vergisi üzrə vergitutma obyektinin müəyyənləşdirilməsi, vətəndaşların xəbərdar edilməsi, nəzarət tədbirlərinin həyata keçirilməsi və s. işlərlə bağlı xərclərin ödənilməsinə kifayət edir...

- Tarazlıq prinsipi.

Qeyd edilən prinsipin mahiyyəti ondan ibarətdir ki, vergi qanunvericiliyi dövlətin və vergi ödəyicilərinin maraqlarını bərabərləşdirməyə xidmət etməlidir. Yəni, müəyyən edilmiş vergi sistemi həm büdcə gəlirlərini təmin etməli, həm də vergi ödəyicilərinin iqtisadi vəziyyətinin ağırlaşmasına yol verməməlidir...

- Müəyyənlik prinsipi.

Artıq danılmaz faktdır ki, bir çox hallarda vergi ödəyiciləri tərəfindən qanunvericiliyin pozulması bilavasitə onların öz hüquq və vəzifələri, yaranmış gəlirlər üzrə dövlət qarşısında yerinə yetirməli olduqları öhdəlikləri və s. qanuni hərəkətləri dəqiq bilməmələri nəticəsində yaranır. Yəni, vergilərin hesablanması, ödənilməsi və digər hərəkətlərin həyata keçirilməsi qanunvericilik baxımından aydın göstərilməli və vergi ödəyicilərinin nəzərinə qabaqcadan çatdırılmalıdır" (3).

Vergi nəzəriyyəsi vergilərin mahiyyəti, cəmiyyətin iqtisadi və sosial-siyasi həyatında yeri, rolu və əhəmiyyəti haqqında elmi biliklər sistemidir. XVII əsrdən etibarən formalaşmağa başlayan vergi nəzəriyyələri müxtəlif səviyyəli dövlət vergi sistemlərinin qurulması üçün model rolunu oynayır. Vergi nəzəriyyələri ümumi və xüsusi olaraq iki qrupa ayrılır.

Ümumi vergi nəzəriyyələri ümumilikdə vergitutmanın məqsədini əks etdirir. Həmin nəzəriyyələrə aşağıdakıları nümunə göstərmək olar:

- mübadilə nəzəriyyəsi; atomistik nəzəriyyə; zövq nəzəriyyəsi; sığorta mükafatı nəzəriyyəsi; klassik nəzəriyyə; qurban və kollektiv tələbat nəzəriyyəsi; Keyns nəzəriyyəsi; monetarizm nəzəriyyəsi; təklif iqtisadiyyatı nəzəriyyəsi.

"Mübadilə nəzəriyyəsinin əsasını dövlətin vətəndaşları xarici hücumlardan qorumaq, asayişin mühafizəsi kimi xidmətlərin qarşılığını vergilər vasitəsilə alınması ideyası təşkil edir. Bu nəzəriyyə orta əsrlər sisteminin şərtlərinə uyğun idi.

Atomistik nəzəriyyə XVI əsrin sonu, XVII əsrin əvvəllərində mübadilə nəzəriyyəsinin bazasında meydana çıxıb. Bu nəzəriyyəyə görə vergi vətəndaşlarla dövlət arasında bağlanmış müqavilənin nəticəsidir. Müqavilə əsasında dövlətin müdafiəsi, mühafizəsi və digər xidmətlərinə görə dövlətə vergi formasında müəyyən məbləğ ödəyir...

İsveçrəli iqtisadşı J.Simond de Sismondi (1773-1842) XIX əsrin birinci yarısında irəli sürdüyü zövq nəzəriyyəsinə görə vergilər vətəndaşın cəmiyyətdən aldığı zövqə görə ödədiyi dəyərdir. Vergilərin köməyi ilə vətəndaş ictimai asayiş, ədalətli məhkəmə sistemi, özünün və əmlakının təhlükəsizliyi kimi dəyərlərdən bəhrələnir.

Həmin dövrdə fransız dövlət xadimi Adolf Tyer (1797-1877) və habelə ingilis iqtisadçısı Con Makkulok (1789-1864) tərəfindən müdafiə olunan sığorta mükafatı vergi nəzəriyyəsi formalaşdı.

Onların fikrincə, vergilər vətəndaşların öz əmlaklarını hər hansı riskdən (müharibədən, yanğından, oğurluqdan və s.) qorumaq üçün əldə etdikləri gəlirin məbləğindən asılı olaraq dövlətə ödədiyi sığorta ödənişidir. Lakin vergilər sığorta hadisəsi baş verdikdə kompensasiya almaq üçün deyil, əksinə, müdafiə və hüquq-mühafizə orqanlarına dövlət xərclərini maliyyələşdirmək üçün ödənilir.

Vergi nəzəriyyəsinin inkişafında klassik siyasi iqtisadın nümayəndələri A.Smit və D.Rikardo xüsusi rol oynayıb. Əsas vergitutmanın prinsipləri ilk dəfə A.Smit tərəfindən təklif edilib.

Mahiyyətcə oxşar olan növbəti iki nəzəriyyələrə (qurban nəzəriyyəsi və kollektiv tələbat nəzəriyyəsi) görə vergilər quruluşunun mahiyyətindən yaranan məcburi öhdəlikdir.

1929-1935-ci illəri əhatə edən Böyük Böhran azad rəqabət şəraitində bütün mövcud idarəetmə sisteminin böhranının başlanğıcı oldu. Buna reaksiya olaraq iqtisadiyyat elmində yeni bir nəzəriyyə - C.M.Keynsin nəzəriyyəsi meydana çıxdı..” (4).

Dövlətin vətəndaşlarla qarşılıqlı maliyyə münasibətlərini tənzimləyən alətlərdən biri vergilərdir. Müxtəlif vergi növləri vasitəsi ilə maliyyə ehtiyatları dövlətlərin dövlət büdcəsində toplanır. Bu proses həmin ölkədə mövcud vergi sistemi vasitəsi ilə həyata keçirilir.

Azərbaycan Respublikasının müasir vergi sistemi müstəqillik illərində formalaşıb. Müstəqilliyin ilk illərində ayrı-ayrı qanunvericilik aktları ilə tənzimlənən sistem, sonradan daha da inkişaf etdirildi. 2001-ci ilin yanvarın 1-dən tətbiq edilən AR Vergi Məcəlləsi vasitəsi ilə bu sahədə mövcud normativ hüquqi aktlar sistemləşdirildi, ayrı-ayrı qanunlar vahid kodeksdə toplandı.

Azərbaycan Respublikasında vergi sistemi, ödənilən vergilərin idarəetmə səviyyəsinə görə qruplaşması, vergilərin növləri Məcəllənin 4-cü maddəsi ilə tənzimlənir. Həmin maddə ödənməli vergiləri belə qruplaşdırır:

- dövlət vergiləri-Vergi Məcəlləsinə daxil edilmiş, AR ərazisində ödənməsi məcburi olan vergilər qrupudur;
- muxtar respublika (MR) vergiləri Naxçıvan Muxtar Respublikasında AR VM-ə müvafiq Naxçıvan MR qanunları ilə müəyyən olunmuş muxtar respublika ərazisində ödənməli vergiləri əhatə edir;
- yerli vergilər (bələdiyyə vergiləri) AR vergi qanunvericiliyi əsasında bələdiyyə ərazisində ödənməli olan vergilərdir. Yerli vergilər bələdiyyələrin qərarı əsasında tətbiq edilir.

“Vergi ödəyicilərinin ödəmə qabiliyyətinə uyğun olaraq vergitutma aşağıdakı 3 istiqamətdə aparılır:

- gəlir üzərindən;
- istehlak (xərc) üzərindən;
- sərvət üzərindən.

Azərbaycanda gəlirlər üzərindən alınan vergi növləri bunlardır:

- fiziki şəxslərin gəlir vergisi;
- hüquqi şəxslərin mənfəət vergisi;
- sadələşdirilmiş vergi.

AR Vergi Məcəlləsində istehlak etdiyimiz mallara və xidmətlərə görə alınan vergilərin növləri müəyyən olunub:

- əlavə dəyər vergisi (ƏDV);
- aksiz vergisi;
- yol vergisi;
- mədən vergisi” (5).

Vergilər cəmiyyətin sosial həyatında çox mühüm rol oynayır. Vergilərin, vergi ödəyicilərinin imkanları nəzərə alınmaqla müəyyən edilməsi prinsipi mütərəqqi vergitutma qaydasının meydana gəlməsinə səbəb olmuşdur. Bu o deməkdir ki, gəlirlər hissələrə bölünür, onun hər sonrakı artan məbləğindən daha yüksək normalarla vergi tutulur.

Vergilərin tənzimləmə vəzifəsi özünü: 1) Vergitutma sisteminin müəyyən edilməsi və dəyişdirilməsində; 2) Vergi dərəcələrinin dəyişdirilməsi və fərqləndirilməsində; 3) Dövlətin iqtisadi proqramına uyğun olaraq mənfəətin və kapitalın hissəsinin vergidən azad edilməsi üçün güzəştlərin nəzərdə tutulmasında göstərir.

"Müasir dövrdə vergi sistemi daha çevik tənzimlənir. Belə ki, dövlət tənzimləmə orqanları vergi qanunvericiliyinin əsaslarını və strukturunu saxlamaqla, vergi dərəcələrini seçmə yolu ilə, müvəqqəti olaraq aşağı salır, dövlətin iqtisadi siyasətini həyata keçirən müəssisələr üçün vergiləri hətta ləğv edirlər.

Vergilər iki yerə bölünür: 1) Birbaşa vergilər; 2)Dolayı vergilər. Birbaşa vergilərə vətəndaşların gəlirlərindən və onlara məxsus olan əmlakdan, korporasiyaların (firmaların) mənfəətindən tutulan, habelə sosial vergilər (məsələn, sosial sığorta ayırmaları), torpaq vergisi və s. aiddir. Bunlar konkret fiziki və ya hüquqi şəxslərdən tutulur və buna görə də müstəqim (birbaşa) vergilər adlanır. Dolayı vergilərə isə əlavə dəyər vergisini, aksizləri, daşınmaz əmlak və qiymətli kağızlarla aparılan sövdələşmələrə görə alınan vergiləri və s. misal göstərmək olar" (6).

Vergi elementləri hər hansı bir verginin müəyyən edilməsi və tətbiqinin əsas şərtləri olmaqla, onun hüquqi, iqtisadi və sosial cəhətdən əsaslandırılmış strukturunu təşkil edir.

Hər bir vergi növü struktur olaraq bu elementlərin vəhdətindən ibarətdir. Konkret vergi növünü daha dərindən tanımaq üçün onun strukturunu- hər bir elementini ayıra bilmək vacib şərtdir.

Vergi elementləri əsas, fakultativ və əlavə elementlərə bölünür. Əsas elementlər olmadan hər hansı bir vergi öhdəliyinin müəyyən edilməsi mümkün deyildir. Fakultativ elementlərin olmaması isə vergi öhdəliyinin müəyyənlik dərəcəsinə heç bir təsir etmir.

Əlavə elementlər vergilərin müəyyən edilməsi şərtlərində nəzərdə tutulmasa da, vergi öhdəliyinin yerinə yetirilməsi mexanizmini daha dolğun xarakterizə edir.

"Vergiqoyma nəzəriyyəsi ilə bağlı ədəbiyyatlarda əsasən aşağıdakı vergi elementləri fərqləndirilir:

-vergi subyekti; vergi obyekti; vergi bazası; vergi dərəcəsi; vergi dövrü; verginin hesablanması və ödənilmə qaydası; vergi güzəştləri.

Vergi subyekti- başqa sözlə, vergi ödəyicisi qanunvericiliklə müəyyən olunmuş vergi obyektindən qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətlərdə verginin hesablanıb ödənilməsini təmin etməli olan şəxsdir.

Vergi obyekti- hər hansı subyektin vergi ödəmək vəzifəsini şərtləndirən hüquqi faktdır. Vergi obyekti vergi tətbiq edilən və bu səbəblə birbaşa və ya dolayı şəkildə verginin mənbəyini təşkil edən iqtisadi ünsürdür. Vergi öhdəliyinin yaranmasına səbəb olan iqtisadi fakt və ya hadisə vergi obyektini təşkil edir.

Vergitutma bazası- vergi obyektinin vergi tutulan hissəsinin kəmiyyət ifadəsidir. Vergitutma bazası vergi məbləğinin hesablanma bazasıdır və vergi dərəcəsi məhz buna tətbiq olunur. Digər elementlərin təsiri ilə üst-üstə düşməyə bilər...

... Vergi dərəcəsi- vergi bazasının hansı hissəsinin vergi olaraq büdcəyə hesablanmalı olduğunu göstərən ölçüdür. Vergi bazasının dəyişməsindən asılı olaraq vergi dərəcələri sabit və faizli ola bilər.

Vergi dövrü-vergi öhdəliyinin subyektin maliyyə-təsərrüfat fəaliyyətinin müddət olaraq hansı hissəsi üzrə müəyyənləşdirilməsini (məsələn, il, rüb, ay) ifadə edir..." (7).

Dövlət vergi ödəyicilərinə nəzarətin səmərəliliyinin yüksəldilməsinin təmin edilməsi üçün verdiyi ödəyicilərinin üzərinə bir sıra vəzifələr qoyur. Lakin müəyyən müddət keçdikdən sonra ayrı-ayrı vergi ödəyiciləri arasında vergi yükünün qeyri-bərabər bölüşdürülməsi haqqında fikirlər formalaşmağa başlayır. Bu isə gəlirlərin gizlədilməsi, vergidən yayınma hallarının artmasına səbəb olur. Bütün bunlar isə dövləti yeni vergi islahatları aparmağa sövq edir. İnkişaf etmiş ölkələrdə hər 5-7 ildən bir əsaslı vergi islahatları aparılır.

"Vergi islahatlarının aparılmasının əsas məqsədlərindən biri sahibkarların və dövlət maraqlarının maksimal tarazlığının təmin olunmasıdır. Sosial yönümlü bazar iqtisadiyyatı şəraitində vergi sistemində meydana çıxan vergi hüququ münasibətlərinin tənzimlənməsində mükəmməl normativ hüquqi bazanın olması mühüm rol oynayır.

Vergi sisteminin normativ hüquqi bazası dedikdə, qanunların və bu qanunlara uyğun olaraq qəbul edilmiş normativ-hüquqi aktların məcmusu başa düşülür. Ölkənin vergi sisteminin normativ

hüquqi bazası ilk növbədə Konstitusiya hüququna, sonra isə mülki, inzibati, cinayət və maliyyə hüquqlarına istinad etməlidir...” (8).

## Nəticə

Araşdırmaçı üzərinə böyük məsuliyyət götürərək, vergitutmanın tarixini, nəzəriyyələrini, vergini növlərini və verginin elementlərini tədqiq etmişdir. O, tədqiqat işində vergi sisteminin yaranma tarixinə ekskurs edərək, vergi nəzəriyyələrinin kökünə nüfuz etmişdir. Müasir vergi növləri və vergi elementləri də onun tərəfindən mükəmməl araşdırılmışdır. Bir sözlə, müəllifin araşdırması günümüzlə aktual səsləşən bir mövzu olduğu üçün onu yüksək qiymətləndirmək olar.

## Ədəbiyyat

1. az.techonfronts.com>Vergilər
2. taxes.gov.az>vn/child/vergitarixi.html
3. bakinaz.az/vergitutmanin.müəyyən-edilməsi...
4. muhasibat.az>esas-vergi-nezeriyyeleri/
5. muhasibat.az>azerbaycanda-vergi-nobleri/
6. kayzen.az>blog/vergi/8196/vergilərin-mahiyyəti...
7. vergiler.az>news/taxes/10276
8. kayzen.az>blog/vergi/3800/vergi-sistemi-və-

Göndərilib: 12.01.2024 Qəbul edilib: 28.03.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/138-142

**Emilya Babayeva**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
elya.babayeva@internet.ru

# RUHUN SƏSİ

## Xülasə

Bu məqalə müasir dövr rəssamlarından olan Röya Həsənin yaradıcılığından bəhs edir. Məqalənin birinci səhifəsində rəssamın həyatı haqqında tədqiq olunmuş məlumatlar öz əksini tapır. Rəssamın yaradıcılığı və fəaliyyəti haqqında olan dolğun məlumatlar rəssamın yaradıcılığına müraciət edənlər üçün müəyyən qədər məlumatı əks etdirir. Öz dəsti xətti, üslub xüsusiyyəti ilə fərqlənən Röya Həsən müxtəlif qrup və fərdi sərgilərin fəal iştirakçısıdır. Abstrakt üslubda çalışan rəssamın müxtəlif mövzuları əks etdirəcək maraqlı əsərləri var. Ərsəyə gətirdiyi rəngkarlıq əsərləri içərisində mənzərə və portretə daha çox üstünlük verən rəssam atdığı sərt yaxmaları ilə rəsmlərə ziddiyyətli görünüm bəxş edir. Özünü bu sənətdə tapmağı biraz gec olsada, itirdiyi o günləri çox gözəl doldurmağı bacarır.

***Açar sözlər*:** *abstraksionizm, portret, rəngkarlıq, molbert, ekspressionizm, sərgi, plener, impressionizm*

**Emilya Babayeva**
Azerbaijan State University of Culture and Arts
master student
elya.babayeva@internet.ru

# The voice of the soul

## Abstract

This article is about the creativity of Roya Hasan, one of the contemporary artists. The first page of the article contains researched information about the artist's life. Complete information about the artist's creativity and activity reflects a certain amount of information for those who refer to the artist's work. Roya Hasan, distinguished by her own set line and style, is an active participant in various group and individual exhibitions. The artist, who works in an abstract style, has interesting works that reflect various topics. The artist, who prefers landscapes and portraits in his painting works, gives the paintings a contrasting look with his hard smears. Although it is a little late to find himself in this art, he manages to fill those lost days very well.

***Keywords:*** *abstractionism, portrait, painting, easel, expressionism, exhibition, plein air, impressionism*

## Giriş

İnsan yarandığı gündən müxtəlif sənət sahələrinin formalaşmasında ən vacib obyektlərdən biri olmuşdur.Formalaşan sənət sahələrinin mütləqki dahiləri, unudulmazları olmuşdur. Bu bütün incəsənət sahələrində olduğu kimi təsviri sənət sahəsində də belədir.Özünə məxsus dəsti xətti,fərqli ideyaları ,üslubları özündə birləşdirən istedadlı rəssamlar yaşayıb yaradıblar.

Tariximizə nəzər yetirsək yaxın keçmişə nəzər salsaq bədii ifadəliliyi ilə seçilən zəngin irsimizin şahidi olarıq. Mədəni irsimizin zənginləşməsinə töhfələri olan gənc rəssamlar yetişməkdədir. Hansıki öz fərqliliyi ilə seçilən qadın rəssamlarımızdan biridə Röya Həsəndir (Axundzadə, 2011).

Röya Həsən 1980-cı ildə Bakıda anadan olmuşdur. Sənətini sevən, dəyər verən rəssam bu sənətə gec gəlsədə çalışqanlığı sayəsində aradakı boşluğu doldurmağı bacara bilmişdir. Rəssamın kiçik

yaşlarından bu sənətə qarşı olan istedadı hələ kiçik yaşlarından seçilən şagirdlərdən biri olmasını təmin etmişdir.

Bir çox rəsm sərgilərində iştirak edən peşəkar rəssam məktəblərarası yarışda 1-ci yerin, Moskvada keçirilən ortaməktəblərarası olimpiadada isə 2-ci yerin sahibi olmuşdur. Zaman keçdikcə o təhsilini bu sahədə davam etdirmir. Röya Həsən ilk təhsilini Bakı Slavyan Universitetinin "Filologiya" fakultəsində, ikinci təhsilini Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə və Kredit" fakultəsində alır. Fərqli sahələrdə təhsil alıb, müxtəlif sahələrdə fəaliyyət göstərsədə bəzən daxildən gələn o istək, yaratmaq arzusu onu gec yaşda bu yönə istiqamətləndirir. İşini iqtisadi sahədə davam etdirsədə, ancaq daxilindəki istedad, yaratmaq istəyi rəssamı daima bu yönə istiqamətləndirmişdir. Röya Həsən avtomobil qəzası keçirir, bu qəza onun həyatında dönüm nöqtəsi olur. 2 ilə yaxın sağ əli ilə rəsm çəkə bilməməsi onu daha da həvəsləndirir , rəsm çəkə bilməsədə daima sənət dostlarının ətrafında olması onu daha ruhlandırır və o sol ilə ilə rəsmlərini çəkməyə başlayır (Thompson, 2014).

2014-2015 -ci illərdə Florensiya, B.Britaniya rəssamlıq məktəblərində təhsil alması peşəkar rəssam olmaq arzusunu reallaşdırmaq onun bu istiqamətdə ilk addımlarında olmuşdur.

Peşəkar rəssam professional təhsil almaq üçün 2016-cı ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "Rəngkarlıq" fakultəsinə qəbul olur. 2019-2021-ci illər aralığında isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Rəngkarlıq" fakultəsinin magistrantı olur. Hal-hazırda elə həmin universitetdə pedaqoji fəaliyyətlə məşğul olur (3).

Qısa zaman müddətində peşəkar rəngkarın yaratdığı rəsm əsərləri müxtəlif sərgi salonlarında nümayiş olunmağa başlayır. Rəssamın yaratdığı əsərlər həm xarici sərgilərdə həm də yerli sərgilərdə tamaşaçıların zövqünün oxşayırdı. Onun rəsmləri Gürcüstan, Rusiya, Dubay, Türkiyə, Fransa, İtaliya, Almaniya, Lüksemburq kimi ölkələrdə təşkil edilmiş konfrans və sərgilərdə ölkəmizi layiqincə təmsil edir. Onun yerli sərgilər içərisində "Münaqişənin çalarları", "Dünəndən bu günə", "Milli vətənpərvərlik" və s. onlarla belə sərgilərdə rəsmləri öz yerini daim tutmuşdur. Bunlardan əlavə Röya Həsənovanın Misir, Fransa, Hindistan, İtaliya və s. kimi səfirliklərlə birgə layihələri olmuşdur. Bir müddət AzTV Mədəniyyət kanalında "Ms Molbert" adlı verlişin ssenari müəllifi vəzifəsində çalışmışdır. Röya Həsənin iştirak etdiyi sərgilərdən əlavə də özünün 5 fərdi sərgisi keçirilmişdir. "Vergül", "Bax, Gör, Hiss et", "İz" sərgiləri o sərgilərdəndir ki, Röya Həsənin və onun sənətini bəyənən insanlar tərəfindən izlənilmişdir (4).

İncəsənətə zövqü kiçik yaşlarından formalaşmağa başlayan rəssam xanım qısa zaman müddətində öz əl işlərilə çox həmkarları arasında tanınır əl əxsusda sevilir.

Rəssam daima axtarışda olmalıdır kəlməsi elə bil Röya xanım üçün deyilibmiş, daima axtarışda olan, yeni fikirlər, yeni sərgilər, yeni işlər axtarışında olmağı onun ən üstün cəhətlərindəndir.

Rəssam zamanını elə gözəl istifadə edir ki, həm rəsm çəkməyə, həm ailəsi ilə vaxt keçirməyə, kitab oxumağa, idmanla məşğul olmağa, ən əsasıda rəssam heç bir sərgini, heç bir dəvəti buraxmır daima bu sənətin içərisindədir. Bu da onun bu sənətə necə bağlı olduğunnan, sənətin yeniliklərini daima izləməkdən irəli gəlir (5).

Röya Həsən rəssamlığın mənəvi paklığla əlaqəsi olduğunu düşünən rəssamlardandır .O öz sevdiyi işlə məşğul olduğu üçün özünü çox xoşbəxt hiss edir və bu həyatda nə istədiyini onun ruhuna nəyin yaxşı gəldiyini daha dərindən dərk edir. Ona görədə yaratdığı əsərlər real şəkildə tamaşaçıya ötürülür.

Rəssamın əsas hədəf obyektlərindən biri təbiətdir.Təbiət mənzərəsi onun tablolarında çoxluq təşkil edir. Bəli zaman zaman müxtəlif janrlara müraciət etsədə ən çox üstünlük mənzərə janrına verilir. Onun rəngarəng mənzərələri sərt ştrixləri ilə tamamlanır. Onun mənzərə janrlı əsərlərində Azərbaycanın müxtəlif bölgələrinin meşə, dağ, çəmənlik və s. görə bilərik. Təkcə ölkəmizin mənzərələrini deyil olduğu xarici ölkələrdədə zaman tapdıqca eskizlər etməyi sevir (6).

Mənzərədən söz açmışkən rəssamın bu janra yaxın olan animalistika janrında ərsəyə gətirdiyi əsərləri unutmaq olmaz. Ən əsasda müxtəlif növ quşların rəsmlərini işlədiyi əsərlər öz forması, duruşu, rəng həlli ilə fərqli mücərrəd fiquru əks etdirir.

Kökü impressionizm üslubunun yarandığı gündən formalaşan plener rəssamlığı rəssamın əsas hobbilərində biridir.O,tez tez rəssam həmkarları ilə birlikdə Azərbaycanın gözəl bölgələrini gəzərək müxtəlif etüd və rəngkarlıq nümünələri yaradır (7).

Digər əsas janrlardan olan portret onun yaradıcılığında daha çox üstünlük təşkil edir.Portret janrını rəssam bir başqa sevir. Çünki o gənc yaşlarında bu janrda çəkməyə üstünlük verirmiş. Portertdən danışmışkən rəssamın bu mövzuyla əlaqəli fərdi sərgisi belə keçirilmişdir.Tanınmış karifeylər onun mövzu üzrə daha çox müraciət etdiyi tablolar içərisindədir.

Hal-Hazırda Azərbaycan Rəssamlar İttifaqının üzvu olan Röya Həsənova həmdə “Arts Council Azerbaijan” təşkilatının üzvüdür.

Sənətinin vurğunu olan özünü bu sənətlə tapan xanım rəssamın əsərləri hazırki vaxtda yüksək emosiyalı ekspressiv rənglərin bir birilə təzadınnan ibarətdir.Onun abstraksiyanı və ekspressiyanı sərt formada verdiyi əsərlərindəndə görünür ki, rəssamın özünü tapdığı üslub abstrakt ekpressionizmdir. Bildiyimiz üzrə abstarksionizmin əsası rus rəssamı Vasili Kandinski tərəfindən qoyulan üslub reallığı rədd edən non fiqurativ üslubdur (8).

Əsası, formalaşıb inkişaf etməsi rəssam Tahir Salahovun tərəfindən olan sərt üsluba müasir dövrdə müraciət edən rəssamlar çoxdur. Ancaq Röya Həsən hansıki çox az qadın rəssamlarında biridir ki,kətana atdığı yaxmalar bir qadına görə çox sərtdir. Kətan üzərində sərt və iri yaxmaların bir birini əvəz etməsi Röya Həsənin yaradıcılığının özünəməxsus şəkildə ifadə formasıdır.Ruhunun düşüncələri ilə birləşməsi sonunda aqressiv formalı emosional işlərin ortaya çıxması üçün zəmin yaradır.

Bilindiyi üzrə Röya Həsən fəaliyyət müddəti ərzində çoxsaylı kollektiv və fərdi sərgilər keçirmişdir. İndiyədək onun 5 fərdi sərgisi keçirilmişdir.

Onun sonuncu keçirilən “İz” adlı sərgisi öz sənət sahələrində həqiqətəndə insanların qəlbində dərin iz buraxmış karifey sənətkarların portretlərinin olduğu sərgi idi. Sərgi ilk öncə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetin peşəkar rəhbər və pedaqoji heyəti ilə birgə 2023-cü ilin aprel ayının 13-də keçirilmişdir. Elə həmin ilin iyun ayının 9-10 da Qız Qalası qalereyasında ADMİU və Arts Council Azerbaijan QHT-nin təşkilatçılığı ilə fərdi olaraq keçirilmişdir.

Sərgidə 27 əsər nümayiş olunmuşdur. Nümayiş olunan əsərlər içərisində incəsənət xadimlərinin, bəstəkar, rəssam, rejissor, aktyorların və s.portret rəsmləri var idi. Portretlərdən əlavə sərgidə təbiət mənzərələrinin olduğu rəngkarlıq əsərləridə nümayiş olunmuşdur. Hansıkı bu peyzajlar Qarabağ silsiləsindən olan rəsmlər idi.

Rəssam bu karifey şəxslərin portret rəsmlərini çəkməyə mənasız yerə müraciət etmiyib.O bilərəkdən Azərbaycanın mədəniyyətinin inkişafına çox saylı töhfələri olan şəxslərin porterlərini yaratmışdır. Yaratdığı əsərləri sadəcə onların rəsmlərinə baxaraq deyil, həmin şəxsin həyatı, yaradıcılığı, ailəsi, dostları ilə söhbət edərək həmin şəxsin daxili cizgilərini önə çıxarmağı bacarmışdır. Sərgidə istifadə olunan portretlərin hazırlanmasına 3 il sərf olunmuşdur.

Rəssam vətənə necə bağlı olduğunu, mədəni dəyərlərimizi necə qoruduğunu, öz sevgisini kətana tökməklə nümayiş etdirir. Dilindən, dinindən ,irqindən ,sosial qrupundan asılı olmayaraq hər bir xalq öz mədəni dəyərlərini qorumağı bacarmalıdır. Kimisi hansısa bacarığı, istedadı, qabiliyyəti ilə bu işi yerinə yetirir. Əsərlər içərisində Arif Məlikov, Xurşidbanu Natəvan, Vaqif Mustafazadə, Nəsibə Abdullayeva, Üzeyir Hacıbəyov, Səttar Bəhlulzadə, Qara Qarayev, Fikrət Əmirov və s. kimi görkəmli şəxslərin portretləri əks olunmuşdur.

Portretlərə diqqətlə baxsaq görəcəyəmiz ən böyük özəlliklərdən biri portertlətin kətana yerləşməməsidir. Ümumilikdə Röya xanımın əksər əsərləri belədir.Gənc rəssam rəsmləri bilərəkdən kətana sığmaz şəkildə təsvir edib. O rəsmlərini yaratdığı şəxslərin də ixtisasından asılı olmayaq öz sənətlərinə sığmadığını necə dahi olduqlarını kətanda belə göstərməyi bacarmışdır.

Hazırki vaxtda rəssam “İz” sərgisinin sadəcə Azərbaycanda keçirilməsi ilə qalmaq istəmir. Onun bu yöndə düşüncəsi İz sərgisinin davamını ölkəmizin hüdudlarından kənarda təşkil etməkdir. O, müsəlman şərqin dahilərini digər ölkələrdə tanıtmaq Azərbaycanın mədəniyyətini qorumaq, yaşatmaq yönündə öz çalışmalarını edir. Bu portretlər içərisində elə bir şəxs varki, ondan danışmamaq olmaz. Üzeyir Hacıbəyov ilk Azərbaycan operasının əsasını qoyan bəstəkar,

musiqişünas, publisist, dramaturq, pedaqoq, ictimai xadim və s. sadalamaqla bitməyən istedada sahib şəxslərdən biri olmuşdur. Müasir Azərbaycan peşəkar musiqisinin banisi olan Üzeyir Hacıbəyov bir çox tanınmış musiqiçi və bəstəkarların da pedaqoqu olmuşdur.

Qarabağ mövzu olaraq ədəbiyyatda, musiqidə, təsviri sənətdə daima aktual olan mövzulardandır. Ermənilər tərəfindən işğal olunan Dağlıq Qarabağ tariximizə qanlı hərflərlə yazılan ölkəmiz üçün ağrısı sönməyən acılı hadisələrdəndir. Yaddaşlarımızdan silinməyən Dağlıq Qarabağ mövzusuna demək olarki, bütün rəssamlar müraciət edib. Ancaq Qarabağ haqqında bircə dənədə olsun əsər yaratmayan rəssamlarımız da var. Bu mövzuya əlbətdəki Röya Həsən də müraciət edib .Onun bu mənada yaratdığı əsərlərdən "Hacı Bədəl körpüsü" (Qubadlı), "Xüdafərin körpüsü" (Cəbrayıl), "Şuşa mənzərəsi", "Xudavəng monastrı"(Kəlbəcər),"Cümə məscidi" (Ağdam), "Laçın mənzərəsi", "Məmmədbəyli Türbəsi" (Zəngilan) və s. məhz Qarabağa həsr olunmuş əsərlər siyahısındadılar. Röya Həsənova magistrant olduğu vaxtdan Qarabağdakı hadisələrlə bağlı,yaşlı qadınların, uşaqların acısını göstərəcək əsərlər ərsəyə gətirmişdir. O, bu mövzuya daha çox pandemiya və 44 günlük müharibə zamanı üstünlük verir. Ruhundakı vətənpərvərlik onu dayanmağa, boş oturmağa qoymur. Müharibə vaxtı ölkəmizə, vətən üçün canından keçməyə hazır olan əsgərlərimizə kömək üçün hər peşə sahibi bir işi yerinə yetiridi ki, səsimizi bütün dünyaya çatdıra bilək. Bunun da bariz nümünəsi müasir dövrdə ən aktual istifadə qaydası və ən çox insanın eşidib görə biləcəyi platforma sosial şəbəkələrdir. Bu zaman bir rəssam nə edə bilər, əlbətdəki öz daxili duyğularını kətana köçürmək. Röya xanımda elə bu zaman kəsiyində öz əsərlərini yaradıb sosial şəbəkələrdə, xarici saytlarda yayılmasına Azərbaycanın tanınması adına müvəffəq olmuşdur. Röya Həsən Qarabağ silsilə əsərlərini də "İz" sərgisi kimi xarici ölkələrdə sərgiləmək arzusundadır.

Röya Həsən hal hazırda Az tv Mədəniyyət kanalında yayımlanan "Sənətim" adlı verlişin ssenari müəllifidir. İstedadlı xanım rəssam dahi rəssamların vurğunu olduğunu daima bildirir. Keçmişi unutmuyan rəssam dahi görkəmli karifey sənətkarlara qiymət verir. Unudulmaz rəssam Səttar Bəhlulzadənin yaradıcılığı onun daima maraq obyektlərindən biridir. Səttar Bəhlulzadə Azərbaycan təsviri sənəti üçün yaradıcılığı boyu çoxsaylı fəaliyyətləri olan dahilərdəndir. Vətəninin gözəlliklərinə həyatı boyu vurğun olan Səttar Bəhlulzadə Azərbaycan mənzərələrini fərqli özünəməxsus şəkildə təsvir edən rəssamlar içərisində ön sıralardadır. Azərbaycanın impressionist rəssamı adlandırılan Səttar Bəhlulzadə plener rəssamlığının təməlini qoyan rəssamlar içərisindədir.

Hal hazırda rəssam 2 ildir ki Azərbaycan Dövlət və Mədəniyyət Universitetində pedaqoji fəaliyyətlə məşğuldur. Bu arada rəssamın bir neçə əsəri universitetin mərtəbə divarlarını bəzəyir. Bu fəaliyyət müddəti ərzində öz səmimiliyi ilə tələbələri tərəfindən sevilməyi bacarmışdır. O, tələbələrinə yalnız sinif otağında deyil, açıq səma altında, hər hansısa sərgidə eskiz, müzakirə etməklə bu sənətin ən incə xırdalıqlarını canlı şəkildə çatdırmağı daha üstün bilir.

## Nəticə

Rəsmin və rəssamın sərbəst olduğu postmodernist cəmiyyətdə öz üsub xüsusiyyətləri ilə seçilmək, öz dəsti xəttini formalaşdırmaq əl əxsusda çəkə bilmək xatirinə hansısa işi çəkmək kimi nüanslar çox vacibdir. Elə bu xüsusiyyətlərinə görə Röya Həsən seçilən rəssamlardandır. Nəticə etibarilə çəkdiyi rəsmlərdə öz düşüncələrini, emosiyalarını tamaşaçıya çatdırmağı bacarır. Gənc və istedadlı rəssam milli mənəvi dəyərlərimiz qoruyub öz əsərlərində bu mövzulara xüsusi yer verir. Röya Həsən sərt fırçası ilə təsviri sənətimizin inkişafına təkan verərək, fəaliyyətini daha da yüksəklərə daşıyır.

## Ədəbiyyat

1. Axundzadə, L. (2011). XX əsr dünya təsviri incəsənəti. Bakı.
2. Thompson, J. (2014). Müasir rəssamlığı necə oxumaq olar, l.ed. Türkiyə: "Dreamerest Publishing House", İSBN 9786058502543.
2. https://525.az/news/170026-azerbaycan-ressamlarini-hamidan-ustun-bilirem-roya-hesenova
3. https://anews.az/az/rya-hesenova-resm-menimcun-bir-nv-xilas-menbeyi-oldu-msahibe/
4. https://www.facebook.com/watch/?v=1635540620131181

5. https://www.facebook.com/search/top/?q=Roya%20Hesenova
6. https://525.az/news/254074-dunyadan-surgun-edilmis--bir-resmin-dedikleri
7. https://www.elibrary.az/docs/jurnal/jrn2017_331.pdf

Göndərilib: 03.01.2024 Qəbul edilib: 25.03.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/143-147

**Aynur Mammadova**
Azerbaijan State Pedagogical University
aynurasadova12@gmail.com
https://orcid.org/0000-0002-7642-020X

# THE ROLE OF LOGIC AND INTUITION IN MATHEMATICS TEACHER TRAINING

## Abstract

The economic and political potential of each state is inextricably linked with its education system. In the conditions of the information society, the training of pedagogical personnel in accordance with the needs of the society and the improvement of their professional development system are always considered as one of the most relevant topics. Science and technology are developing rapidly. The flow of information in society is expanding day by day. In order to meet the new orders, needs and demands of society, it is necessary to apply modern approaches in the field of education. There is no field of science in which mathematical knowledge and skills are not involved in one form or another. In this regard, the role of the mathematics teacher is indispensable in providing all representatives of the new generation with at least a minimum level of mathematical knowledge and skills. The organization of mathematics teacher training at a high level in the conditions of the information society depends on many factors. The characteristics of mathematics require special attention not only to mathematical knowledge, but also to logic and intuition in the training of pedagogical personnel. In the presented article, the role of logic and intuition in the training of mathematics teachers and the possibilities of their application in the training process have been examined.

***Keywords:*** *kadre training, mathematics teacher, logic, thinking, intuition, quality of training, equation, inequality*

**Aynur Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aynurasadova12@gmail.com
https://orcid.org/0000-0002-7642-020X

# Riyaziyyat müəllimi hazırlığında məntiq və intuisiyanın rolu

## Xülasə

Hər bir dövlətin iqtisadi siyasi potensialı onun təhsil sistemi ilə sıx əlaqədardır. İnformasiya cəmiyyəti şəraitində pedaqoji kadrların cəmiyyətin tələbatına uyğun hazırlanması və onların ixtisasartırma sisteminin təkmilləşdirilməsi həmişə aktual mövzulardan biri hesab edilir. Elm və texnika sürətlə inkişaf edir. Cəmiyyətdə informasiya axını günü-gündən genişlənir. Cəmiyyətin yeni sifarişlərinin, ehtiyaclarının və tələbatlarının ödənilməsi məqsədi ilə təhsil sahəsində müasir yanaşmaların tətbiqi zəruridir. Elmin elə bir sahəsi yoxdur ki, riyazi bilik və bacarıqlar bu və ya digər formada orada iştirak etməsin. Bu baxımdan yeni nəslin bütün nümayəndələrinin ən azı minimum səviyyədə riyazi bilik və bacarıqlarla təmin edilməsində riyaziyyat müəlliminin rolu əvəzolunmazdır. İnformasiya cəmiyyəti şəraitində riyaziyyat müəllimi hazırlığının yüksək səviyyədə təşkil edilməsi bir çox faktorlardan asılıdır. Riyaziyyat fənninin xüsusiyyətləri tələb edir ki, pedaqoji kadrların hazırlanmasında yalnız sırf riyazi biliklərə yox, eyni zamanda məntiq və intusiyaya xüsusi diqqət ayrılmalıdır. Təqdim olunan bu məqalədə riyaziyyat müəllimi hazırlığında məntiq və intusiyanın rolu və təlim posesində tətbiq imkanları araşdırılıb.

***Açar sözlər:*** *kadr hazırlığı, riyaziyyat müəllimi, məntiq, təfəkkür, intusiya, təlimin keyfiyyəti, tənlik, bərabərsizlik*

## Introduction

Improvement of the professional methodical training of future mathematics teachers in higher pedagogical educational institutions and organization of cadre training at a high level have always been considered one of the most relevant issues.

In the State Strategy for the development of education in the Republic of Azerbaijan, the organization of teacher training and the requirements for it have been delineated (president.az).

The problems of training pedagogical cadres and teachers in the conditions of the information society have been studied by researchers from various aspects and specific propositions have been made (Mahmudov, 2015; Alekseeva, 2022; Aldoshina, 2020; Penskaya, Prosvirova, 2015). In the independent and creative activity of a mathematics teacher, logic and intuition are usually applied together.

Effective use of teaching methods in the introduction of logic, mathematical logic and its forms increases the quality of teaching. Mathematical concepts used in the training process are replaced by mathematical symbols. Conjunction, disjunction, implication and equivalence of judgments are taught in higher pedagogical schools. But basic information about these concepts is introduced through wording in the high school course.

The high quality of training depends on the methods and approaches used in training. In a nutshell, the formation of mathematical skills and habits of learners and the development of their logical thinking in the training process is closely related to theoretical, practical, methodical structures.

In the training programs of "Mathematics", "Mathematics and Informatics" faculties of pedagogically oriented universities, logical elements are given a wide and detailed place, respectively. Here, the main goal is for future teachers of mathematics, mathematics and informatics to acquire knowledge and skills related to logic.

The word logic is a philosophical concept of Arabic origin, and it is evaluated as a way or method to reality based on intelligence. Thus, elements of logic are used in one way or another in introducing any mathematical concepts and definitions.

Logic and thinking are generally inseparable. That is, if there is logic in training, then there is thinking, and vice versa, if there is thinking, then there is logic.

For example, generalization and abstraction is a logical principle, a training method that is almost always used together in the cognitive process. Although generalization and abstraction is a training method, its application is also related to logic. It is known that a generalization is a certain form – expression of an idea, which highlights any important features that belong only to a given class of objects or relations.

For example, if the proposition B is obtained from the proposition A and the proposition C from the proposition B, then the proposition C is also received from the proposition A. If the proposition itself is logically connected (true), that is, based on thinking, then the stated condition can be accepted.

Let's have a look at such an example: proposition A - "A parallelogram is a quadrilateral", proposition B - "A rhombus is a parallelogram", proposition C - "The diagonals of a rhombus are mutually perpendicular". That is, a rhombus is a quadrilateral with mutually perpendicular diagonals. This proposition is true. Let's assume that the proposition D is of the form "Quadrilaterals whose diagonals are mutually perpendicular are rhombuses". In other words, the proposition "quadrilaterals whose diagonals are mutually perpendicular are rhombuses" is not true. Because the fact that the diagonals are perpendicular does not mean that the given quadrilateral is a rhombus. For example, the diagonals of an equilateral trapezoid can be mutually perpendicular. Thinking, logic and intuition are applied in a combinational form in mathematics training.

Analytical (functional) and intuitive thinking can be characterized in a more concrete way. Analytical thinking involves reporting (analyzing) statements at each mathematical stage and giving detailed information to others (learners) about each mathematical pattern understood. Unlike

analytical thinking, in intuitive thinking, it is impossible to justify each mathematical definition and concept in stages (Kolyagin, 1977).

Along with mathematical logic, formal logic is also used in the formation of each mathematical concept. Therefore, the conclusions based on the mentioned conjunctions can be true or false. The transformation of words into mathematical symbols and, conversely, the interpretation of mathematical symbols in the language of theory is formed on the basis of certain thinking and judgments.

Disjunction, conjunction, implication, equivalence of considerations in the mathematics course of higher pedagogical schools is a generalization of the mathematical symbols of the abovementioned words.

To determine whether a mathematical proposition is true or false, it is necessary to check the basic concepts and axioms of the corresponding theory. For example, the conjunction "or" is one of the distributive conjunctions and is used in meanings such as separation, distribution, differentiation. When it is possible to determine whether any proposition is true or false, it becomes an opinion (Zamanov, Valiyev, 2019).

The compound judgment obtained by combining the judgments A and B with the conjunction "or" is called the disjunction of these judgments and is mathematically denoted as AVB. Here, the symbol "V" replaces the conjunction "or". After accepting the mathematical symbol of disjunction, elements of logic are applied during the use of these or other symbols in mathematical operations (Stolyar, 1965).

Usually, disjunction is derived from the Latin word "disjunctio", which means to separate, divide. When these are taken into account when solving equations and inequalities, it is impossible to get extraneous roots (wrong results) or to lose any roots.

Since the predicate is considered in the specific values of the variable, the values that these variables can take are included with the help of certain quantifiers. In logic, words that turn a predicate into a proposition are called quantifiers. The following types of quantifiers are mainly used in mathematical logic:

1. Generality quantifier. This means "arbitrary", "any" value of the variable and is mathematically denoted as "$\forall$ x".

2. Existence quantifier. The words "there is, can be found, any, some" are used here and are symbolically marked as "$\exists$".

3. Uniqueness quantifier. Here the words "only, solely, only one" are used and is symbolically denoted as "$\exists$"!

These quantifiers are widely used in solving equations, inequalities, and especially in proving theorems. Although the mathematical symbols of these quantifiers are included in higher schools, the knowledge about their application is still formed in the middle school course.

Let’s consider the following exercises:

Exercise 1. The root of the equation $\frac{(x-2)(x-3)}{5}=0$ (1) is true only at x=2 and x=3 values of the variable.

Exercise 2. The root of the equation $\frac{(3x-6)\cdot(1{,}5x-4{,}5)}{x^2-4}=0$ (2) is true only at the value x=3.

For the solution of equation (1), we can say the following considerations:

- the equation is true at the value x=2 of the variable;
- the equation is true at the value x=3 of the variable;
- the equality is true at x=2 and x=3 values of the variable;
- the equality is true at x=2 or x=3 values of the variable.

Although the last consideration here is generally true, it does not cover the complete solution of the equation. If we enumerate these notations with the same rule for equality (2), the content will change. So, for the fraction to be equal to zero, its numerator must be equal to zero. However, since the denominator of the fraction depends on the variable, the stated condition cannot be accepted here. Here, the fact that the denominator is equal to zero when x=2 limits the stated condition. The

limitation in the definition of the concept is determined by the dependence between the content and the scope of the concept. Therefore, the application of disjunction, conjunction, or other actions is taken as the result of a logical approach.

In order for the complex proposition obtained through the conjunction "or" to be false, propositions A and B must each be false. In all other possible cases, the right judgment is taken. Since judgment is a special case of predicate, all actions performed on judgments are also performed on predicates.

The concept of predicate, the definition domain of the predicate and the domain of truth are taught in the mathematics course of the higher school. Logical elements are indirectly used in introducing the concept of equation, system of equations, inequality, system of inequalities and their solutions in the middle school course. Solving the equation, the root of the equation, coincides with the domain of definition and the domain of truth of the predicate concept. For example, the set of the predicate A(x)-«3x-14=25», i.e., the values taken by the variable, is the set of all real numbers. The truth set of this predicate is the value of the variable that turns the predicate into a true equality. This value of the variable is equal to 13. Therefore, the truth set of a predicate is a subset of its definition domain. The inclusion of the properties of mathematical concepts and the proof of theorems are directly related to the elements of logic.

Since the predicate is considered in the specific values of the variable, the values that these variables can take are included with the help of certain quantifiers.

In logic, words that turn a predicate into a proposition are called quantifiers. In mathematical logic, we can solve specific problems using types of quantifiers.

Exercise 1. Find the largest and smallest natural values that n can take for the fraction $\frac{5n-12}{3n+17}$ to be a proper fraction. The solution of this exercise is brought to the solution of inequalities. So, for a fraction to be a proper fraction, its numerator must be smaller than its denominator. That is, 5n-12<3n+17. This is true when 2n<30, that is, n<15. According to the condition of the exercise

The inequalities $\begin{cases} n < 15 \\ 5n - 12 \geq 1 \\ n \in N \end{cases}$ (3) must also be met.That is n$\geq 2{,}5$ and n$< 15.$

This means that the smallest natural value of n is equal to 3, and the largest natural value is equal to 14. Now let's change the condition of the exercise.

Exercise 2. Find the largest and smallest natural values that n can take so that the fraction $\frac{5n-12}{3n+17}$ is an improper fraction. The inequalities for this case will be as follows:

$$\begin{cases} 5n - 12 \geq 3n + 17 \\ 5n - 12 \geq 1 \\ n \in N \end{cases}$$

Here, n≥15 and n≥2.5. This means that the smallest value is equal to 15. According to the properties of natural numbers, the largest value cannot be determined.

In the solution of these last two exercises, the required largest and smallest values of natural numbers are connected with logical judgment. So, logically, the solution of problem 2 could be written corresponding to the solution of problem 1. For this reason, the result of logical operations can be directly applied to the reasoning.

In the general case, there are some analogies in solving equations and inequalities. But logically, applying an analogy without a full analysis of some features may lead to wrong results.

Disjunction of propositions is a special case of disjunction of predicates. Predicates can also be linked using the conjunction "or". The set-builder notation of the predicate, the set of values concepts are introduced by moving from general to specific.

A predicate that is true if at least one of the predicates P(x) and Q(x) turns into a true statement for all x taken from the set-builder notation is called the disjunction of the predicates P(x) and Q(x), and the mathematical symbol is the same as the disjunction of the propositions. From the truth of the disjunction of considerations, one can logically draw up the truth table of the disjunction of predicates. That is, the disjunction of two predicates is considered false when both predicates P(x) and Q(x) for x taken from the set-builder notation become false at the same time.

Let's assume that the predicates P(x)-«2x+1<9», Q(x)- «x+2>5», whose set-builder notation is the set X and are assigned to the particle $x\epsilon N$ /-1$\leq x \leq$ 8, are given. If we connect these predicates with the conjunction «or», the resulting complex predicate will be in the form «2x+1<9» or «x+2>5». This predicate becomes a judgment at the specific value of the variable, and according to the definition of the disjunction of the judgment, the disjunction of the predicates can also be defined.

According to the condition, the truth set of the predicate P(x) defined in this set X consists of the set E= {1,2,3}, and the truth set of the predicate Q(x) consists of the axis F= {x∈N/x>3}. This disjunction of the predicate P(x) and Q(x) forms the set E∪F, and the result is equal to the set E∪F={ ∀x∈N}. This makes at least one of the predicates P(x) and Q(x) true at any value of the set E∪F.

## Conclusion

This means that equations and inequalities are a special case of the predicate. Depending on the number of variables, the result of operations on predicates brought to one-variable, two-variable, etc. equations and inequalities.

In many fields of science, especially medicine, mathematics, physics, law enforcement, etc. mathematical logic is widely used. When logic, judgment and intuition are applied together in mathematics teacher training, students' enthusiasm for independent activity and research increases. This can be formed in the joint solution of theoretical and practical issues.

## References

Received: 09.02.2024 Accepted: 15.04.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/161-165

**Gülçöhrə Hüseynzadə**
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət
İdarəçilik Akademiyası
magistrant
guluhussain98@gmail.com

# VAHİD MƏHKƏMƏ TƏCRÜBƏSİ PRİNSİPİNİN MİLLİ HÜQUQ SİSTEMİNDƏ YERİ

**Xülasə**

Məhkəmə təcrübəsi - hüquqi tənzimləmə mexanizminin bir halqasıdır. Hüquqi tənzimləmə mexanizmi isə dövri olmaqla, hüquqyaradıcılığı ilə bağlanır. Bundan sonra hüququn realizəsi və hüququn tətbiqi mərhələləri başlayır ki, bu mərhələlər də öz növbəsində yeni hüquqyaradıcılığına təkan verir. Hüquqi tənzimləmə mexanizmində məhkəmə hakimiyyətinin əsas funksiyası hüququn tətbiqidir. Lakin mexanizmdə hüquqtətbiqetmə hüquqyaradıcılığının yeni bir qolu ilə kəsişir. Burada isə əsas rolu məhkəmə presedenti oynayır.

Presedent latın sözü olub (praesedentis) sözündən götürülüb mənası əvvəlki, qabaqkı, əvvəl gələn mənasını verir. Məhkəmə presedenti konkret iş üzrə çıxarılmış elə qərardır ki, bu qərar analoji işlərin həll zamanı həmin məhkəmə və ya aşağı instansiya məhkəmələri üçün məcburi xarakter daşıyır.

Ən geniş mənada məhkəmə presedenti konkret iş üzrə məhkəmənin çıxardığı elə qərardır ki, bu qərar gələcəkdə hakimlərə analoji işlərin həlli zamanı qərarnı çıxarılmasına yardımçı olur. Bu mənada «presedent» termini məhkəmə qərarından başqa bir şey deyildir. Buna görə də prinsip etibarı ilə məhkəmələrin qərarları presedent hüquq kimi qəbul olunur.

***Açar sözlər:*** *məhkəmə presedenti, hüququn mənbəyi, Ali Məhkəmə, davranış qaydaları, normative aktlar*

**Gulchohra Huseynzade**
The Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
master student
guluhussain98@gmail.com

# The place of the principle of unit court practice in the national legal system

**Abstract**

The court is a link of the legal regulation mechanism. It is periodically closed by legal regulation mechanism. After that, the stage of realization and application of the right is started, and these stages, in turn, give impetus to new law-making. The main functions of management in the legal regulatory mechanism are the application of law. But in the process, law enforcement intersects with a new branch of law-making. Court precedent plays the main role here.

Precedent is derived from the Latin word praesetis and means previous, former. A judicial precedent is a specific decision established in a case, which is binding for the court or lower instance districts during the resolution of similar cases.

In the broadest sense, a court precedent is a decision issued by a court on a specific case, which helps judges to make a decision during the resolution of analogies. In this sense, the term "precedent" is nothing but a court decision. Therefore, in principle, court decisions are accepted as presidential rights.

***Keywords:*** *judicial precedent, source of law, Supreme Court, rules of conduct, normative acts.*

## Giriş

Hüquq ədəbiyyatında hüquqi presedent konkret iş üzrə qəbul edilən və analoji xarakterli işlərə baxılması zamanı nümunə kimi istifadə edilən qərarlar kimi göstərilir (Lazareva, 1996, 35-36; 1999, 332).

Hüquqi tənzimləmə mexanizmində məhkəmə presedenti - hüququn tətbiqini və hüquqyaradıcılığın birləşdirir. Buna müvafiq olaraq da məhkəmə presedentlərinin mövcudluğunun qanunvericilik qaydasında təsbit olunması və onların tətbiqinə məhdudiyyətlərin müəyyən olunması daha məqsədəmüvafiq olardı.

Hazırda Azərbaycan Respublikasının Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsində təsbit edilmiş normativ aktlar sistemində (Konstitusiya, referendumla qəbul edilmiş aktlar, qanunlar, fərmanlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları) məhkəmə aktlarına toxunulmur. Ümumilikdə isə qanunvericilik sistemində yalnız Konstitusiya Məhkəməsinin qərarlarının hüququn mənbəyi qismində statusu tanınır. Belə ki, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 4.1.1-ci maddəsinə əsasən Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları Azərbaycan Respublikasının normativ xarakterli aktları siyahısına aid edilmişdir (2).

Normativ hüquqi aktlar səlahiyyətli orqan və vəzifəli şəxslər tərəfindən birtərəfli qaydada qəbul olunur. Qanunlar parlamentin, onun komitələr, deputatlarının və Konstitisiya ilə təsbit edilmiş digər subyektlərin təşəbbüsü ilə qəbul oluna bilər. Z.Ə.Əsgərov qeyd edir ki, qanunvericilik sisteminin formalaşdırılması ilə bağlı subyektlər (dövlət orqanları), onların hüquq və vəzifələrini birmənalı olaraq müəyyən etmək çox çətindir. Məntiqi olaraq belə nəticəyə gəlmək olar ki, normativ hüquqi aktı qəbul edən bütün hakimiyyət orqanları bu münasibətlərin subyektidir. Lakin onların hüquq və vəzifələri ilə bağlı (qanunvericilik sisteminin formalaşdırılması) hər hansı norma tapmaq çətindir. Yenə də hüquqi məntiq əsasında müəyyən etmək olar ki, konstitusiyanın nəzərdə tutduğu tələblərə riayət etmək bu sistemin yaradrlmasıda iştirak edən hər bir orqanın vəzifəsidir (Əsgərov, 2011: 46-47).

Məhkəmə presedentinin hüququn mənbəyi qismində tanınması həm hüquqda, həm də normativ hüquqi tənzimləmədəki boşluqların doldurulmasına səbəb ola bilər. Çünki qanunvericidən qanunun normalarında həyatda baş verən çoxtərəfli konkret situasiyaları əhatə etməsini tələb etmək olmaz. Təbii ki, bu məsələ ilə hüquqda olan boşluqları dolduran məhkəmələr məşğul olurlar. Məhkəmə presedentinin daha geniş mənada məhkəmə təcrübəsinin hüququn mənbəyi qismində tanınması hüququn sonrakı inkişafı və təkmilləşdirilməsi üçün əlverişli şərait yarada bilər.

Məhkəmə presedentlərinin hüququn mənbəyi kimi çıxış etməsinin səbəblərindən biri onunla bağlıdır ki, qanunlar qanunverici orqanın aktı olmaqla, bütün ictimai münasibətləri əhatə edə və tənzimlədiyi sahədə bütün vəziyyət və münasibətləri əhatə edə bilmir. Bununla bağlı olaraq İ.İlin qeyd edir ki, qanun yalnız ümumi qaydaları müəyyən edə bilər. Ona görə də qanun "öz normalarında insanlar, hadisələr, münasibətlər, səlahiyyət və vəzifələr haqqında ümumi qaydada söhbət açır, onların bir cəhət və xüsusiyyətini qeyd edir, digərlərini isə diqqətindən kənarda saxlayır" (İlin, 2003: 214-218). Məhz bu cəhət qanunlarda müəyyən vaakum - boşluq yaradır. Həmin boşluq isə məhz məhkəmə tərəfindən konkret hüquq münasibətinə hüquq normasının tətbiqi zamanı doldurulmalıdır (İbayev, 2007: 608).

Rəsmi səviyyədə ilk dəfə artıq qüvvədən düşmüş olan "Normativ hüquqi aktlar" Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il haqqında Qanununun 3.1-ci maddəsində məhkəmə presedenti, daha dəqiq desək Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-6, 8-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlar normativ xarakterli akt kimi qanunvericilik səviyyəsində hüquqin mənbəyi kimi təsbit edildi (6).

Konstitusiya Məhkəməsinin qərarlarının bu cür qüvvəsi "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununun 75-ci maddəsindən irəli gəlir. Həmin maddəyə əsasən

Konstitusiya Məhkəməsinin qərararları qətidir, heç bir orqan və ya şəxs tərəfindən şərh edilə və dəyişdirilə bilməz (7). Bu müddüa Konstitusiya Məhkəməsinin qərarlarının normativ sistemdə hətta qanunlar o, cümlədən Konstitusiya qanunlarından yuxarı hüquqi qüvvəyə malik olması haqqında fikir yürütməyə imkan verir, çünki müvafiq normativ akt Konstitusiyaya uyğun olmadıqda Konstitusiya Məhkəməsi onu qüvvədən salmaq səlahiyyətinə malikdir. Ona görə də bu qərarlar Konstitusiya ilə digər normativ aktlar arasında aralıq mövqe tutur.

Hüquqşünas alimlər də Konstitusiya Məhkəməsinin qərarları hüququn mənbəyi kimi qəbul edilməsinin tərəfdarı olmuşlar. D.İ.Naftaliyeva qeyd edir ki, Konstitusiya Məhkəməsi tərəfindən hazırlanmış, rəsmi elan olunmuş, aşağı instansiya məhkəmələri üçün məcburi olan Konstitusiya Məhkəməsinin qərarları presedent xarakteri daşıyır. Məhz buna görə Konstitusiya Məhkəməsinin qərarları hüququn mənbəyidir (Naftaliyeva, 2006: 15). R.H.Sadıqov isə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin, o cümlədən yuxarı instansiya məhkəmə kimi Ali Məhkəmənin qəbul etdiyi qərarların hüququn mənbələri sistemində rolu ilə bağlı hüquq ədəbiyyatında mövcud olan mübahisələri təhlil edərək belə qənaətə gəlmişdiki, bu aktlar müvəqqəti də olsa, hüququn mənbəyi kimi qəbul edilməlidir. Müəllif hüquqi tənzimetmədə mövcud olan boşluqları tamamlayan bu qərarları müsbət qiymətləndirərək hesab edir ki, bazar iqtisadiyyatı münasibətlərinə keçidlə əlaqədar qanunvericilikdəki boşluqları operativ və çevik şəkildə aradan qaldırmaq üçün məhkəmələrin norma yaradıcılığına yeni imkanlar verilməlidir (Sadıqov, 2006, 16).

Rusiyalı alimlərdən V.A. Kryajkov da belə bir fikir mövcud idi ki, Konstitusiya Məhkəməsi neqativ qanunverici rolunda çıxış etməklə qüsurlu hüquq normalarını hüquq sistemindən kənarlaşdırır (Kryazhkov, Lazarev, 1998: 242).

Qanunvericilikdə son aparılan islahatlardan sonra Ali Məhkəmənin aktlarının hüquqi mənbəyi qismində tanınması məsələsi yenidən aktuallaşdırmışdır.

Sovet hüquq nəzəriyyəsində Ali Məhkəmə Plenumunun qərarlarının rolu ilə bağlı üç mövqe mövcud idi: Birinci mövqeyə görə bu aktları hüququn mənbəyi hesab etmək lazım idi. Digər qrup isə bunu tamamilə inkar edirdi. Üçüncü qrup alimlər isə kompramisə gedərək qeyd edirdilər ki, Ali Məhkəmə Plenumunun bu cür fəaliyyəti hüquq yaradıcılığı ilə hüquq tətbiqi fəaliyyət arasında orta mövqe tutur.

Ali Məhkəmə Plenumunun qərarları rəhbər xarakterə malik olmaqla qanun çərçivəsində hüquq norması olmaqla konkret işlərdə məhkəmələr üçün məcburi xarakter daşıyırdı. Bu ondan irəli gəlirdi ki, «SSRİ Ali Məhkəməsi haqqında» 30 noyabr 1979-cu il qanununda bu qərarların məhkəmələr, qanunu tətbiq edən digər orqanlar və vəzifəli şəxslər üçün məcburi xarakter daşıması barədə müddəa mövcud idi.

Praktiki planda SSRİ Ali Məhkəməsinin, həm də müxtəlif ölkələrin Ali Məhkəmələrinin Plenumları tərəfindən onlarda mövcud olan səlahiyyətlər çərçivəsində qanunvericiliyin düzgün və eyni cür tətbiqi ilə bağlı aşağı məhkəmələr üçün rəhbər izahların verilməsi qanunverici tərəfindən həvalə olunmasa da, məhkəmə hüquqyaradıcılığını həyata keçirmələri demək idi. Çünki bu dövrdə qanunverici tərəfindən məhkəmələrə qanunvericilik təşəbbüsü hüququ və ya müvafiq orqanlara qanunun şərhi ilə bağlı vəsatətlə müraciət etmək hüququ verilmişdi. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlarının əksəriyyətində məhkəmələr tərəfindən SSRİ Ali Məhkəməsi Plenumu qərarlarında ifadəsini tapmış göstərişlərə əməl edilməsi tələb olunurdu (İbayev, 2007: 609).

Bununla da qanunvericilikdə təsbit edilməsə də Ali Məhkəmənin kollegiyaları və plenumları tərəfindən qəbul olunan qərarlar təcrübədə birbaşa olaraq məhkəmə presedenti qismində istifadə olunurdu. Məhkəmə instansiyalarının konkret mülki və cinayət işləri üzrə qərarlarının dərc olunması maraqlı şəxslərə analoji kateqoriya işlər üzrə oxşar hallarda aşağı instansiya məhkəmələri tərəfindən oxşar qərarların çıxarılmasına nail olmağa imkan verirdi.

Alimlərin də görüşləri faktiki olaraq bu istiqamətdə idi. V.M.Juykov belə hesab edirdi ki, Ali Məhkəmənin Plenumunun qərarlarında əks olunan faktiki məhkəmə presedenti həmişə faktiki olaraq hüququn mənbəyi qismində tanınıb. Belə ki, aşağı instansiya məhkəmələrinin qərarlarında işin həllinin hüquqi əsasları kimi bu qərarlara istinad olunurdu. Həmçinin rəsmi olaraq qəbul

olunmasa da, aşağı instansiya məhkəmələri tərəfindən hüququn tətbiqi və şərhi məsələlərində, hüquqda boşluqların aradan qaldırılmasında, qanunun və hüququn analogiyası zamanı orientir qismində istifadə olunurdu (Zhuykov, 2008: 832).

Ölkəmizin bəzi tədqiqatçıları isə yuxarı instansiya məhkəmələrinin (əsasən də Ali Məhkəmənin) qərarlarını hakimiyyətin bölünməsi prinsipinə və qanunun aliliyinə zidd hesab edirlər və ona görə hüququn mənbəyi kimi qəbul etmirlər. Eyni zamanda onlar göstərirlər ki, məhkəmələrin fəaliyyəti hüquq yaratmaq deyil, hüquq (norma) tətbiq etməkdən ibarətdir (Qasımov, 2005, 46; 1988: 153).

Ölkəmizin ilk müstəqil Konstitusiyasında Ali Məhkəmənin rəhbər izahlarının məcburi xarakteri təsbit edilməsə də son dövrlər prosessual qanunvericilikdə bu məsələyə baxışın dəyişməsi onların normativ xarakterə malik olmasını da aktuallaşdırmışdır. Qeyd edildiyi kimi, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarını normativ xarakterli aktları siyahısına aid edilmişdir. Konstitusiya qanununun 1.0.3-cü maddəsinə əsasən isə normativ xarakterli aktların aşağıdakı əlamətlərini müəyyən etmək olar:

- məcburi davranış qaydalarını əks etdirməsi;
- məhdud subyektlər dairəsi üçün nəzərdə tutulması;
- dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulması;
- müəyyən formalı rəsmi sənəddə əks olunması (14).

## Nəticə

Aparılmış təhlillər əsasında Ali Məhkəmə Plenumunun vahid məhkəmə təcrübəsinə dair izahları, həm də Ali Məhkəmənin müvafiq kollegiyalarının məhkəmə təcrübəsinin vahidliyini təmin edən aktları (qərar və qərardadlarına) normativ xarakterli aktlara xas olan xüsusiyyətlərə malik olması qənaətinə gəlinir. Belə ki, bu aktlar özündə məcburi davranış qaydalarını əks etdirir, məhdud subyektlər dairəsi – məhkəmələr üçün nəzərdə tutulub, dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulur və müəyyən formalı rəsmi sənəddə (qərar və qərardadda) əks olunur.

Qeyd edilənlər əsasında hesab edirik ki, Ali Məhkəmə Plenumunun vahid məhkəmə təcrübəsinə dair izahlarının və Ali Məhkəmənin müvafiq kollegiyalarının məhkəmə təcrübəsinin vahidliyini təmin edən aktları normativ xarakterli aktlar hesab edilir bununla bağlı "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa müvafiq dəyişikliklər təklif edilir.

## Ədəbiyyat

1. Lazareva, V.V. (1996-1999). Obshchaya teoriya prava i gosudarstva. M., s.35-36; Teoriya gosudarsta i prava. Kurs lektsiy. Pod red. N.I.Matuzova, A.V.Mal'ko. M., 332 s.
2. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu. https://e-qanun.az/framework/21300
3. Əsgərov, Z.A. (2011). Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 760 s, s.46-47.
4. Ilin, I.A. (2003). O sushchnosti pravosoznaniya. Teoriya prava i gosudarstva pod. red. i s predisl. V.A.Tomsinova. M., s.214-218.
5. İbayev, V.Ə. (2007). İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentləri hüququn mənbəyi kimi. Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 17-ci buraxılış. Bakı, s.608. (606-613).
6. "Normativ hüquqi aktlar" Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il haqqında Qanunu https://e-qanun.az/framework/102#_edn1
7. "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/5404
8. Naftaliyeva, D.İ. (2006). Konstitusiya Məhkəməsi qərarlarının hüquqi təbiəti. Hüquqi dövlət və qanun, № 4, 15 s.

9. Sadıqov, R.H. (2006). Sosial təminat hüququnun mənbələri. Diss... avtoref. hüq. elm. nam. Bakı, 16 s.
10. Kryazhkov, V.A., Lazarev, L.V. (1998). Konstitutsionnaya yustitsiya v Rossiyskoy Federatsii. M., 242 s.
11. İbayev, V.Ə. (2007). İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentləri hüququn mənbəyi kimi. Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 17-ci buraxılış. Bakı, s.609 (606-613).
12. Zhuykov, V.M. (2008) Kommentariy k postanovleniyam Plenuma Verkhovnogo Suda Rossiyskoy Federatsii po grazhdanskim delam. M.: Norma, 832 s.
13. Qasımov, A.M. (1988-2005). Əmək hüququ. Ümumi hissə: Dərs vəsaiti. Bakı: Qanun, 46 s.; Məlikova M.F. Dövlət və hüquq nəzəriyyəsi. Bakı: Maarif, 153 s.
14. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu. https://e-qanun.az/framework/21300

Göndərilib: 05.03.2024 Qəbul edilib: 19.04.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/166-171

**Əli Əhmədov**
Bakı, Azərbaycan
ali.v.ahmadov@gmail.com

# VERGİ YÜKÜ, ONUN HESABLANMASI METODLARI, BÜDCƏ GƏLİRLƏRİNƏ VƏ İQTİSADİYYATA TƏSİRİ

## Xülasə

Vergi yükü vəsaitlərin vergilərin ödənilməsinə yönəldilməsi ilə digər mümkün istifadə istiqamətlərindən ayrılmasından yaranan iqtisadi məhdudiyyətlərin səviyyəsi, dərəcəsidir. Başqa sözlə desək, hər bir ödəmənin yaratdığı yükdür.

Dünya vergi praktikasında makrosəviyyədə vergi yükü göstəricisi kimi verginin hansı səviyyəli büdcəyə və büdcədənkənar fondlara ödənilməsindən asılı olmayaraq vergi ödəyicilərindən alınan bütün vergi məbləğinin hasil olunmuş ÜDM-un həcminə nisbəti götürülür.

İqtisadi cəhətdən dünyanın əksər inkişaf etmiş ölkələri hal-hazırda, ÜDM və milli gəlirin vergi sistemi vasitəsilə yenidən bölüşdürülməsi üzrə praktiki olaraq maksimal mümkün səviyyəni əldə etmişlər. Ona görə bu ölkələrin büdcəsinə gəlir daxilolmalarının sonrakı artımı əsasən vergilərin alınması strukturunda dəyişikliklərin edilməsi hesabına mümkündür və bunun da əsasında vergi məbləğlərinin artımı ilə ÜDM-un həcminin artımı arasında düz asılılıq təmin olunur. Vergi dərəcələrinin artımı və yaxud vergi güzəştlərinin ləğvi hər hansı bir ölkənin iqtisadi və sosial həyatında mənfi nəticələrin alınmasına gətirib çıxarır.

***Açar sözlər:*** *vergi yükü, fiskal siyasət, kassa metodu, hesablama metodu, tənzimləyici funksiyalar*

**Ali Ahmadov**
Baku, Azerbaijan
ali.v.ahmadov@gmail.com

## Tax burden, its calculation methods, impact on budget revenues and economy

## Abstract

The tax burden is the level and degree of economic restrictions arising from the allocation of funds to the payment of taxes from other possible directions of use. In other words, it is the burden created by each payment.

In world tax practice, as a tax burden indicator at the macro level, the total amount of tax received from taxpayers to the volume of GDP is taken, regardless of whether the tax is paid to the national budget and extra-budgetary fubds.

Economically, most of the developed countries of the world have now achieved practically the maximum possible level of redistribution of GDP and national income through the tax system. Therefore, the subsequent growth of revenue inflows to the budget of these countries is possible mainly due to changes in the structure of tax collection, and on the basis of this, a direct relationship betwen the growth of tax amounts and the growth of tax amounts and the growth of GDP is ensured. An increase in tax rates or the cancellation of tax benefits leads to negative consequences in the economic and social life of any country.

***Keywords:*** *tax burden, fiscal policy, cash method, calculation method, regulatory functions*

## Giriş

Vergilər ictimai məhsulun bir hissəsinin məcburi ödəniş şəklində dövlətin maliyyə sisteminin formalaşmasının əsas mənbəyi kimi hələ çox qədim zamanlardan məlumdur. Vergitutma iqtisadi

mədəniyyətin bir elementi kimi təsərrüfatın bazar və ya qeyri-bazar tipindən asılı olmayaraq bütün dövlət sistemlərinə xasdır. Bununla əlaqədar olaraq vergitutma barədə bəşər sivilizasiyasının fenomeni, onun ayrılmaz hissəsi kimi danışmaq olar.

"Vergitutmanın nəzəri və praktiki problemləri Avropada XVIII əsrin sonlarından işlənib hazırlanmağa başladı. Fransız alimi F.Kene ilk dəfə olaraq vergiqoyma ilə xalq təsərrüfatı arasında üzvü əlaqənin mövcudluğunu əsaslandırdı. 1776-cı ildə vergiqoyma nəzəriyyəsinin banisi, şotlandiyalı iqtisadçı və maliyyəçi A.Samit "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" adlı kitabını nəşr etdirdi. A.Samitin ideyaları bir sıra dövlətlərin maliyyə və təsərrüfat həyatına əsaslı təsir göstərdi" (1).

Vergi yükünün optimal səviyyəsinin müəyyən edilməsi problemi inkişaf səviyyəsindən asılı olmayaraq istənilən ölkənin vergi sisteminin qurulması və təkmilləşdirilməsində mühüm rol oynayır.

"Beynəlxalq vergitutma təcrübəsi göstərir ki, vergi ödəyicilərindən tutulan vergilər onun məcmu gəlirinin 30-40 faizindən çox olduqda iqtisadi fəallığın səviyyəsi aşağı düşür, ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi azalır, ölkədəki biznes mühiti öz cazibədarlığını itirir. Bununla əlaqədar olaraq dövlətin vergi siyasəti vergi yükünün optimal səviyyəsinə nail olmağa yönəldilməlidir.

Lakin bir çox ölkələrdə vergi yükü göstəricisinin kəmiyyəti yüksəkdir. Məsələn, İsveçdə vergi sistemi elə qurulmuşdur ki, vergi ödəyiciləri özlərinin gəlirlərinin 50 % və daha artıq hissəsini dövlət xəzinəsinə ödəyirlər. Bu heç də onların istehsalın inkişafına marağını azaltmır.

Vergi yükünün hesablanmasında müxtəlif yanaşmalar mövcuddur. Məsələn, vergi potensialının, əhaliyə düşən vergi yükünün səviyyəsinin, makro səviyyədə vergi yükünü və onun dinamikasını müəyyən edən və ölkə iqtisadiyyatının əsas makroiqtisadi göstəriciləri əsasında təyin olunan vergilərin ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisinin daxilolmalarının cəminin ÜDM-in həcminə nisbətinin faizlə ifadəsi kimi təyin olunur" (2)

Dövlətin vergi sistemi maliyyə ehtiyaclarına olan tələbatını təmin etməklə yanaşı, vergi ödəyicilərinin sahibkarlıq fəaliyyətinə olan marağını artırmalı və eyni zamanda, onları daim təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi yollarının axtarışına sövq etməlidir. Təsərrüfat subyektlərinə düşən vergi yükü dövlətin həyata keçirdiyi vergi siyasətinin nəticəsi olmaqla vergi sisteminin keyfiyyət xarakteristikası sayılır.

Vergi yükünün yüksəldilməsi ilə dövlət xəzinəsinə daxil olan vergi sistemi nəzəriyyəsini XX əsrin ikinci yarısının başlanğıcında professor A.Laffer qurmuşdur.

Lafferin nəzəriyyəsinə görə vergi dərəcələrinin müəyyən həddə qədər yüksəldilməsi vergi daxilolmalarının artımına imkan verirsə, həmin həddə özünün maksimum qiymətini alır. Sonra isə büdcə daxilolmaları kəskin azalır. Lafferə görə vergi yükünün əsaslandırılmamış şəkildə artırılması iqtisadiyyatın gizli sektorunun inkişafının birbaşa şərti kimi çıxış edir.

Laffer göstərmişdir ki, yalnız vergi yükünün azaldılması sahibkarlıq fəaliyyətini stimullaşdırır və təşəbbüskarlığı inkişaf etdirir. Bu zaman dövlət gəlirlərinin artımı məhsul (iş, xidmət) istehsalçılarına düşən vergi yükünün artırılması hesabına vergitutma bazasının genişləndirilməsi əsasında baş verir.

"Vergi yükünün hesablanmasına müxtəlif yanaşmalar mövcuddur. Məsələn, vergi potensialının, əhaliyə düşən vergi yükünün səviyyəsinin, makro səviyyədə vergi yükünü və onun dinamikasını müəyyən edən və ölkə iqtisadiyyatının əsas makroiqtisadi göstəriciləri əsasında təyin olunan vergilərin Ümumi Daxili Məhsulda (ÜDM) xüsusi çəkisinin hesablanması metodikaları məlumdur" (3).

Optimal şəkildə qurulmuş vergi yükü sistemi bir tərəfdən dövlətin maliyyə vəsaitlərinə olan tələbatını təmin etməli, digər tərəfdən isə vergi ödəyicisinin sahibkarlıq fəaliyyətinə olan marağını artırmalı, onu hətta təsərrüfatçılığın səmərəliliyini yüksəltmək üçün mütəmadi olaraq yollar aramağa həvəsləndirməlidir. Bu mənada vergi yükü göstəricisi ölkənin vergi sisteminin keyfiyyət ölçüsüdür.

"Məlum olduğu kimi, vergi ödəyicisinin üzərinə düşən vergi yükünün artması nəticəsində əvvəlcə vergi sisteminin səmərəliliyi yüksəlir və öz maksimumuna çatır, sonra isə kəskin surətdə aşağı düşür. Bu zaman büdcə sisteminin itkilərinin yeri doldurulmaz olur, çünki vergi ödəyicilərinin müəyyən hissəsi ya müflisləşir, ya da öz fəaliyyətini dayandırır. Digər hissəsi isə ödəməli olduqları vergilərin məbləğinin minimallaşdırılmasının qanuni və ya qeyri-qanuni yolunu tapırlar. Sonradan vergi yükünün səviyyəsi aşağı salındıqda belə dağılmış istehsalı bərpa etmək üçün illər tələb olunur. Bundan başqa, vergidən yayınmanın real yolunu tapan vergi ödəyicisi vergi yığımlarının əvvəlki səviyyəsi bərpa olunduqda belə vergiləri tam həcmdə ödəməyəcək.

Buna görə də vergi yükünün optimal səviyyəsinin müəyyən edilməsi problemi inkişaf səviyyəsindən asılı olmayaraq istənilən ölkənin vergi sisteminin qurulması və təkmilləşdirilməsində mühüm rol oynayır" (4).

Ümumiyyətlə vergilərdən qaynaqlanan yük biznes strukturlarına müsbət və mənfi təsir göstərə bilər. Dövlət müxtəlif səbəblərdən dolayı vergilər tətbiq edə bilər: bu insanların gəlirlərinin yenidən bölüşdürülməsi prosesi olduğu kimi, eyni zamanda xarici iqtisadi təsirlərin qarşısının alınması da ola bilər.

Vergi yükünün vergi ödəyicilərinə təsiri istər mikro, istərsə də makro səviyyədə nəzərdən keçirilməsi aktual mövzudur.

Dünya vergitutma təcrübəsində vergi sistemlərində aparılan islahatların əsas istiqamətlərindən biri də vergilərin və yığımların sayının azaldılması, vergi tutulan bazanın və vergi dərəcələrinin optimallaşdırılması, güzəştlərin siyahısına yenidən baxılması hesab edilir. Bu, vergi ödəyicilərinə düşən vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması imkanlarını nəzərdə tutur və bununla da onların istehsalın genişləndirilməsinə və biznesin leqallaşdırılmasına olan maraqlarına təsir göstərir.

"İqtisadi ədəbiyyatlarda ölkə vergi sisteminin formalaşmasının ilk illərindən başlayaraq vergi yükü barədə, iqtisadiyyata düşən həddindən artıq vergi təzyiqi haqqında yazılara tez-tez rast gəlinmiş, lakin istehsalın inkişafı amili kimi vergi yükünün tədqiqi, vergi yükü göstəricisinin istifadə sferası sistemli xarakter daşımamışdır. Bununla əlaqədar olaraq müxtəlif səviyyələrdə konkret istifadə məqsədləri müəyyən edilməklə vergi yükü göstəricisinin hesablanması metodikasının işlənməsi və onun əsaslandırılması məsələsi aktuallıq kəsb edir"(5).

Mütəxəssislərin fikrinə görə, iqtisadi inkişafın qarşısını alan əsas amillərdən biri fiskal siyasətin düzgün aparılmamasıdır. Belə ki, vergi yükünün yüksək olması istehsal subyektlərinə normal iqtisadi fəaliyyətlərini davam etdirməyə bir sıra maneələr törədir. Bu isə öz növbəsində müəyyən mənfi nəticələrə gətirib çıxarmış olur. Əvvəla, sahibkarlıq subyektlərinin fəaliyyəti öz aktivliyini xeyli dərəcədə itirir. Digər tərəfdən isə vergi yükünün ağırlığı altında dözə bilməyən fiziki və hüquqi şəxslər daha çox vergidən yayınmağa meyl edirlər ki, bu da öz növbəsində həm kölgə iqtisadiyyatının həcminin artmasına səbəb olur, həm də dövlətin büdcə kəsiri problemlərini daha kəskin şəkildə qabartmış olur.

Eləcə də vergi yükünün optimal səviyyəsindən aşağı olması dövlətin bir sıra iqtisadi funksiyalarının, o cümlədən problemlərin həllinə yönələn siyasətinin səmərəliliyini aşağı salır.

"Bu cür şəraitdə fiskal siyasətin səmərəliliyinin qiymətləndirilməsi və vergi yükünün optimal səviyyəsinin müəyyən edilməsi məsələləri aktuallaşır. Bu məsələlərin həlli üçün bir sıra yanaşmalar mövcuddur ki, onların keyfiyyət metodu və kəmiyyət metodu xüsusi maraq doğurur. Keyfiyyət metodu vergi ödəyigilərinin hesablarına vəsait daxil olduqca vergilərin hesablanmasını nəzərdə tutur. Lakin bu yanaşmada makroiqtisadi təhlil metodları nəzərdə tutulmur. Bunun əksinə olaraq, kəmiyyət metodunun əsas məqsədi qüvvədə olan vergi qanunvericiliyinə əsasən fəaliyyət göstərən fiskal mexanizmlər çərçivəsində vergi dərəcələrinin və vergi yükünün səviyyəsinin maksimal dərəcədə rasional şəkildə müəyyən edilməsindən ibarətdir. Bu metod vergitutma sisteminin tamamilə yenidən qurulmasını nəzərdə tutmur, sadəcə, bəzi fiskal göstəricilərə düzəlişlərin edilməsi məqsədini daşıyır" (6).

Vergilərin hesablanmasının metodunun iki növünü göstərmək olar: kassa metodu, hesablama metodu. Azərbaycan Vergi Məcəlləsinin 130.4-cü maddəsində göstərilir ki, vergi ödəyicisi vergi ili

ərzində eyni metodu tətbiq etmək şərtilə vrgilərin uçotunu kassa metodu və ya hesablama metodu ilə apara bilər.

Məsələyə əsasən kassa metodu ilə uçot aparan vergi ödəyicisi gəliri əldə edəndə və ya gəlir onun sərəncamına veriləndə, bu gəliri nəzərə almalı və gəlirdən öz xərclərini yalnız bu xərcləri çəkdiyi zaman çıxmalıdır. Kassa metodu tətbiq edən vergi ödəyicisi tərəfindən mal və xidmətlərə görə ödənişi hələ əldə etməyibsə, o zaman vergitutma obyekti yaranmır.

"Kassa metodunu seçən zaman pul vəsaitlərinin kassaya və ya hesablaşma hesabına istənilən mədaxili gəlir, uçot dövrü ərzində həyata keçirilmiş istənilən ödəniş və ya köçürmə isə xərclər hesab edilir. Bu vəziyyətdə, eyni dövr üçün gəlir və xərclər arasındakı əlaqə heç bir əhəmiyyət daşımır...

Kassa metodunun üstünlükləri :

- istifadədə çox sadədir, çünki yalnız ödənilmiş və ya əldə edilmiş nağd vəsaitləri nəzərə alır;
- şirkətlərin pul axınını çox rahatlıqla izləmək mümkündür;
- vergi öhdəlikləri ancaq vəsait daxil olduqda hesablanır" (7).

Hesablama metodu ilə vergi ödəyicisi gəlir əldə edilməsinin və xərc çəkilməsinin faktiki vaxtından asılı olmayaraq gəlirini və xərcini müvafiq surətdə gəlir almaq hüququnun əldə edildiyi və ya xərcin çəkilməsi barədə öhdəliyin yarandığı vaxt nəzərə alınmalıdır.

Hesablama metodunda müəyyən bir dövr üçün gəlirlər onların ödənişindən asılı olmayaraq, həmin dövr ərzində satılmış malların və xidmətlərin satış dəyəri hesab olunur. Xərc isə realizə olunan malların və xidmətlərin maya dəyəri, habelə müəssisə tərəfindən malların və xidmətlərin istehlakıdır. Bu isə təchizatçıya ödəniş edilib edilməməsindən asılı olmur. Başqa sözlə, əgər sizin gəlirləriniz mühasibat xidmətlərindən formalaşırsa, bu zaman həmin xidmətlə əlaqəli olan dövrə aid hər şey- icarə, mühasibin maaşı, kommunal xərclər və s. xərclər hesab olunur. Bu isə o deməkdir ki, bütün bunlar məhz həmin mühasibat xidmətinin satılmasına imkan yaradıb.

Hesablama metodu daha mürəkkəbdir və onun mənfəəti kassadakı qalıqla üst-üstə düşmür. Lakin əldə edilən mənfəət müəssisənin rentabelliyinin göstəricisi hesab edildiyindən hesablama metodunun daha böyük əhəmiyyəti vardır. Çünki gəlir, xərc və mənfəət bir-biri ilə əlaqəlidir.

"Vergi ödəyicisi vergi uçotunun aparılması üçün hesablama metodundan istifadə etdikdə, əqdlə bağlı olan xərcin çəkilməsi vaxtı aşağıda sadalanan şərtlərin hamısına əməl edildiyi vaxt sayılır:

- vergi ödəyicisi birmənalı olaraq maliyyə öhdəliklərini qəbul edir;
- maliyyə öhdəliklərinin məbləği dəqiq qiymətləndirilir;
- əqddə və ya müqavilədə iştirak edən bütün tərəflər əqd və ya müqavilə üzrə özlərinin bütün öhdəliklərini yerinə yetirmişlər, yaxud müvafiq məbləğlər qeyd-şərtsiz ödənilməlidir.

Yuxarıda göstərilən maliyyə öhdəliyi əqdə və ya müqaviləyə müvafiq surətdə qəbul edilən elə öhdəlikdir ki, onun yerinə yetirilməsindən ötrü əqdin və ya müqavilənin digər iştirakçısı pul şəklində müvafiq vəsait verməli olsun" (8).

İqtisadiyyat elmində fiskal siyasət dövlət gəlirlərinin və xərclərinin köməyi ilə iqtisadiyyata təsir etmək üçün istifadə olunur. Keyns iqtisadi məktəbinə görə, dövlət vergilərin səviyyəsini (dərəcəsini) və xərclərini dəyişdikdə bu məcmu tələbə və iqtisadi aktivliyə təsir göstərir.

"Fiskal siyasət biznes tsikllərində dəyişikliklər baş verdikdə iqtisadiyyatı sabitləşdirmək üçün tətbiq edilir. Fiskal siyasətin iki əsas aləti olan vergilər və dövlət xərcləri dəyişdikdə, bu aşağıdakı makroiqtisadi göstəricilərə təsir göstərir:

- məcmu tələb və iqtisadi aktivliyin səviyyəsi;
- yığım və investisiyalar;
- gəlirlərin bölgüsü.

Fiskal siyasət monetar siyasətdən bəzi xüsusiyyətlərinə görə fərqlənir. Belə ki, fiskal siyasət qanunvericilik aktı ilə tənzimlənən dövlət gəlirləri və xərclərindəki dəyişiklik vasitəsi ilə iqtisadiyyata təsir göstərir.

Monetar siyasət isə mərkəzi bank tərəfindən pul təklifinə, faiz dərəcəsinə və məcburi ehtiyat normasına təsir etməklə bunu həyata keçirir" (9).

Dünya təcrübəsi göstərir ki, bazar iqtisadi münasibətlərinin makrosəviyyədə tənzimlənməsinin ümumi sistemində vergilər əhəmiyyətli rol oynayır. Vergilər- büdcə gəlirlərinin formalaşdırılmasında, dövlət və yerli özünüidarəetmə strukturlarının konkret mal və xidmət istehsalçıları ilə, o cümlədən hüquqi və fiziki şəxslərlə iqtisadi münasibətlərinin tənzimlənməsində mühüm sosial-iqtisadi kateqoriya və vasitə kimi çıxış edir. Vergilərin tənzimləyici funksiyası, iqtisadiyyatın dövlət tənzimlənməsi baxımından, mühüm əhəmiyyət kəsb edir, eyni zamanda, iqtisadi inkişafın stimullaşdırılmasında da əhəmiyyətli rol oynayır. İnkişaf etmiş ölkələrin təcrübəsində vergilərin tənzimləyici funksiyası bazar iqtisadiyyatı subyektləri üçün yeni texnologiyaların istifadəsi və investisiya strategiyasının aktivləşdirilməsi yolu ilə istehsalın inkişafına əlverişli şərait yaradılmasını özündə əks etdirir ki, bütün bunlar da nəticə etibarilə vergi qanunvericiliyinin keyfiyyətcə dəyişdirilməsi vasitəsilə həyata keçirilir.

“Dövlət orqanlarının vergi sisteminin çevikliyini yüksəltmək və onu təkmilləşdirməklə bağlı gördüyü tədbirlərə əhalinin ayrı-ayrı qruplarına, müstəqil təsərrüfatçılıq fəaliyyətinə ilk dəfə başlayan xırda və orta sahibkarlara, kənd təəsərrüfatı, əmtəə istehsalçılarına vergi güzəştlərinin tətbiqini aid etmək olar. Bu məqsədlə tətbiq edilən güzəştlər sosial yönümlülükdən daha çox tənzimlənmə xarakteri daşıyır. Vergilərin sosial və tənzimlənmə funksiyaları mənfəətin müəyyən hissəsinin vergilərdən azad olunmasına imkan verir.

Makroiqtisadi tənzimlənmə siyasətində vergilərin yerinə yetirdiyi tənzimləyici funksiyalara aşağıdakılar aid edilir:

- vergiqoyma sisteminin müəyyən edilməsi və dəyişdirilməsi ;
- vergi dərəcələrinin müəyyən edilməsi və dəyişdirilməsi;
- vergi dərəcələrinin tətbiq edilməsi.

Vergilərin qlobal şəkildə aşağı salınması mənfəətin artmasına, təsərrüfat fəaliyyətinin stimullarının güclənməsinə, kapital qoyuluşunun və məşğulluğun genişlənməsinə gətirib çıxarır. Mənfəətə görə vergi dərəcəsini dəyişdirməklə, dövlət kapital qoyuluşuna və məşğulluğun genişlənməsinə gətirib çıxarır. Mənfəətə görə vergi dərəcəsini dəyişdirməklə, dövlət kapital qoyuluşuna əlavə stimullar yaradır və ya onu aşağı salır, dolayı vergilərin səviyyəsini dəyişməklə isə istehlak fondlarına, qiymətlərin səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir” (10).

İdarəetmə səviyyəsinə görə vergilərin təsnifatı konkret olaraq baxılan ölkənin dövlət quruluşundan asılıdır. Bir qayda olaraq, federativ quruluşlu dövlətlərdə vergilər üçsəviyyəli, unitar dövlətlərdə isə ikisəviyyəli olurlar. Üçsəviyyəli olan halda idarəetmə səviyyəsinə görə vergilər aşağıdakı kimi təsnifləşdirilir:

- ümumdövlət vergiləri;
- ərazi (federasiya və ya konfedrasiya subyektlərinin) vergiləri;
- yerli vergilər.

Unitar dövlətlərdə isə, bir qayda olaraq, idarəetmə səviyyəsinə görə vergilər aşağıdakı kimi təsnifləşdirilir:

- ümumidövlət vergiləri;
- yerli vergilər.

Məqsədli istiqamətinə görə vergilərin aşağıdakı növləri fərqləndirilir:

- mücərrəd vergilər; məqsədli vergilər.

Mücərrəd vergilər dövlət xərclərinin konkret istiqamətlərinin maliyyələşdirilməsi üçün daxil edilirlər. Adətən məqsədli ödənişlər üçün xüsusi büdcədənkənar fondlar yaradılır.

“Vergitutma praktikasının nəzəri cəhətdən əsaslandırılması istiqamətində görülən işlər vergi nəzəriyyəsində öz əksini tapmışdır. Onların təkamülü iqtisadi fikrin müxtəlif istiqamətlərinin inkişafı ilə eyni zamanda baş vermişdir. Vergitutmanın ümumi və xüsusi nəzəriyyələrini xronoloji ardıcıllıqla təhlil etmək fikrində deyilik. Lakin bu sahədə bəzi məqamlara diqqət yetirmək tədqiqatın məqsədləri baxımından zəruridir...

...XX əsrin ikinci yarısından başlayaraq vergilər bazar təsərrüfatının ümumi tarazlığının tənzimləyicisi kimi geniş istifadə olunur. Vergilərin belə istifadəsi xüsusən çoxsaylı antiböhran

proqramlarda nəzərərdə tutulur. Belə proqramlarda iqtisadiyyatın tənzimləyicisi kimi vergilərə müxtəlif rol ayırılır ki, bu da hökumət tərəfindən rəhbərlik edilən konsepsiyadan asılıdır" (11).

Azərbaycan Respublikasının müasir vergi sistemi müstəqillik illərində formalaşıb. Müstəqilliyin ilk illərində ayrı-ayrı qanunvericilik aktları ilə tənzimlənən sistem, sonradan daha da inkişaf etdirildi. 2001-ci ilin yanvarın 1-dən tətbiq edilən Vergi Məcəlləsi vasitəsilə bu sahədə mövcud normativ hüquqi aktlar sistemləşdirildi, ayrı-ayrı qanunlar vahid kodeksdə toplandı.

Vergi ödəyicilərinin ödəmə qabiliyyətinə uyğun olaraq vergitutma aşağıdakı 3 istiqamətdə aparılır:
- gəlir üzərindən;
- istehlak üzərindən;
- sərvət üzərindən.

"Azərbaycanda gəlirlər üzərindən alınan vergi növləri bunlardır:
- fiziki şəxslərin gəlir vergisi;
- hüquqi şəxslərin mənfəət vergisi;
- sadələşdirilmiş vergi.

Azərbaycan Vergi Məcəlləsində istehlak etdiyimiz mallara və xidmətlərə görə alınan vergilərin növləri belə müəyyən olunub:
- əlavə dəyər vergisi (ƏDV);
- aksiz vergisi;
- yol vergisi;
- mədən vergisi" (12).

## Nəticə

Məqalədə müəllif vergi yükünü, onun hesablanma metodlarını, vergitutmanın aparılma istiqamətini, gəlirlərə, istehlak və xidmətlərə görə alınan vergi növlərini, o cümlədən vergilərin iqtisadiyyata təsirini araşdırmışdır.

Tədqiqat işi göstərir ki, vergi yükünə vergilərlə yerinə yetirilən funksiya prizmasından baxmaq lazımdır. Ölkədə vergi yükünün səviyyəsi iqtisadi inkişafın seçilmiş modelindən asılıdır ki, bu da dövlətin yenidən bölgüyə hansı dərəcədə müdaxilə etməsini və həmçinin verginin fiskal və tənzimləyici funksiyasının balanslaşdırılmasını əvvəlcədən təyin edir.

## Ədəbiyyat

1. https://www.taxes.gov.az>...
2. https://tedris.taxes.gov.az>1...
3. https://unec.edu.az>2016/07
4. tedris-maliye.az>images/books/vergiler Və...
5. https://vergiler.az>news>taxes
6. https://www.taxes.gov.az
7. www.TAXES.GOV.AZ
8. https://wwwmuhasib.az>article
9. https://az.m.wikipedia.org.wiki
10. https://www.elibrary.az>JURNAL
11. https:/core.ac.uk>pdf
12. https://www.muhasibat.az>azerba...

Göndərilib: 11.02.2024 Qəbul edilib: 22.03.2024

## İÇİNDƏKİLƏR

**Günay Məmmədova**
Türkiyənin İğdır və Qars bölgələrinin folklorunda unudulmuş mövsüm mərasimləri . . . . . . . 6
**Türkan İsmayıllı**
Koqnitiv modelləşmə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 12
**Ramilə Nəsirova**
Müxtəlifsistemli dillərdə qrammatik anomaliyalar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 17
**Fatma Betul Aydemir Bash**
1989 Fergana massacre in Turkish newspapers . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 23
**Nuri Alaviyya, Gulay Yasinli**
The impact of globalization on English language . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 31
**Konul Buyuker, Fakhriyya Rajabova**
Analysis of tax control on excise goods in Azerbaijan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36
**Aidə Novruzova, Kifayət Hüseynova**
İnsan şəxsiyyətinin formalaşmasında müəllim fəaliyyətinin pedaqoji xüsusiyyətləri . . . . . . 44
**Zenfira Seyidova, Sevda Ocaqquliyeva, Nərmin Novruzova**
İnsanların mədəni-mənəvi tərbiyəsində memorial muzeylərin rolu . . . . . . . . . . . . . . . . . . 49
**Dilbər Orucova**
Bədii diskursda dini metaforalar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 54
**Səadət Əliyeva**
İctimaiyyətlə əlaqələr strategiya kimi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 59
**Aynurə Hümmətli**
Tərbiyə və pedoqoji ustalıq 64
**Tural Quliyev**
İqtisadi sistemlərdə qeyri-müəyyənlik anlayışı və onun qiymətləndirilməsi . . . . . . . . . . . . . 68
**Parviz Mammadov**
Sectoral analysis of foreign investment . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 76
**Elkhan Salmanov**
Effects of online banking on banks' financial performance . . . . . . . . . . . . . . . . . . . . . . . . . 81
**Shanay Abbasova**
Methods of guaranteeing the performance of the obligation as a means of credit
risk management . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 86
**Irada Zulfigarova**
Examining the citizen-centered approach in public administration:
a case study of the USA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 90
**Ceyhunə Aslanova**
Anarın nəsrində Qarabağ nisgili . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 95
**Müşviq Mehbalıyev**
İranın nüvə böhranının həlli cəhdləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 99
**Mədinə Abbaszadə**
Avropa İttifaqı çərçivəsində şirkətlərin aqressiv vergi planlaması, mexanizmləri və
mübarizə yolları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 105
**Nurlana Abdullayeva**
Leveraging digital PR (Public Relations) for effective communication in government . . . . 110

**Gullar İsgandarli**
Changes in middle and early modern English simple sentence patterns (SP, SPO and SPC sentence models) . . . . . 115
**Parviz Mammadov**
Economic reforms and their impact on foreign investment in Turkiye . . . . . 121
**Elkhan Salmanov**
Impact of digital banking and other factors on the financial performance of banks . . . . . 126
**Əli Əhmədov**
Vergitutmanın tarixi: nəzəriyyələri, vergi növləri və vergi elementləri . . . . . 132
**Emilya Babayeva**
Ruhun səsi . . . . . 138
**Aynur Mammadova**
The role of logic and intuition in mathematics teacher training . . . . . 143
**Süsəngül Mahmudova**
İngilis dilindən Azərbaycan dilinə tərcümə zamanı idiomların tərcümə prinsipləri . . . . . 148
**Amil Guliyev**
Effects of globalization on commercial life . . . . . 152
**Mirzabala Poladov**
The economic crisis of the regulation of the working system: artificial intelligence . . . . . 156
**Gülçöhrə Hüseynzadə**
Vahid məhkəmə təcrübəsi prinsipinin milli hüquq sistemində yeri . . . . . 161
**Əli Əhmədov**
Vergi yükü, onun hesablanması metodları, büdcə gəlirlərinə və iqtisadiyyata təsiri . . . . . 166

İmzalandı: 27.04.2024
Formatı: 60/84, 1/8
H/n həcmi: 21,75 ç.v.
Sifariş: 752

---

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az